# 15 İyun Milli Qurtuluş Günüdür!


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 103 (31072) 13 iyun 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Ümummilli liderin xilaskarlıq missiyası dövlət müstəqilliyimizi qorudu və əbədiləşdirdi



**Müasir Azərbaycanın bütün uğurları Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda rəhbərliyə gəldikdən sonra vətəndaş qarşıdurmasına son qoyuldu, ölkədə qayda-qanun yaradıldı, müharibə dayandırıldı.**

**Heydər Əliyevin hakimiyyətə gəlməsi bizim üçün nicat yolunu açdı və o vaxtdan bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir. Ulu öndərin bütün həyatı, fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan onun əsəridir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

**Hörmətli Vladimir Vladimiroviç!**

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda bütün rusiyalıları dövlət bayramı – Rusiya Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər xalqlarımızı əsrlər boyu birləşdirən dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. İkitərəfli iqtisadi-ticari qarşılıqlı fəaliyyətin fəal şəkildə inkişaf etməsini, regionlararası və mədəni-humanitar əlaqələrin genişlənməsini məmnunluqla qeyd edirəm.

Əminəm ki, birgə səylərimiz dost ölkələrimizin və xalqlarımızın rifahı naminə Azərbaycan-Rusiya münasibətlərinin, strateji tərəfdaşlıq və müttəfiqlik məcrasında çoxplanlı əməkdaşlığın bundan sonra da inkişafına və möhkəmlənməsinə kömək edəcək.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, Rusiyanın bütün vətəndaşlarına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı, 9 iyun 2026-cı il**

## Azərbaycan–Tailand: gələcək tərəfdaşlıq axtarışı



Səhifə ⇨ 12

## Kremlin yeni taktiki kurs seçimi



**“Moskva xarici siyasətdə Avropa diktəsinə qəti şəkildə müqavimət göstərən Tbilisi ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə açıqdır”.**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. Diplomat KİV nümayəndələri üçün keçirdiyi brifinqdə qeyd edib ki, Gürcüstan hakimiyyəti, görünür, ölkənin suverenliyinin və ləyaqətinin bərpası istiqamətində seçim edib. Sonra əlavə edib ki, Rusiya Gürcüstan rəhbərliyinin xaricdən edilən diktəyə son qoymaq cəhdlərini anlayışla qarşılayır. “Qarşılıqlı fayda gətirən və qarşılıqlı hörmət prinsipləri əsasında qurulan əməkdaşlığın genişləndirilməsi üçün Moskva açıqdır”, – deyə o vurğulayıb.

*(ardı 15-ci səhifədə)*

## Sülhün dönməz prosesə çevrilməsi: Azərbaycanın şərti və ...rus hərbçiləri



Səhifə ⇨ 14

## Dövlət Proqramı Azərbaycan kəndini yeni yüksəliş yoluna çıxarıb



Səhifə ⇨ 3-4

## “E3”ün Moskva missiyası



Səhifə ⇨ 15

## Azərbaycanda da günəş panelləri buraxılacaq



Səhifə ⇨ 16

## Avropa İttifaqında mövqe mübarizəsi



Səhifə ⇨ 13

## Meksikanın qələbə startı



Səhifə ⇨ 19

## Aqroparklar çağdaş aqrar istehsal modelidir



Səhifə ⇨ 17

# Filippin Respublikasının Prezidenti Zati-aliləri cənab Ferdinand Romualdez Markosa

**Hörmətli cənab Prezident!**

Filippin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Filippin arasında dostluq və əməkdaşlıq münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq inkişafı və genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Filippin xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyun 2026-cı il**

# “Hava limanlarının (aeroportların) idarə edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** “Hava limanlarının (aeroportların) idarə edilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2026-cı il**

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Hava limanlarının (aeroportların) idarə edilməsi QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının 5.1-ci bəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasında hava limanlarının (aeroportların) (bundan sonra – hava limanları) idarə edilməsi ilə bağlı əsas prinsipləri və tələbləri müəyyən edir.

1.2. Bu Qaydanın müddəaları mülki hava limanlarına şamil edilir.

1.3. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. beynəlxalq hava limanı – Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən beynəlxalq hava limanı statusu verilmiş, hava gəmilərinin qəbulu və yola salınması, beynəlxalq hava daşımalarına xidmət göstərilməsi üçün nəzərdə tutulan və müvafiq aerodromu, aerovağzalı, digər yerüstü tikililəri, lazımi avadanlığı olan qurğular kompleksi;

1.3.2. hava limanlarının idarə edilməsi – hava limanlarının idarə edilməsi sahəsində tənzimləmə, hava limanlarının maliyyələşdirilməsi və hava limanlarında investisiya fəaliyyəti, beynəlxalq və yerli hava limanları ilə bağlı aviasiya və qeyri-aviasiya fəaliyyəti, həmçinin hava limanlarında uçuşların təhlükəsizliyi, aviasiya təhlükəsizliyi və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində görülən işlərə nəzarətin həyata keçirilməsi;

1.3.3. hava limanının istismarçısı – bir və ya bir neçə hava limanını qanuni əsaslarla istismar edən dövlət orqanı (qurumu), fiziki və ya hüquqi şəxs;

1.3.4. qeyri-aviasiya fəaliyyəti – mülki aviasiya subyektləri, o cümlədən sahibkarlıq subyektləri tərəfindən kommersiya imkanlarının genişləndirilməsi və əlavə gəlir formalaşdırılması məqsədilə hava limanlarında həyata keçirilən və bu Qaydanın 8.2-ci bəndində qeyd edilən fəaliyyət;

1.3.5. yerli hava limanı – dövlət sərhədindən buraxılış məntəqələri olmayan, hava gəmilərinin qəbulu və yola salınması, daxili hava daşımalarına xidmət göstərilməsi üçün nəzərdə tutulan və müvafiq aerodromu, aerovağzalı, digər yerüstü tikililəri, lazımi avadanlığı olan qurğular kompleksi.

1.4. Bu Qaydada istifadə olunan digər anlayışlar “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanunu (bundan sonra – Qanun) və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

### 2. Hava limanlarının idarə edilməsi prinsipləri

2.1. Hava limanlarının idarə edilməsi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

2.1.1. təhlükəsizliyin təmin edilməsi;

2.1.2. müştəri məmnunluğu;

2.1.3. iqtisadi səmərəlilik və dayanıqlı inkişaf;

2.1.4. xidmətlərin əlçatanlığı;

2.1.5. ətraf mühitin mühafizəsi;

2.1.6. rəqabət mühitinin təmin olunması;

2.1.7. özəl sektorun iştirakının təşviqi.

### 3. Hava limanlarının idarə edilməsi sahəsində əsas vəzifələr

3.1. Mülki hava limanlarının idarə edilməsində tənzimləyici qurumun səlahiyyətlərini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi həyata keçirir.

3.2. Hava limanlarının idarə edilməsi üzrə tənzimləyici qurumun vəzifələri aşağıdakılardır:

3.2.1. hava limanlarının və (və ya) aerodromların, həmçinin yerüstü xidmət təminatçılarının sertifikatlaşdırılması;

3.2.2. uçuşların təhlükəsizliyinin, aviasiya təhlükəsizliyinin, həmçinin hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinin təmin olunması və idarə edilməsi sahələrini tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiya və onun əlavələri ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının (bundan sonra – BMAT) beynəlxalq standartlarının və tövsiyə olunan təcrübəsinin, Ümumdünya Gömrük Təşkilatının normalarının və standartlarının tətbiqi məqsədilə müvafiq sənədlərin hazırlanması və təsdiqi;

3.2.3. hava limanı istismarçılarının fəaliyyətinə nəzarətin və müfəttiş yoxlamalarının təşkili;

3.2.4. hava limanlarının idarə edilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların aidiyyəti orqanları (qurumları) ilə əməkdaşlıq edilməsi;

3.2.5. fəaliyyət istiqamətlərinə uyğun olaraq, hava limanlarının idarə edilməsi ilə bağlı normativ hüquqi aktların icrasına nəzarətin həyata keçirilməsi.

3.3. Hava limanının idarə edilməsi sahəsində hava limanı istismarçısının əsas vəzifələri aşağıdakılardır:

3.3.1. uçuşların təhlükəsizliyi, aviasiya təhlükəsizliyi və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində normativ hüquqi aktlarda, BMAT-ın beynəlxalq standartlarında və tövsiyə olunan təcrübəsində, Ümumdünya Gömrük Təşkilatının normalarında və standartlarında, Azərbaycan Respublikasının mülki aviasiya sahəsində tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi;

3.3.2. sərnişinlərə və daşıyıcılara yüksəkkeyfiyyətli xidmətlər göstərilməsi;

3.3.3. maddi-texniki bazanın və infrastrukturun qorunması və inkişaf etdirilməsi;

3.3.4. işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi;

3.3.5. aviasiya fəaliyyətinin ətraf mühitə təsirinin minimuma endirilməsi;

3.3.6. risklərin və təcili müdaxilə tələb edən vəziyyətlərin (təbii fəlakət, texnogen qəza (yanğın, partlayış), texniki nasazlıq, kiberhücum, epidemiya və ya pandemiyalar) idarə edilməsi;

3.3.7. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, digər vəzifələrin həyata keçirilməsi.

### 4. Hava limanlarının idarə edilməsi formaları

4.1. Hava limanlarının idarə edilməsi formaları onların mülkiyyət növü nəzərə alınmaqla təşkil olunur.

4.2. Dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan mülki hava limanlarının idarə edilməsi və infrastrukturunun inkişafı hava limanının istismarçısı tərəfindən Qanunun və bu Qaydanın tələblərinə uyğun olaraq həyata keçirilir.

4.3. Dövlət mülkiyyətində olan mülki hava limanlarının idarə edilməsi xüsusiyyətləri aşağıdakılardır:

4.3.1. infrastrukturun dövlətin mülkiyyətində olması;

4.3.2. idarəetmənin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəhbərlərinin təsdiq etdiyi texnoloji sxemə əsasən həyata keçirilməsinin təşkili;

4.3.3. ictimai iaşə xidmətlərinin göstərilməsi;

4.3.4. təsis sənədində nəzərdə tutulduğu halda hava limanı istismarçısının sahibkarlıq fəaliyyəti ilə məşğul olması.

4.4. Dövlət mülkiyyətində olan mülki hava limanları Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və ya dövlət-özəl tərəfdaşlığı layihəsi çərçivəsində “Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununa və həmin Qanundan irəli gələn digər normativ hüquqi aktlara uyğun olaraq özəl tərəfdaşa (sahibkarlıq subyektinə) idarəetməyə verilə bilər.

### 5. Hava limanlarının maliyyələşdirilməsi və hava limanlarında investisiya fəaliyyəti

5.1. Hava limanlarının tikintisi və yenidən qurulması dövlət büdcəsinin vəsaiti, hava limanı istismarçısının vəsaiti, kredit və qrantlar, fiziki və hüquqi şəxslərin ianələri, eləcə də qanunda nəzərdə tutulan digər mənbələr hesabına həyata keçirilə bilər.

5.2. Hava limanlarında investisiya fəaliyyəti “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

### 6. Beynəlxalq hava limanı

6.1. Beynəlxalq hava limanlarında fəaliyyət sərnişin, baqaj, yük və ya poçt göndərişlərinin beynəlxalq daşınmalarının həyata keçirilməsini, habelə təcili və təxirəsalınmaz tibbi yardım, xilasetmə, yanğınsöndürmə və fövqəladə hallarla əlaqədar işlərin yerinə yetirilməsini əhatə edir.

6.2. Beynəlxalq hava limanları aşağıdakı tələblərə cavab verməlidir:

6.2.1. BMAT-ın beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, o cümlədən Azərbaycan Respublikasının mülki aviasiya sahəsində tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə uyğun olmalıdır;

6.2.2. Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələri fəaliyyət göstərməlidir;

6.2.3. beynəlxalq hava daşımalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş sərnişin və (və ya) yük terminalları olmalı, yerüstü xidmət təşkil edilməlidir;

6.2.4. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqrama malik olmalıdır.

### 7. Yerli hava limanı

7.1. Yerli hava limanlarında fəaliyyət sərnişin, baqaj, yük və ya poçt göndərişlərinin daxili daşınmalarının həyata keçirilməsini, habelə təcili və təxirəsalınmaz tibbi yardım, xilasetmə, yanğınsöndürmə və fövqəladə hallarla əlaqədar işlərin yerinə yetirilməsini əhatə edir.

7.2. Yerli hava limanlarında daxili hava daşımalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş sərnişin və (və ya) yük terminalları olmalı, yerüstü xidmət təşkil edilməli, eləcə də həmin hava limanları hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqrama malik olmalıdır.

### 8. Hava limanlarında aviasiya və qeyri-aviasiya fəaliyyəti

8.1. Hava limanlarında hava gəmilərinin hərəkətinin bilavasitə təmin edilməsi, sərnişin, baqaj, yük və ya poçt göndərişlərinin daşınması üçün mülki aviasiya subyektləri tərəfindən aviasiya fəaliyyəti həyata keçirilir. Aviasiya fəaliyyətinə aşağıdakılar daxildir:

8.1.1. ümumi və xüsusi xarakterli aviasiya fəaliyyəti;

8.1.2. kommersiya hava daşımaları;

8.1.3. bu Qaydanın 8.1.1-ci və 8.1.2-ci yarımbəndlərində qeyd edilən fəaliyyətlər üzrə aşağıdakı xidmətlər:

8.1.3.1. enmə (qalxma), hava gəmisinin parklanması və texniki enmə (qalxma) zamanı təhlükəsizliyin təmini xidmətləri;

8.1.3.2. yerüstü xidmət;

8.1.3.3. hava gəmilərinin Azərbaycan Respublikasının ərazisində yerləşən hava limanına enməsi və ya qalxması üçün həyata keçirilən aeronaviqasiya xidmətləri;

8.1.3.4. hava limanlarının terminallarından istifadə üzrə sərnişin xidmətləri, o cümlədən sərnişinlərin və baqajın təhlükəsizliyinin yoxlanılması.

8.2. Qeyri-aviasiya fəaliyyətinə aşağıdakılar daxildir:

8.2.1. ticarət və pərakəndə satış xidmətləri (mağazalar, o cümlədən beynəlxalq hava limanının gömrük nəzarəti zonasında yaradılan rüsumsuz ticarət mağazaları);

8.2.2. iaşə xidmətləri (restoran və kafelər, qida köşkləri);

8.2.3. avtomobil parkı və nəqliyyat xidmətləri (ödənişli dayanacaqlar, taksi və transfer xidmətləri);

8.2.4. icarə xidmətləri (turizm agentlikləri, bank filialları və s. üçün sahələrin icarəsi);

8.2.5. digər xidmətlər (hava limanında yerləşən otellər, işgüzar səfərlər üçün konfrans və görüş otaqları və s.).

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident, əziz dost!**

Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm. İllər keçdikcə daha da möhkəmlənən əsl dostluğumuza və xalqlarımız arasındakı əlaqələrə görə minnətdaram. Regional sabitliyə töhfə verən, sülhün təşviqində və bizi ortaq məqsədlərimizə çatmağa yaxınlaşdırmaqda mühüm rol oynayan səylərinizi, ekstremizmə qarşı mübarizədə qətiyyətli mövqeyinizi çox yüksək qiymətləndirirəm.

Ölkənizin İsrailə davamlı dəstəyinə, oktyabrın 7-də HƏMAS-ın mənfur hücumundan sonra nümayiş etdirdiyiniz həmrəyliyə, həmçinin regional təhdidlərə qarşı mübarizənizə görə Sizə xüsusilə minnətdaram. Bu, hökumətlərimiz və xalqlarımız arasında əsl tərəfdaşlığımızın əsaslandığı etimadı və hörməti təsdiqləyir.

İkitərəfli münasibətlərimizin və süni intellekt, aviasiya, turizm, akademik sahələr də daxil olmaqla müxtəlif istiqamətlərdə əməkdaşlığımızın daha da genişləndirilməsini, həmçinin Birgə Komissiyanın növbəti iclasının keçirilməsini səbirsizliklə gözləyirəm.

Sizə, ailənizə və Azərbaycan xalqına daha yüksək firavanlıq və uğurlar arzulayıram.

**Hörmətlə,**

***Benyamin NETANYAHU,***
***İsrail Dövlətinin Baş naziri***

*

**Zati-aliləri cənab Prezident!**

Dost və qardaş Azərbaycan xalqının azadlığa, müstəqilliyə sarsılmaz inamının rəmzi olan 28 May - Müstəqillik Günü və 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Zati-alinizi, Azərbaycan Hökumətini və xalqını səmimi-qəlbdən təbrik edirəm. Azadlıq və müstəqillik uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsini minnətdarlıq və ehtiramla yad edirəm.

Azərbaycanın şanlı Vətən müharibəsində əldə etdiyi böyük nailiyyətlər nəticəsində Vətən torpaqlarının azad edilməsi tarixə müstəsna bir Qələbə kimi daxil olub. Bu şanlı Zəfər təkcə Azərbaycan xalqı üçün deyil, eyni zamanda, bütün Türk dünyası üçün qürur və sevinc mənbəyidir.

Dost və qardaş ölkələrimiz arasındakı əlaqələrin “Bir millət, iki dövlət” şüarı ilə bütün sahələrdə daha da möhkəmlənəcəyinə inamım qətidir. Əminəm ki, yüksələn Türkiyə və Azərbaycan öz bölgələrində sülh, sabitlik, inkişaf və rifahın təmin edilməsində ən fəal ölkələr kimi səylərini davam etdirəcəklər.

Zati-aliləri, bu bayramlar münasibətilə Sizə ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***Fuat OKTAY,***
***Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri***

# Koordinasiya Şurasının iclası



**Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının iyunun 11-də növbəti iclası keçirilib.**

Baş nazirin müavini, Koordinasiya Şurasının sədri Samir Şərifov keçirilməsi nəzərdə tutulan Maliyyə Kəşfiyyatı Orqanlarının Eqmont Qrupunun 32-ci plenar iclasına hazırlıq işlərinin mühüm əhəmiyyət daşıdığını qeyd edib. Vurğulanıb ki, tədbirin yüksək səviyyədə təşkili ilə bağlı təsdiq edilmiş İş planının icra vəziyyəti Koordinasiya Şurasının və aidiyyəti dövlət orqanlarının diqqət mərkəzindədir.

İclasda Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində aidiyyəti dövlət orqanları tərəfindən görülmüş və gələcək işlər barədə Koordinasiya Şurası üzvlərinin təqdim etdiyi məlumatlar dinlənilib və müzakirə olunub.

Eyni zamanda, “Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkə risk qiymətləndirilməsi” hesabatı Koordinasiya Şurası tərəfindən təsdiqlənib. Şuranın fəaliyyəti ilə bağlı digər məsələlər də nəzərdən keçirilib.

***XQ***

# Azərbaycan–Çin qida məhsulları ixracı razılaşması



**Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzlinin rəhbərlik etdiyi nümayəndə heyətinin Çinə işgüzar səfəri çərçivəsində bu ölkənin Baş Gömrük Administrasiyasının rəhbərliyi ilə görüşü keçirilib.**

Görüşdə Azərbaycanla Çin arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluq ifadə olunub, eyni zamanda, iki ölkə arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlığın inkişafı yüksək qiymətləndirilib.

Görüş zamanı Azərbaycanın kənd təsərrüfatı və qida məhsullarının Çin bazarına çıxış imkanlarının daha da genişləndirilməsi, idxal-ixrac əməliyyatlarının inkişafı, rəqəmsal həllərin tətbiqi, sertifikatlaşmanın qarşılıqlı şəkildə tanınması, eləcə də təhlükəsiz və səmərəli ticarətin təşviqi ilə bağlı aktual məsələlər barədə razılaşmalar əldə edilib.

Daha sonra AQTA sədri Qoşqar Təhməzli və ÇXR-in Baş Gömrük Administrasiyasının naziri xanım Sun Meycun iki qurum arasında rəsmi əməkdaşlıq sənədlərini imzalayıblar.

Səfər çərçivəsində AQTA sədri ÇXR Bazarın Tənzimlənməsi üzrə Dövlət Administrasiyasının naziri Luo Ven ilə görüş keçirib. Görüşdə qida təhlükəsizliyi sahəsində dövlət nəzarətinin gücləndirilməsi, effektiv təftiş sistemlərinin tətbiqi, riskəsaslı qida təhlükəsizliyinin təmin edilməsində rəqəmsal transformasiya imkanları, habelə digər qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

***XQ***

# Dövlət Proqramı Azərbaycan kəndini yeni yüksəliş yoluna çıxarıb

## *Strateji sənəd bölgələrdə geniş müzakirə edilir və yüksək qiymətləndirilir*

### *Gəncə-Daşkəsən*



**İyunun 12-də Gəncə-Daşkəsən iqtisadi rayonunda Azərbaycan Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**

Tədbir Prezident İlham Əliyevin sədrliyi ilə 2026-cı il 25 may tarixində kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.



Göygöldə keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələr, habelə Daşkəsən, Goranboy, Göygöl və Samux rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.

Prezidentinin köməkçi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov dövlətimizin başçısı İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verdiyi tapşırıqlar, həmçinin Daşkəsən, Goranboy, Göygöl və Samux rayonlarının aqrar inkişaf perspektivləri barədə danışıb. O vurğulayıb ki, Dövlət Proqramı aqrar sektorda məhsuldarlığın, gəlirliliyin və rəqabət qabiliyyətinin artırılmasını, emal imkanlarının və ixrac potensialının genişləndirilməsini, su və torpaq ehtiyatlarından daha səmərəli istifadəni, müasir suvarma texnologiyalarının tətbiqini, toxumçuluq və damazlıq bazasının gücləndirilməsini, eləcə də kənd təsərrüfatında intensiv və yüksək əlavə dəyər yaradan inkişaf modelinə keçidin sürətləndirilməsini nəzərdə tutur. Qeyd edilib ki, Prezidentin tapşırıqlarına uyğun olaraq ölkənin bütün iqtisadi rayonlarında keçirilən regional müşavirələrin əsas məqsədi Dövlət Proqramında nəzərdə tutulan hədəf və vəzifələri yerlərdə izah etmək, mövcud vəziyyəti qiymətləndirmək, fermer və sahibkarların rəy və təkliflərini dinləmək, eləcə də proqramın icrası ilə bağlı fəaliyyətlərin daha səmərəli əlaqələndirilməsini təmin etməkdir.

Kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev Dövlət Proqramı çərçivəsində Gəncə-Daşkəsən iqtisadi rayonu üzrə nəzərdə tutulan prioritet istiqamətlər barədə təqdimatla çıxış edib. O bildirib ki, Dövlət Proqramı aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixracyönümlülüyün artırılmasını, müasir və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsini hədəfləyir. Qeyd olunub ki, proqram çərçivəsində buğda istehsalında məhsuldarlığın yüksəldilməsi, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, kənd təsərrüfatı texnikası parkının yenilənməsi, lazer hamarlama texnologiyalarının tətbiqi, saxlama və logistika infrastrukturunun gücləndirilməsi, eləcə də intensiv bağçılıq və heyvandarlığın inkişafı üzrə kompleks tədbirlər nəzərdə tutulub. Təqdimatda fermerlər və sahibkarlar üçün nəzərdə tutulan dövlət dəstəyi mexanizmləri, o cümlədən subsidiya və güzəştli maliyyələşdirmə alətlərinin təkmilləşdirilməsi, soyuducu anbar və taxıl siloların yaradılmasına dəstək, damazlıq və yem bazasının gücləndirilməsi istiqamətində görüləcək işlər barədə ətraflı məlumat verilib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin birinci müavini Xəyyam Məmmədov çıxışında Gəncə-Daşkəsən iqtisadi rayonunun kənd təsərrüfatı potensialının reallaşdırılmasında su təminatının həlledici rolundan danışıb. O, region üzrə mövcud suvarma infrastrukturu, meliorasiya vəziyyəti və kənd təsərrüfatı istehsalçılarının su təminatı istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. X.Məmmədov kənd təsərrüfatının, eləcə də akvakultura və balıqçılıq kimi prioritet sahələrin inkişafının dayanıqlı, etibarlı su təminatı olmadan mümkünsüzlüyünü vurğulayıb və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Dövlət Proqramının icrası çərçivəsində fermerlərin su təminatının yaxşılaşdırılması istiqamətində fəaliyyətini davam etdirəcəyini diqqətə çatdırıb.

Sonra Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov rayonda kənd təsərrüfatı sahəsində görülən işlər və mövcud inkişaf potensialı barədə məlumat verib. Qeyd olunub ki, son illər dövlət dəstəyi tədbirləri nəticəsində rayonda kənd təsərrüfatı istehsalının həcmi artmış, intensiv və superintensiv bağçılığın genişləndirilməsi, müasir suvarma sistemlərinin tətbiqi, əkin dövriyyəsinin səmərəliliyinin artırılması və fermerlərin dövlət dəstəyi mexanizmlərindən istifadəsinin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Daha sonra çıxış edən "Region Aqro" MMC-nin icraçı direktoru Xatirə Məmmədova və "Milagro Ganaderia" MMC-nin rəhbəri Fərid Mustafayev kənd təsərrüfatı sahəsinə göstərilən diqqət və qayğıya, eləcə də davamlı dövlət dəstəyinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar Dövlət Proqramında nəzərdə tutulan dəstək mexanizmlərinin mövcud təsərrüfatların genişləndirilməsi və yeni istehsal sahələrinin yaradılması üçün əlavə imkanlar açacağını vurğulayıblar.

Müşavirənin yekununda Prezidentin köməkçisi Şahmar Mövsümov Dövlət Proqramının yerlərdə səmərəli icrasının təmin olunması məqsədilə yerli icra hakimiyyəti orqanları, aidiyyəti dövlət qurumları, fermerlər, sahibkarlar və investorlar arasında koordinasiyalı fəaliyyətin həlledici əhəmiyyət daşıdığını vurğulayıb. Həmçinin Dövlət Proqramının fermerlər və sahibkarlar arasında geniş təbliğinin təşkili, ölkəyə idxal olunan məhsulların yerli istehsalının artırılması istiqamətində özəl sektorun fəal iştirakının təmin edilməsi və aqrar dəyər zəncirinin bütün həlqələri üzrə əməkdaşlığın gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

### *Mərkəzi Aran*

**İyunun 12-də Mərkəzi Aran iqtisadi rayonunda Azərbaycan Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**



Tədbir Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Ağdaşda keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələr, habelə Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax, Zərdab rayonlarından olan fermerlər iştirak ediblər.

Prezidentin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev Prezident İlham Əliyevin kənd təsərrüfatı sahəsinə göstərdiyi diqqətdən və bu məqsədlə keçirilən müşavirədə verilən tapşırıqlardan danışıb, habelə yeni Dövlət Proqramının məqsədi və əhəmiyyəti barədə iclas iştirakçılarına ətraflı məlumat verib. Qeyd edib ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahənin inkişafı istiqamətində genişmiqyaslı islahatlar həyata keçirilib, kənd təsərrüfatı məhsullarının istehsalına dövlət dəstəyi mexanizmləri təkmilləşdirilib, aqroparklar yaradılıb, müasir suvarma sistemlərinin tətbiqi genişləndirilib, torpaq və su resurslarından istifadənin səmərəliliyinin artırılması istiqamətində mühüm layihələr icra olunub. Yeni Dövlət Proqramı bu islahatların məntiqi davamı olmaqla aqrar sektorun inkişafında yeni mərhələnin əsasını təşkil edir.



Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov çıxışında Mərkəzi Aran iqtisadi rayonunda su təminatı, mövcud meliorasiya və su təsərrüfatı infrastrukturu, həyata keçirilən və perspektivdə nəzərdə tutulan layihələr barədə ətraflı məlumat verib. Çıxış zamanı su ehtiyatlarından səmərəli və qənaətli istifadənin vacibliyi xüsusi qeyd edilib. Bildirilib ki, Dövlət Proqramı çərçivəsində müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, su uçotunun təkmilləşdirilməsi, rəqəmsal idarəetmə və monitorinq sistemlərinin qurulması istiqamətində tədbirlər həyata keçiriləcək.

Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli Dövlət Proqramı çərçivəsində Mərkəzi Aran iqtisadi rayonunda kənd təsərrüfatının inkişaf prioritetləri və nəzərdə tutulan dəstək mexanizmləri barədə təqdimatla çıxış edib. Təqdimatda regionun ixtisaslaşma istiqamətləri nəzərə alınmaqla taxılçılıq, meyvəçilik, bostançılıq və heyvandarlıq sahələrinin inkişafı, məhsuldarlığın yüksəldilməsi, müasir aqrotexniki yanaşmaların və innovativ texnologiyaların tətbiqi, su və torpaq resurslarından səmərəli istifadə, aqrar sığorta və subsidiya mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də fermerlərin aqrar məsləhət və təlim xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi məsələləri diqqətə çatdırılıb.

Sonra Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Hüseynzadə rayonda kənd təsərrüfatı sahəsində görülən işlər barədə məlumat verib. O, Dövlət Proqramının rayon üçün əhəmiyyətindən danışaraq bildirib ki, 2026–2030-cu illər üçün Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin operativ icrasını təmin etmək məqsədilə rayonda hazırlıq işlərinə artıq başlanılıb. Bu çərçivədə Kənd Təsərrüfatı Nazirliyi ilə birgə Tədbirlər Planının hazırlanması həyata keçirilir, prioritet istiqamətlər üzrə konkret fəaliyyətlər müəyyənləşdirilir və aidiyyəti qurumlar arasında koordinasiya mexanizmləri formalaşdırılır. Qeyd edib ki, Dövlət Proqramının qarşıya qoyduğu hədəflərə nail olunması üçün rayon səviyyəsində zəruri təşkilati və institusional tədbirlərin həyata keçirilməsi təmin ediləcək.

Daha sonra çıxış edən fermer və sahibkarlar kənd təsərrüfatı sahəsinə göstərilən diqqət və qayğıya, eləcə də davamlı dövlət dəstəyinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar Dövlət Proqramında nəzərdə tutulan dəstək mexanizmlərinin mövcud təsərrüfatların genişləndirilməsi və yeni istehsal sahələrinin yaradılması üçün əlavə imkanlar açacağını vurğulayıblar. Eyni zamanda, regionun fermerləri adından Dövlət Proqramında nəzərdə tutulan məsələlərin icrası istiqamətində üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün daha səylə çalışacaqlarını, məhsuldarlığın artırılması və aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi üçün bütün imkanlardan istifadə edəcəklərini bildiriblər.

Müşavirənin yekununda Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev Dövlət Proqramının Mərkəzi Aran iqtisadi rayonunda səmərəli icrasının təmin olunması məqsədilə bütün əlaqəli qurumlara konkret tapşırıqlar verib. Tapşırıqlarda suvarma və meliorasiya tədbirlərinin gücləndirilməsi, əkin sahələrində aqrotexniki qulluq işlərinin vaxtında aparılması, fermerlərlə maarifləndirmə işinin genişləndirilməsi, yerli icra hakimiyyəti orqanları, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və digər aidiyyəti qurumlar arasında koordinasiyanın daha da gücləndirilməsi xüsusi vurğulanıb. Qeyd edilib ki, Dövlət Proqramının icrası Mərkəzi Aran iqtisadi rayonunda taxılçılıq, meyvəçilik, bostançılıq və heyvandarlığın inkişafına, məhsuldarlığın yüksəldilməsinə, fermer təsərrüfatlarının dayanıqlılığının artırılmasına və regionun aqrar potensialından daha səmərəli istifadə olunmasına mühüm töhfə verəcək.

## Aqrar sahəyə 6 milyard manat investisiya qoyulacaq

**Bölgələrdə keçirilən müşavirələrin məqsədi aqrar sahə üzrə 2026–2030-cu illər üçün Dövlət Proqramından irəli gələn vəzifələrin izah edilməsi, nəzərdə tutulan hədəflərin fermerlərə və sahibkarlara çatdırılmasıdır. Eyni zamanda bu hədəflərə nail olmaq üçün hansı alətlərdən istifadə ediləcək, dövlət tərəfindən hansı dəstək göstəriləcək, bu dəstəyin həcmi nə olacaq - bütün bunlar izah olunur.**

Bunu Göygöl rayonunda jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi–Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov deyib.

Dövlət Proqramında bir çox sahələr üzrə konkret hədəflərin müəyyənləşdiyini deyən Şahmar Mövsümov bildirib ki, proqram, ümumilikdə, 5 prioritet məsələni, 16 fəaliyyət istiqamətini və 86 tədbiri əhatə edir. Bu tədbirlərin icrası nəticəsində hər sahə üzrə konkret rəqəmlər hədəflənib. Buna müasir suvarma sistemlərinin tətbiq olunduğu hazırkı 130 min hektar sahənin 300 min hektara çatdırılmasını, pambıqçılıq və buğda istehsalında məhsuldarlığın bir hektardan 5 tona qədər artırılmasını misal göstərmək olar.

"İndiyə qədər dövlət dəstəyi alətləri daha çox bitkiçilik üzərində formalaşırdı. Yeni Dövlət Proqramında isə həm heyvandarlıq, həm də akvakultura və balıqçılıq üçün də konkret tədbirlər nəzərdə tutulur", - deyə o əlavə edib.



Dövlət Proqramından gözləntilər barədə danışan Prezidentin köməkçisi qeyd edib ki, təxminən, 6 milyard manat həcmində investisiyanın cəlb ediləcəyi gözlənilir. Bunun 2,2 milyard manatdan çoxu dövlət tərəfindən, 3,7 milyard manatı isə özəl sektor tərəfindən investisiya kimi nəzərdə tutulur.

## Güzəştli kreditlər və subsidiyalar artacaq

**Əsas məqsədimiz regionlarda keçirilən müşavirələr vasitəsilə fermerlərin, sahibkarların, yerli icra hakimiyyətlərinin və aidiyyəti dövlət qurumlarının yeni Dövlət Proqramı barədə məlumatlandırılması, nəzərdə tutulan tədbirlərin yerlərə çatdırılması, kənd təsərrüfatının inkişafına yerində dəstəyin təmin olunmasıdır. Bu məqsədlə ilk müşavirələrdən biri Ağdaş rayonunda keçirildi. Müşavirədə fermerlərin, sahibkarların və dövlət qurumlarının iştirakı ilə kənd təsərrüfatının əsas prioritet istiqamətləri müəyyənləşdirildi, dövlət dəstək mexanizmləri barədə məlumat verildi.**

Bu fikirləri Ağdaşda kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramının müzakirəsi ilə bağlı keçirilən regional müşavirədən sonra kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli deyib.

Nazir müavini bildirib ki, əsas hədəflərdən biri məhsuldarlığın artırılmasıdır. Xüsusilə buğda, ərzaqlıq buğda və pambıq istehsalında məhsuldarlığın yüksəldilməsi, intensiv kənd təsərrüfatının inkişafı - intensiv bağçılıq, istixana təsərrüfatları və intensiv heyvandarlıq prioritet istiqamətlər kimi müəyyən olunub. Məqsəd təkcə əkin sahələrinin genişləndirilməsi deyil, mövcud sahələrdə daha yüksək məhsuldarlığın əldə edilməsidir.

Üçüncü əsas istiqamət ixrac potensialının artırılması və emal sənayesinin inkişafıdır. Məhsulun tarladan son emal mərhələsinədək zəncir üzrə əlavə dəyər yaradılması və bunun ixrac imkanlarının genişləndirilməsi əsas prioritetlərdəndir. Nəticədə bu proseslər ölkənin ərzaq təhlükəsizliyinə, regionların sosial-iqtisadi inkişafına və fermer gəlirlərinin artmasına xidmət edəcək.



"Nazirlik çərçivəsində artıq işçi qrupları yaradılır. Bu qruplar regionlar üzrə fermer və sahibkarlarla birbaşa işləyəcək, onların layihələrini və investisiya planlarını dəqiqləşdirəcək, proqramla bağlı əməkdaşlıq mexanizmləri formalaşdıracaq. Eyni zamanda, yerlərdə yarana biləcək çətinliklərin operativ şəkildə həlli üçün yerli icra hakimiyyətləri və digər qurumlarla koordinasiya təmin ediləcək", - deyə S.Səfərli vurğulayıb.

Onun sözlərinə görə, Dövlət Proqramı çərçivəsində güzəştli kreditlər və faiz subsidiyaları da nəzərdə tutulur.

# Dövlət Proqramı Azərbaycan kəndini yeni yüksəliş yoluna çıxarıb

## *Strateji sənəd bölgələrdə geniş müzakirə edilir və yüksək qiymətləndirilir*

### *Qarabağ və Şərqi Zəngəzur*



**İyunun 12-də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda Azərbaycan Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**

Tədbir Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri, Zəngilan, Cəbrayıl, Qubadlı, Ağdam, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Kəlbəcər və Laçın rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev Prezident İlham Əliyevin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı müəyyən etdiyi prioritetlər və bu istiqamətdə keçirilmiş müşavirədə müzakirə olunan məsələlər barədə danışıb, həmçinin yeni Dövlət Proqramının qarşıya qoyduğu əsas hədəflər haqqında iştirakçılara ətraflı məlumat verib. Xüsusi nümayəndə qeyd edib ki, proqram aqrar sahədə məhsuldarlığın artırılması, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və yerli istehsalın inkişafına xidmət edir.

Sonra kənd təsərrüfatı naziri Məcnun Məmmədov aqrar sahədə əldə olunmuş nəticələr, mövcud çağırışlar və qarşıdakı dövr üçün müəyyən edilmiş inkişaf hədəfləri barədə məlumat verib. Nazir qeyd edib ki, Dövlət Proqramı çərçivəsində məhsuldarlığın artırılması, aqrar sığortanın əhatə dairəsinin genişləndirilməsi, balıqçılıq və akvakulturanın inkişafı, eləcə də aqrar xidmətlərin tam rəqəmsallaşdırılması nəzərdə tutulur. Həmçinin nazir Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən aqrar layihələr, yaradılan aqroparklar və kənd təsərrüfatı istehsalının genişləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Tədbirdə Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov çıxış edərək, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təqdimatını keçirib. Diqqətə çatdırılıb ki, Dövlət Proqramında fundamental və dəstəkləyici tədbirlər əks olunub.



Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəisi Rafiq Aslanov su ehtiyatlarından səmərəli istifadənin, müasir suvarma sistemlərinin tətbiqinin və meliorasiya infrastrukturunun inkişafının aqrar sahənin dayanıqlı inkişafında mühüm əhəmiyyəti barədə danışıb. O, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən su təsərrüfatı layihələri və kənd təsərrüfatının su təminatının gücləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin inkişafı üçün yaradılan infrastruktur, mövcud investisiya imkanları və regionun kənd təsərrüfatı potensialı barədə danışıb. Xüsusi nümayəndə bildirib ki, əsas məqsəd bu ərazilərdə müasir texnologiyalara əsaslanan, rəqabətqabiliyyətli və ixracyönümlü aqrar istehsalın formalaşdırılması, eləcə də özəl investisiyaların cəlb edilməsidir. O, aqroparkların və emal müəssisələrinin yaradılmasının, logistika imkanlarının genişləndirilməsinin və özəl sektorun fəal iştirakının bu hədəflərə nail olunmasında mühüm rol oynadığını bildirib.

Müzakirələr zamanı aqrar sahədə fəaliyyət göstərən fermer və sahibkarlardan Səfər Sadıxov, Nicat Məmmədov və Həsən Əliyev çıxış edərək, təmsil etdikləri müəssisələrdə həyata keçirilən layihələr və inkişaf planları barədə məlumat veriblər. Onlar çıxışlarında Prezident İlham Əliyev tərəfindən aqrar sahəyə göstərilən diqqət və dövlət dəstəyinə görə təşəkkürlərini bildirərək, yaradılmış əlverişli investisiya mühitinin kənd təsərrüfatının inkişafına mühüm töhfə verdiyini vurğulayıblar.

Müşavirənin yekununda Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Dövlət Proqramında nəzərdə tutulan hədəflərə nail olunmasının bütün aidiyyəti qurumların, sahibkarların və fermerlərin birgə səylərindən asılı olduğunu bildirib. Xüsusi nümayəndə Prezident İlham Əliyevin aqrar sahədə fəaliyyət göstərən sahibkarlara ünvanladığı çağırışları diqqətə çatdıraraq, ölkəyə idxal olunan məhsulların yerli istehsal hesabına əvəzlənməsi, özünütəminetmə səviyyəsinin yüksəldilməsi və Dövlət Proqramının icrasında özəl sektorun fəal iştirakının təmin edilməsinin əsas vəzifələrdən olduğunu qeyd edib.

### *Dağlıq Şirvan*

**Dağlıq Şirvan iqtisadi rayonunda Azərbaycan Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı aidiyyəti dövlət qurumlarının nümayəndələri və fermerlərin iştirakı ilə regional müşavirə keçirilib.**



Prezidentin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov Azərbaycan Respublikası Prezidentinin kənd təsərrüfatı sahəsinə göstərdiyi diqqət və bu müstəvidə 25 may tarixində keçirilmiş müşavirənin mahiyyəti, bu istiqamətdə verilmiş tapşırıqlar, son illərdə ölkədə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar, dövlət dəstəyi mexanizmləri, suvarma infrastrukturunun və aqroparkların inkişafı, habelə ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində əldə edilmiş nəticələr barədə məlumat verib. O, Dövlət Proqramının aqrar sektorun yeni inkişaf mərhələsini müəyyən etdiyini, proqramın əsas məqsədinin məhsuldarlığın artırılması, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsi, emal və ixrac imkanlarının genişləndirilməsi, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafının təmin edilməsi olduğunu vurğulayıb.



Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova Dövlət Proqramının aqrar sahədə intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidi sürətləndirəcəyini, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, idxaldan asılılığın azaldılmasına və kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verəcəyini qeyd edib. Dövlət Proqramı çərçivəsində müasir suvarma sistemləri tətbiq olunan sahələrin 130 min hektardan 300 min hektara çatdırılması, 22 rayon üzrə kombayn parkının 571 yeni kombaynla yenilənməsi, 84,9 min hektar sahədə lazer hamarlama texnologiyasının tətbiqi, intensiv bağçılığın genişləndirilməsi və buğda istehsalında məhsuldarlığın hədəf rayonlarda 50 sentnerə yüksəldilməsi nəzərdə tutulur. O, həmçinin 150 min ton əlavə taxıl silosu və 100 min ton əlavə soyuducu anbar tutumunun yaradılmasının, bu məqsədlə avadanlıqların dəyərinin 40 faizinin güzəşt hesabına, 40-50 faizinin isə kredit faiz subsidiyası mexanizmi vasitəsilə dəstəklənəcəyini diqqətə çatdırıb. Nazir müavini əlavə edib ki, proqram çərçivəsində süd istehsalının 11 faiz, mal və qoyun əti istehsalının isə 21 faiz artırılması, eləcə də bu məhsullar üzrə idxaldan asılılığın əhəmiyyətli dərəcədə azaldılması hədəflənir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini İlham Bayramov çıxışında Dağlıq Şirvan iqtisadi rayonunun aqrar inkişaf potensialının reallaşdırılmasında dayanıqlı su təminatının həlledici rol oynadığını vurğulayıb. O, regionda 53,5 min hektardan çox suvarılan sahənin mövcud olduğunu, suvarma infrastrukturunun modernləşdirilməsi, su itkilərinin azaldılması və müasir suvarma texnologiyalarının tətbiqi istiqamətində mühüm işlərin görüldüyünü bildirib. İlham Bayramov qeyd edib ki, həyata keçirilən strateji layihələr, xüsusilə Şirvan suvarma kanalının tikintisi, regionda kənd təsərrüfatı istehsalının genişlənməsinə, su təminatının yaxşılaşdırılmasına və Dövlət Proqramında nəzərdə tutulan hədəflərə nail olunmasına əhəmiyyətli töhfə verəcəkdir. O qeyd edib ki, layihə çərçivəsində respublikanın 9 rayonu üzrə 112 min hektar mövcud suvarma sahəsinin su təminatının yaxşılaşdırılması və 116 min hektar yeni torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsi nəzərdə tutulur. Bununla yanaşı, cari ildə Ağsu, İsmayıllı və Şamaxı rayonlarında 3,9 kilometr kanalın beton üzlüyə alınması və 3 subartezian quyusunun təmiri planlaşdırılır. İlham Bayramov vurğulayıb ki, Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin əsas istiqamətlərindən biri müasir və innovativ suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, rəqəmsal monitorinq və idarəetmə sistemlərinin qurulması, su uçotunun təkmilləşdirilməsi və su istifadəçiləri ilə əməkdaşlıq mexanizmlərinin gücləndirilməsidir.

Sonra İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov çıxışında Dağlıq Şirvan iqtisadi rayonunun aqrar potensialından səmərəli istifadənin əhəmiyyətini vurğulayıb, son illərdə rayonda kənd təsərrüfatının inkişafı istiqamətində əldə olunan nəticələr barədə məlumat verib. O qeyd edib ki, 2025-ci ildə rayonda 31 min hektar əkin sahəsindən 96 min ton taxıl məhsulu əldə edilib. Həmçinin İvanovka kəndində 10 milyon manat investisiya dəyərinə malik süd emalı zavodunun inşasının regionun aqrar və emal potensialının gücləndirilməsinə mühüm töhfə verəcəyi bildirilib.

Daha sonra çıxış edən "Ağsu Aqropark" QSC-nin baş direktoru Atabala İsayev və "Şirvan Aqro" MMC-nin direktor müavini Kamran Süleymanov rəhbərlik etdikləri təsərrüfatların fəaliyyəti və perspektivləri barədə məlumat veriblər. Çıxışçılar kənd təsərrüfatı sahəsinə göstərilən diqqət və qayğıya, eləcə də davamlı dövlət dəstəyinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Həmçinin Dövlət Proqramında nəzərdə tutulan dəstək mexanizmlərinin mövcud təsərrüfatların genişləndirilməsi və yeni istehsal sahələrinin yaradılması üçün əlavə imkanlar açacağını vurğulayıblar.

Müşavirənin yekununda Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov Dövlət Proqramında nəzərdə tutulan hədəflərə nail olunmasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əlaqələndirilmiş çevik və sistemli fəaliyyəti, eləcə də özəl sektorun fəal iştirakı ilə mümkün olacağını qeyd edib, fermerləri və sahibkarları ölkəyə idxal olunan məhsulların yerli istehsalının artırılması istiqamətində həyata keçirilən təşəbbüslərə qoşulmağa çağırıb.

## İntensiv əkinçiliyə keçid

**Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illəri əhatə edən Dövlət Proqramı çərçivəsində ekstensiv əkinçilikdən intensiv əkinçiliyə keçid təşviq ediləcək.**



Bunu Zəngilanda jurnalistlərə açıqlamasında kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib.

Nazir qeyd edib ki, proqram çərçivəsində müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, Azərbaycanda ilk dəfə torpaq konsolidasiyası layihələrinin həyata keçirilməsi, intensiv bağçılığın və istixana sahələrinin artırılması nəzərdə tutulur.

M.Məmmədov bildirib ki, yeni proqramda dövlət dəstəyinin prioritetləri də dəyişəcək. Əvvəllər subsidiyaların cəmi 6 faizi heyvandarlığa yönəldildiyi halda, yeni dövrdə bu göstərici, təxminən, 40 faizə çatdırılacaq. Heyvandarlıq sahəsində məhsul, süni mayalanma və sertifikat subsidiyaları kimi yeni dəstək mexanizmləri tətbiq ediləcək.

Nazir qeyd edib ki, Dövlət Proqramı xüsusilə kiçik və orta fermer təsərrüfatlarının inkişafına xidmət edəcək. Bu məqsədlə heyvandarlıq təsərrüfatlarının dəstəklənməsi, süd və yun toplama məntəqələrinin yaradılması nəzərdə tutulur ki, bu da fermerlərin məhsullarının bazara çıxışını asanlaşdıracaq.

Onun sözlərinə görə, bu ildən alma və nar, gələn ildən isə digər meyvə və bitki növləri üzrə məhsul subsidiyalarının tətbiqi planlaşdırılır. Bu mexanizm fermerlərə məhsullarını emal müəssisələrinə təhvil verərək əlavə dəstək əldə etməyə imkan yaradacaq.

## Hədəf yüksək məhsuldarlıqdır

**Məhsuldarlığın maksimum artırılması aqrar sahənin qarşısında duran əsas vəzifələrdəndir. Burada əsas məqsəd yalnız əkin sahələrinin artırılması deyil, mövcud torpaq və su resurslarından daha səmərəli istifadə etməklə hər hektardan daha çox və keyfiyyətli məhsul əldə etməkdir.**



Bunu kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı İsmayıllıda keçirilən Dağlıq Şirvan iqtisadi rayonu üzrə regional müşavirədən sonra jurnalistlərə açıqlamasında bildirib.

Nazir müavini qeyd edib ki, bu gün yeni Dövlət Proqramının Dağlıq-Şirvan iqtisadi regionu üzrə təqdimatı keçirildi: "Dağlıq-Şirvan iqtisadi rayonu üzrə çağırışları səsləndirdik. Xüsusilə qeyd etmək istərdim ki, Ağsu rayonunda buğda istehsalının artırılması üçün ayrıca layihə həyata keçiriləcək. Bu, pilot layihə kimi Dövlət Proqramında nəzərdə tutulub. Yəni Ağsu ixtisaslaşmış rayonlar üzrə buğda istehsalının artırılması nəzərdə tutulan rayonlardandır".

İlhamə Qədimova bildirib ki, Dağlıq-Şirvan iqtisadi rayonuna xas olan digər sahələrdən biri də üzümçülükdür. Bu rayonlarda üzümçülüyün inkişafı və şərabçılıq təsərrüfatlarının yaradılması ilə bağlı işlər görüləcək. "Sahibkarlarla müzakirələr aparıldı, çağırışlar səsləndirildi və daha inkişaf edən bir modelə keçmək üçün hansı addımlar atılmalıdırsa bu barədə tövsiyələr verildi", - deyə o vurğulayıb.

# Zamanın körpüsü: Milli Qurtuluşdan mükəmməl dövlətçiliyə doğru



**Azərbaycan tarixində elə mərhələlər var ki, onlar sadəcə siyasi hadisə kimi deyil, milli taleyin istiqamətini dəyişdirən epoxal dönüş kimi yadda qalır. Belə mərhələlərdən biri Milli Qurtuluş Günüdür. Bu təqvim təkcə bir siyasi liderin hakimiyyətə qayıdışı deyil, dövlətin dağılmaq təhlükəsindən xilas edilərək sistemli şəkildə yenidən qurulmasının başlanğıc nöqtəsidir.**

1990-cı illərin əvvəllərində Azərbaycan mürəkkəb geosiyasi və daxili böhran şəraitində idi. Dövlət institutlarının zəifliyi, iqtisadi tənəzzül, hərbi məğlubiyyətlər və siyasi qeyri-sabitlik ölkəni ciddi parçalanma riskinə gətirmişdi. Belə bir ağır şəraitdə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyinin qorunması baxımından həlledici rol oynadı və ölkəni xaosdan sabitliyə aparan yeni mərhələnin əsasını qoydu.

Milli Qurtuluşun siyasi-fəlsəfi mahiyyətinə gəlincə, bu təqvim yalnız siyasi hakimiyyət dəyişikliyi deyil, dövlətçilik fəlsəfəsinin dəyişməsidir. Məhz Heydər Əliyevin dövlətçilik məfkurəsinə söykənən bu yanaşma Azərbaycanın gələcək inkişaf modelinin əsasını təşkil etmiş və sonrakı mərhələlərdə davamlılıq prinsipinin formalaşmasını təmin etmişdir.

## Heydər Əliyev fenomeni

Ciddi işgüzar keyfiyyətlər tələb edən fenomenal iş üslubu Heydər Əliyevin hələ Sovetlər Birliyi dövründən bəri topladığı zəngin idarəçilik təcrübəsinə söykənirdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövr – 1969-1982-ci illər müasir Azərbaycanın inkişaf tarixinə ilk dönüş mərhələsi kimi yazılmışdır. Belə ki, məhz həmin illərdə müəyyənləşmiş fundamental strateji istiqamətlər sonrakı müstəqillik dövrünün sosial-iqtisadi bazasına çevrildi. Bu tarixi reallıqlar Heydər Əliyevin gəldiyi nəticənin inkarolunmaz həqiqət olduğunu bir daha sübut edir: “Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır”.

1991-ci ildə SSRİ-nin süqutu nəticəsində Azərbaycan formal olaraq dövlət müstəqilliyini bərpa etsə də, ölkə daxilindəki siyasi xaos, iqtisadi tənəzzül, separatizm təhlükəsi və xarici təzyiqlər dövlətçiliyin real məzmun qazanmasına imkan vermirdi. Belə ki, yeni müstəqilliyin ilk illərində Qarabağ müharibəsi get-gedə daha da şiddətlənir, torpaq itkiləri artırdı. Daxildə hakimiyyət böhranı güclənmiş və mayası antimilli xəyanətlə yoğrulmuş AXC-Müsavat cütlüyünün respublikaya səriştəsiz rəhbərliyi nəticəsində vətəndaş müharibəsinə sürüklənmişdi. Əhalinin düşdüyü acınacaqlı vəziyyət cəmiyyəti inamsızlıq sindromuna yoluxdurmuşdu. Separatizm meylləri güclənmiş, ölkə dövlət kimi tamamilə real olaraq dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı.

Belə bir şəraitdə 1993-cü ildə hakimiyyətə xalqın tələbi ilə qayıdan Heydər Əliyev faktiki olaraq Azərbaycan dövlətini dağılmaqdan xilas edən şəxsə çevrildi.

Onun rolunu bir neçə əsas istiqamətdə qeyd etmək olar. İlk növbədə silahlı toqquşmaların, qiyam cəhdlərinin qarşısının alınması, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi, həmçinin hakimiyyətin legitimliyinin bərpası və dövlət institutlarının ardıcıl formalaşdırılması nəticəsində dövlətçilik və siyasi sabitliyin bərpasına nail olundu.

Çox mürəkkəb geosiyasi şəraitdə Ulu öndər müharibə və təhlükəsizlik məsələlərində dəqiqliklə düşünülmüş strateji yanaşmasını və dövlət təhlükəsizliyi məsələlərinə praqmatik baxışlarını ortaya qoyaraq keçmiş Qarabağ münaqişəsinin həllində bütün müstəvilərdə Azərbaycanın üstün mövqeyə çıxarılmasına nail oldu. 1994-cü ilin mayında Bişkek sazişi ilə atəşkəsə nail olundu və bununla da Azərbaycan tam məğlub olmaqdan və daha böyük itkilərdən qorundu. Daha sonra Ordu quruculuğu və milli təhlükəsizlik konsepsiyasının formalaşdırılmasına başlanıldı. Beynəlxalq aləmdə Azərbaycanla bağlı mövqelərin dəyişməsi üçün siyasi-diplomatik zəmin yarandı.

1994-cü ildə imzalanmış və Azərbaycanın neft strategiyasının əsasını formalaşdıran “Əsrin müqaviləsi” təkcə iqtisadi müstəqilliyi təmin edən transmilli layihə deyil, həm də siyasi akt idi. Belə ki, bu müqavilə gənc respublikanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirdi və ölkənin enerji resursları üzərində suverenliyini möhkəmləndirdi. Bununla da yaranmış yeni geosiyasi balans Azərbaycanın beynəlxalq əhəmiyyətini artırılmasına müstəsna töhfə vermiş oldu. Məhz bundan sonra ölkənin uzunmüddətli sabit gəlir mənbəyi formalaşmağa başladı.

Bu mərhələdə, eyni zamanda, hüquqi dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı. 1995-ci ildə yeni Konstitusiyanın qəbulu ilə Azərbaycan müstəqil, unitar, demokratik və hüquqi dövlət kimi öz inkişaf modelini müəyyənləşdirdi. Bu sənəd dövlətin siyasi sistemini, hakimiyyət qollarının bölgüsünü, insan hüquq və azadlıqlarının hüquqi təminatını müəyyən edərək müstəqilliyin hüquqi bazasını yaratdı.

Bütövlükdə isə Azərbaycanda müstəqillik ideologiyasının formalaşması Ümummilli liderimizin böyük tarixi nailiyyətidir. Çünki Heydər Əliyev öz fəliyyətini təkcə siyasi idarəçi kimi yox, həm də müstəqillik fəlsəfəsinin müəllifi kimi qururdu. Onun siyasətində azərbaycançılıq ideologiyası, milli-mənəvi dəyərlərin qorunması və inkişafı, diasporla iş və beynəlxalq mühitdə Azərbaycan həqiqətlərinin təbliği mühüm yer tuturdu.

Ulu öndər dövlət müstəqilliyini sadəcə bərpa etmədi, onu geridönməz tarixi reallığa çevirmək üçün həm siyasi, həm hüquqi, həm də ideoloji əsaslar yaratdı. Bu tarixi nailiyyətin dəyərini 1918-ci ildə yaradılmış və 23 ay sonra süquta uğramış Azərbaycan Xalq Cümhuriyyətinin zəif dövlətçilik və uğursuz təcrübəsi, həmçinin ötən əsrin 90-cı illərinin əvvəllərində tarixin sanki yenidən təkrarlanması ilə müqayisəli paralellər müstəvisində dəyərləndirmək yerinə düşür. Bu taleyüklü tarixi hadisələr gələcək nəsillər üçün mühüm dərsdir: müstəqillik yalnız elan edilməklə deyil, güclü idarəçilik və dövlətçilik, sabitlik və milli birlik əsasında qoruna bilir. Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında Ulu öndərin siyasi portreti bu prizmadan belə təsvir olunur: “Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir... Müstəqil Azərbaycan Ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir”.

## Dövlətçilik məktəbi və strateji davamlılıq

Heydər Əliyev tərəfindən formalaşdırılan dövlətçilik məktəbi üç əsas sütuna dayanırdı: güclü dövlət institutu, milli maraqlara əsaslanan xarici siyasət, həmçinin iqtisadi müstəqillik və enerji strategiyası. Bu model Azərbaycanın gələcək siyasi inkişafında davamlı dövlətçilik xətti kimi özünü göstərdi. Burada əsas məqsəd dövlətin liderlərdən asılı olmayan institusional gücünü formalaşdırmaq idi.

1990-cı illərin ortalarından etibarən Azərbaycan həm region dövlətləri, həm də qlobal aktorlarla əməkdaşlıq əlaqələrini genişləndirdi. Bu siyasət ölkənin beynəlxalq mövqeyini gücləndirdi və onu regional enerji mərkəzinə çevirdi.

XXI əsrin əvvəllərindən etibarən Azərbaycan Heydər Əliyev ideologiyası üzərində formalaşan inkişafın yeni mərhələsinə qədəm qoydu. Ulu öndərin siyasi irsini müasir çağırışlara uyğun daha mükəmməl şəkildə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında ölkə artıq sabitlik mərhələsindən keçərək sürətli modernləşmə dövrünə daxil oldu.

Bu dövrün əsas xüsusiyyətləri neft gəlirlərinin insan kapitalına yönləndirilməsi, nəqliyyat və logistika layihələrinin genişlənməsi, rəqəmsal idarəetməyə keçid, ordunu modernləşməsi və Azərbaycanın regionda lider olaraq geosiyasi rolunun artması ilə səciyyələnir. Bu gün Azərbaycan dünyanın enerji təhlükəsizliyində mühüm beynəlxalq aktor kimi artıq təkcə enerji ixrac edən ölkə deyil, həm də beynəlxalq tranzit və logistika mərkəzinə çevrilib.

Azərbaycanın müasir tarixində ən mürəkkəb məsələlərdən biri Ermənistanın Azərbaycana ərazi iddiaları əsasında 30 ildən artıq davam edən və ölkəmizin 20 faiz ərazisinin zəbt edilməsi ilə müşayiət olunan işğal faktoru olmuşdur. Bu problemin aradan qaldırılması uzun illər Azərbaycanın siyasi və diplomatik gündəminin mərkəzində dayanmışdır. Nəhayət, 2020-ci ilin payızında Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uzunmüddətli strategiya nəticəsində Azərbaycan son iki yüz ildən bəri nail ola bilmədiyi bir uğura imza atdı. Xalqın etimadından güc alan və ordunun qüdrətinə güvənən Müzəffər Ali Baş Komandanımızın bənzərsiz sərkərdəlik məharəti sayəsində 44 günlük Vətən müharibəsi Qarabağın azad edilməsi və respublikamızın ərazi bütövlüyünün bərpası ilə nəticələndi. Suverenliyimizin tam bərpası istiqamətində inamla irəliləyən və əsas hədəfə doğru addım-addım yaxınlaşan ölkə rəhbəri 2023-cü il oktyabrın 15-də, hakimiyyətinin 20-ci ildönümündə Xankəndidə Azərbaycanın Dövlət Bayrağını ucaldaraq Zəfər tariximizə daha bir şanlı səhifəni yazdı. Bu hadisələr ölkənin dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Digər tərəfdən, bu proses təkcə hərbi deyil, həm də diplomatik, iqtisadi və siyasi hazırlığın nəticəsidir.

## Sabitlikdən davamlı inkişafa

Heydər Əliyev ideologiyasının Prezident İlham Əliyevin timsalında uğurlu davamı Azərbaycanın dövlətçilik tarixində siyasi varisliyin uğur nümunəsi kimi dəyərləndirilir. Ulu öndərə aid birinci mərhələ dövlətin xilas edilməsi, sabitliyin bərpası, iqtisadi əsasların qurulması ilə səciyyəli olmuşdusa, cənab İlham Əliyevin rəhbərliyi dövründə dövlətin modernləşdirilməsi, qlobal inteqrasiya və ərazi bütövlüyünün, dövlət suverenliyinin təmin olunması ilə yadda qalıb. Bu iki mərhələ bir-birini tamamlayan vahid tarixi xətt kimi çıxış edir.

Bu gün bir çox dünya ölkələri üçün nümunə sayıla biləcək Azərbaycanın müasir dövlətçilik modeli güclü dövlət idarəçiliyi, enerji və nəqliyyat strategiyası, sosial inkişaf və rifah siyasəti, qarşılıqlı fayda əsasında qurulan beynəlxalq əməkdaşlıq, həmçinin təhlükəsizlik və müdafiə gücü kimi bir neçə əsas komponentdən ibarətdir. Bu model bölgəmizdə dayanıqlı sülh, sabitlik və davamlı inkişafın qarantı kimi çıxış edir.

Azərbaycanın inkişaf yolu göstərir ki, dövlətçilik yalnız böhranların aradan qaldırılması deyil, həm də davamlı inkişaf strategiyasının qurulmasıdır. Milli Qurtuluş Günü bu mənada yalnız keçmişin xatirəsi deyil, gələcəyin strateji istiqamətidir. Heydər Əliyev tərəfindən qoyulan təməl bu gün İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə inkişaf etdirilir. Bu baxımdan Milli Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi olaraq mahiyyətcə yalnız siyasi hadisə deyil, həm də dövlətin yaşamaq iradəsinin təntənəsidir.

Bu gün Azərbaycanda böhranlardan daha güclü çıxmağı bacaran bir dövlət modeli formalaşmışdır. Bu modelin əsas dayağı isə ulu öndər Heydər Əliyedən miras qalan dövlətçilik ənənəsi, güclü liderlik və milli birlikdir. Zamanın körpüsü üzərindən keçən bu yol bir həqiqəti açıq şəkildə ortaya qoyur: dövlətçilik təsadüfi məfhum deyil, tarixi məsuliyyət və strateji düşüncənin nəticəsidir.

*Əli HÜSEYNLİ,*
*Milli Məclisin deputatı,*
*Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri*

# Bölgələrdə Milli Qurtuluş Günü şənlikləri



## Balakən

**Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının inzibati binasında 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş “Qurtuluşdan Zəfərə” adlı konfrans keçirilib. Məclisdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, YAP rayon təşkilatının sədri Azad Balayev, icra hakimiyyətinin, idarə, müəssisə və təşkilatların əməkdaşları, şəhid ailələrinin üzvləri, qazilər, partiya fəalları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsi ehtiramla yad edilib.**

Məruzə ilə çıxış edən Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının sədri Azad Balayev bildirib ki, tariximizin şanlı səhifələrindən biri olan Milli Qurtuluş Günü dövlət müstəqilliyinin qorunub saxlanılmasının, vətəndaş qarşıdurmasından xilasın, sabitlik və inkişaf yolunun başlanğıcı olub, taleyüklü dönüş nöqtəsi kimi yaddaşlara əbədi həkk olunub.

Ağsaqqallar Şurasının üzvü Meysarat Qaysayeva, Hənifə kənd tam orta ümumtəhsil məktəbinin direktoru Cavanşir Alqayev, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi rayon şöbəsinin sədri Cavanşir İsmayılov, hərbi jurnalist Şaban Daşdəmirov, Gənclər Evi Sosial Xidmət Müəssisəsinin əməkdaşı Fuad Mikayılov Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı əvəzsiz xidmətlərindən bəhs ediblər.

Sonra rayonun ictimai-siyasi həyatında fərqlənən partiya veteranlarına hədiyyələr verilib. YAP-a yeni qəbul olunanlara partiya vəsiqələri təqdim edilib.

## Qəbələ

**Qəbələ Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş “Müasir Azərbaycan dövlətçiliyi: Qurtuluşdan başlanan zəfər yolumuz” mövzusunda toplantı keçirilib.**



İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək heykəlin önünə gül dəstələri düzüblər. Mədəniyyət Mərkəzində davam edən məclisdə 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş videoçarx nümayiş olunub.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova 15 İyun Milli Qurtuluş Gününün Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində müstəsna əhəmiyyət daşıdığını qeyd edib. O bildirib ki, 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtması ilə əsaslı dövlət quruculuğunun əsası qoyulub.

YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov bildirib ki, Azərbaycanın çağdaş inkişaf strategiyasını ümummilli lider Heydər Əliyev müəyyənləşdirib. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xalqımızın tərəqqisi uğrunda yorulmaz fəaliyyət göstərib, qəlblərdə sevgi, xatirələrdə əbədiyaşarlıq qazanmışdır.

Digər çıxış edənlər Heydər Əliyev dühasının Azərbaycan elminin, mədəniyyətinin və təhsilinin inkişafında rolunu vurğulayıblar.

## Zaqatala

**Zaqataladakı Heydər Əliyev Mərkəzində 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş “Qurtuluşun mübarək, Azərbaycan!” mövzusunda elmi-praktik konfrans keçirilib.**



İştirakçılar öncə mərkəzin qarşısında Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Ümummilli liderin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Konfransın əvvəlində Ulu öndərin zəngin və şərəfli ömür yolunu, dövlətçilik fəaliyyətini əks etdirən sənədli film nümayiş etdirilib.

Konfransı giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə bildirib ki, Ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizi xaos və özbaşınalıqdan xilas edib, sabit, dayanıqlı inkişafın əsası qoyulub. Natiq Milli Qurtuluş Gününün əhəmiyyətindən, Heydər Əliyev siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən də danışıb.

Məclisdə 1993-cü ilin iyununda respublikamızda baş verən ictimai-siyasi proseslərə geniş nəzər salınıb, dövlətçiliyimizin qorunması və vətəndaş qarşıdurmasının aradan qaldırılmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri bir daha xatırlanıb.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

# Xilaskar liderin yüksəliş marafonu



*(əvvəli ötən sayımızda)*

Azərbaycanın gələcək ümummilli lideri Heydər Əliyev Naxçıvana qayıdandan dərhal sonra muxtar respublikanın Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci şöbəsinin rəisi təyin edilmişdir. 1950-ci il avqustun 26-da Bakıya dəvət edilmiş, Azərbaycan Dövlət Təhlükəsizliyi Nazirliyinin 2-ci şöbəsi 6-cı bölməsinin rəisi vəzifəsinə təyin olunmuşdur.

2-ci şöbə əks-kəşfiyyatla məşğul idi. Heydər Əliyev 15 il ərzində məhz bu məsuliyyətli sahədə çalışmışdır. O, əməliyyat işləri ilə yanaşı, SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Bakı Diyarlararası Məktəbində də mühazirələr oxumuş və əldə etdiyi elmi-nəzəri bilikləri, təcrübəni təhlükəsizlik orqanları əməkdaşlarına çatdırmışdır.

1951-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş və buranı 1957-ci ildə əla qiymətlərlə başa vurmuşdur.

Özünə və başqalarına qarşı yüksək tələbkarlığı, qayğıkeş münasibəti, tükənməz enerjisi, işgüzarlığı və təşəbbüskarlığı ilə fərqlənən, xalqın hörmətini qazanan Heydər Əliyev 1953-cü ilin sonunda Azərbaycan Dövlət Təhlükəsizliyi Nazirliyinin Əks-kəşfiyyat şöbəsinə rəis təyin olunmuşdur. O, milli və gənc kadrların artırılması, Azərbaycana xəyanət etmiş işçilərin kənarlaşdırılması istiqamətində tədbirlər görməyə başlamışdır.

1997-ci ildə respublikanın milli təhlükəsizlik orqanı əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edən Heydər Əliyev demişdir: “1953-cü ilin sonunda mən birdən-birə həmin şöbəyə rəis təyin olundum. Bu, nadir hadisə idi. Nə qədər çətinliklər çəkdim ki, 37-38-ci illərdən, 30-cu illərdən qalmış və Azərbaycana xəyanət etmiş insanlardan, - onların da əksəriyyəti azərbaycanlı deyildi, amma içərilərində belə yaramaz azərbaycanlılar da var idi, - bu orqanları xilas edək və yeni, gənc adamlar cəlb edək, orqanlarda sağlamlaşma işi aparaq. Bu, çox çətin oldu, o qədər çətin oldu ki, mənə qarşı fitnələr də etdilər. Bir müddət o vəzifədən getməli oldum... Bir-iki ildən sonra məni yenə o vəzifəyə təyin etdilər, məcbur oldular ki, təyin etsinlər. Mən o zaman cəsarətli addımlar atmağa, təmizləmə işləri görməyə başladım, həmin şöbədə işləyən bir neçə zabitin cinayətkar olduqlarına görə həbs edilməsinə, cəzalandırılmasına, işdən çıxarılmasına nail oldum”.

1958-ci ildə N.Xruşovun “yumşalma” siyasəti nəticəsində A.N.Şelepinin SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə rəhbər təyin olunması ilə (1958-1961) şəxsi heyət qarşısında yeni vəzifələr qoyuldu: əhalinin müəyyən təbəqələri arasında cəza yox, profilaktik tədbirlər həyata keçirmək. Bu qərar dövlət təhlükəsizliyi orqanlarında əsl inqilab oldu. Azərbaycan əks-kəşfiyyatının rəisi, podpolkovnik Heydər Əliyev bu siyasəti ürəkdən dəstəkləyir və sözügedən xəttin həyata keçirilməsində fəal iştirak edirdi.

Gənc əks-kəşfiyyat rəisinin natiqlik məharətindən və əhalinin müxtəlif təbəqələri ilə ünsiyyət yaratmaq bacarığından xəbərdar olan rəhbərlik tez-tez Dövlət Təhlükəsizliyi Komitəsinin sıravi əməkdaşlarına yeni siyasətin mahiyyətini başa salmaq üçün zona müşavirələrində çıxış etməyi ona tapşırırdı. Əks-kəşfiyyat sahəsində çalışdığı dövrdə (1958-1964) Heydər Əliyevin uğurları əhəmiyyətli dərəcədə yüksək idi. O özünün təşkilatçılıq bacarığına və analitik qabiliyyətinə görə nəzərəçarpacaq dərəcədə fərqlənirdi.

Bu illərdə xüsusi xidmət orqanlarında bir sıra ixtisarlar aparıldı. Bununla əlaqədar Heydər Əliyev çıxışının birində demişdir: “1960-cı ildə bu orqanlarda geniş ixtisarlar aparıldı. O vaxt 5 şöbəni birləşdirdilər. Mən onlardan birinin rəisi idim. Belə oldu ki, 5 şöbəni birləşdirərkən birləşmiş şöbəyə rəis məni təyin etdilər. Bu fürsətdən istifadə etdim, o birisi şöbələrin rəisini, ya müavini olanların əksəriyyətini təmizlədim, onlar orqandan xaric olundular”.

Araşdırmalar göstərir ki, Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında işlədiyi illər ittifaq dövlət təhlükəsizliyinin 9 rəhbərinin dövrünə təsadüf edir: Merkulov (1941, 1943-1946), Abakumov (1946-1951), İqnatyev (1951-1953), Beriya (1953, 15 mart – 26 iyun, daxili işlər naziri), Kruqlov (1953-1956, daxili işlər naziri), Serov (1954-1958, SSRİ Nazirlər Soveti yanında DTK-nin təsis edilməsi və onun ilk sədri), Şelepin (1958-1961), Semiçastnı (1961-1967), Andropov (1967-1982). Bunların içərisində Heydər Əliyev yalnız qeyri-adi şəxsiyyət olan Y.V.Andropovla (1914-1984) səmimi dostluq münasibəti saxlamışdır. Onların hər ikisi ziyalı, təhsilli, çox mütaliə edən və çox düşünən insan idi.

Heydər Əliyev çox yüksək səviyyədə intellektual şəxsiyyət olmuşdur. O, müxtəlif dilləri bilir, aktyorluq sənətinə və rəssamlığa böyük maraq göstərirdi. Ulu öndər incəsənət tarixinin, nəzəriyyəsinin və fəlsəfənin mahir bilicisi olmaqla, Azərbaycan, rus və Qərbi Avropa teatrının ənənələrinə və novatorluğuna dərindən bələd idi.

SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin 1964-cü il 2 mart tarixli 85 saylı əmrinə müvafiq olaraq, podpolkovnik Heydər Əlirza oğlu Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini vəzifəsinə təyin edilmişdi. O zaman Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinə Semyon Sviqun rəhbərlik edirdi (1963-1967). Respublika Dövlət Təhlükəsizliyi Komitəsindən Mərkəzə göndərilən ən vacib sənədləri Heydər Əliyev hazırlayırdı.

Peşəkarlığının, işdə göstərdiyi nümunəvi xidmətin və qazanılmış nailiyyətlərin məntiqi nəticəsi olaraq, 1965-ci il martın 31-də Heydər Əliyevə polkovnik rütbəsi verilmişdi.

Əməli fəaliyyəti ilə təhlükəsizlik orqanlarında böyük nüfuz qazanan polkovnik Heydər Əliyev 1966-cı ilin fevralında SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin F.Dzerjinski adına ali məktəbinin rəhbər heyətinin təkmilləşdirilməsi kurslarına göndərilmiş, həmin ilin mayında kursu müvəffəqiyyətlə bitirib respublikaya qayıtmışdır.

S.Sviqunu SSRİ DTK sədrinin birinci müavini təyin edəndən sonra Azərbaycan dövlət təhlükəsizliyi orqanlarını kimə etibar etmək məsələsi ortaya çıxdı. S.Sviqun Moskvaya gedəndə öz yerinə Heydər Əliyevi tövsiyə etmişdi. Semyon Kuzmiç Heydər Əliyevin təşkilatçılıq bacarığını yüksək qiymətləndirir, fikirlərinə hər zaman hörmətlə yanaşır, onun çekistlik istedadını çox yüksək dəyərləndirirdi. Ona görə də belə bir fikir söylənilirdi ki, Heydər Əliyev məhz Sviqunun məsləhəti və Vəli Axundovun fəal dəstəyi ilə təyin olunmuşdu. Ancaq Moskvanın Azərbaycan DTK rəhbəri qismində rus millətinin nümayəndəsini görmək istəyi də istisna olunmur.

Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə azərbaycanlının təyin edilməsi tarixi hadisə idi. Bu vaxta qədər bu vəzifədə azərbaycanlı olmamışdı. Heydər Əliyevin özünün dediyinə görə, onun namizədliyinin üstünə o saat gəlmədilər. Bir sıra hallarda DTK sədrinin rus millətindən olan birini görmək istəyirdilər. 1997-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyəti qarşısında çıxış edərkən o, 30 il əvvəlki hadisələri belə xatırlayırdı: “Bizim Azərbaycandan olan, mənim yanımda işləyən adamlardan bəziləri öz şəxsi məqsədlərinə, şəxsi mənafelərinə görə həmin o Sviqunla birləşib yenə də buraya azərbaycanlı olmayan adamı – Moskvadan, yaxud burada olan bir rusu təyin etməyə cəhd göstərirdilər. Tarixi həqiqət naminə demək lazımdır ki, o vaxt, 1967-ci ildə məhz Andropovun bu işə şəxsi münasibəti və həqiqət naminə demək lazımdır ki, – mən bunu özümə görə demirəm, ancaq xalqın tarixi naminə deyirəm, – o vaxt Azərbaycanda Mərkəzi Komitənin birinci katibi olan Vəli Axundovun bu barədə düzgün mövqeyi nəticəsində – amma başqaları düzgün mövqedə deyildilər, – ilk dəfə olaraq azərbaycanlı bu orqanın rəhbərliyinə təyin olundu”.

Respublikanın DTK rəhbəri vəzifəsinə başqa iddialı namizədlər də var idi. Azərbaycan əhalisinin müsəlman olması, İran və Türkiyə ilə qonşuluqda yerləşməsi DTK-nın rəhbərinin rus olması məqsədəuyğun hesab edilirdi.

Heydər Əliyevin sədr seçilməsi isə artıq heç kimdə şübhə doğurmurdu. Çünki Heydər Əliyev bu sahədə yetərincə püxtələşmiş, ciddi şəxsiyyət, hazırlıqlı kadr kimi tanınırdı. Keçirdiyi çoxsaylı əməliyyatlar, topladığı böyük iş təcrübəsi, yüksək peşəkarlığı və təşkilatçılığı nəzərə alınaraq SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin 1967-ci il 22 iyun tarixli 27 saylı əmrinə əsasən Heydər Əlirza oğlu Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir. 1967-ci il oktyabr ayının 30-da 136 nömrəli əmrlə ona general-mayor hərbi rütbəsi verilir. O, SSRİ DTK-sı tarixində general rütbəsi alan ilk azərbaycanlı idi.

Heydər Əliyev məhz dövlət təhlükəsizliyi orqanlarında işləyərkən onun tale yolu gələcək ömür-gün yoldaşı akademik Zərifə xanım Əliyeva ilə kəsişmişdir. Lakin bu ailənin qurulması çoxlu çətinliklər və mənəvi məhrumiyyətlər bahasına başa gəlmişdir. Onların dramatik şəraitdə başlayan məhəbbəti xoşbəxt sonluqla nəticələnmişdir. 1954-cü ilin noyabrında xoşbəxt bir ailənin əsası qoyulmuşdur.



Tariximizin gözəl bilicisi, erməni millətçilərinin Azərbaycan xalqının başına gətirdiyi müsibətlərdən xəbərdar olan Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində rəhbər vəzifələrdə çalışdığı dövrlərdə erməni məkrinin əyani sübutları ilə dəfələrlə qarşılaşmışdı. Onun Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən erməni separatçıları ilə mübarizəsi Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilməsindən əvvəl başlamışdı.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev hakimiyyətdə olduğu illərdə kürsülərdən heç vaxt ermənilər və erməni millətçiləri əleyhinə danışmasa da, bütün fəaliyyəti onların əsassız iddialarının qarşısını müxtəlif yollarla almağa yönəlmişdi. O, ermənilərin təxribatçı və separatçı qruplarının Azərbaycanla bağlı planlarını pozmuş, fəaliyyətlərini genişləndirməyə imkan verməmişdir. Heydər Əliyev bununla əlaqədar demişdir: “30-cu, 40-cı, 50-ci, 70-ci illərdə də erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdı. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam”.

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında müxtəlif vəzifələrdə işlədiyi zaman və ondan sonra Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə milli mənafeyə əks olan heç bir tədbir görülməmiş, heç bir adam antisovet, yaxud millətçi təbliğat üstündə həbs edilməmişdir. O, Azərbaycan xalqının neçə-neçə tanınmış ziyalısını yersiz təqiblərdən qorumuş, milli mənlik şüurunun oyanmasına, milli özünüdərkin yaranmasına rəvac verən ziyalı təşəbbüslərini dəstəkləməklə, xüsusi xidmət orqanlarını milli mənafelərə tabe edən rəhbər olmuşdur.

Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsinin az sayda olan rəhbərlərindən idi ki, fəaliyyətə ən aşağı pillədən başlayaraq yüksəlmişdi. Onun dövründə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi nəzərəçarpacaq dərəcədə milli kadrlarla təmin edilmiş və ziyalılaşmışdı. Təhlükəsizlik orqanlarındakı milliləşməni öz peşəkar fəaliyyətinin başlıca uğurlarından hesab edən Heydər Əliyev 1999-cu ildə təhlükəsizlik orqanlarının yaradılmasının 80-ci ildönümü ilə bağlı keçirilən tədbirdə etdiyi çıxışında demişdir: “Mən hesab edirəm ki, Azərbaycanda təhlükəsizlik təşkilatının Azərbaycana vurduğu zərərə baxmayaraq, bu təşkilatın milliləşdirilməsi prosesi bizim əldə etdiyimiz ən böyük nailiyyət idi, təşkilat milliləşdikcə onun fəaliyyətinin istiqamətini də Azərbaycanın milli mənafelərinə daha çox uyğun aparmaq mümkün olurdu”.

Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyi illərdə bu mühüm orqanda milli kadrların çox olmasına çalışmış və buna nail olmuşdur. Heydər Əliyevin inadla apardığı milliləşmə siyasətinin nəticəsində təhlükəsizlik orqanlarında azərbaycanlıların xüsusi çəkisi sürətlə artaraq 40-50-ci illərdə 25 faizdən 70-ci illərdə 65-70 faizə çatmışdı.

Ümummilli lider Heydər Əliyev hərtərəfli biliyi, qətiyyəti, həmçinin DTK-da öyrəndikləri ilə müstəqil Azərbaycanı üzləşdiyi təhlükələrdən qorumuşdur. O, Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyi illərdə birbaşa özünün rəhbərliyi ilə bir sıra əməliyyatlar hazırlanmış, qarşıya qoyulan məqsədə nail olunmuş və uğur əldə edilmişdir.

Heydər Əliyev 25 il təhlükəsizlik orqanlarında xidmət göstərmiş və bu orqanı SSRİ miqyasında tanıtmışdır. Elə buna görə dəfələrlə fəxri fərmanlara, qiymətli hədiyyələrə, orden və medallara layiq görülmüşdür. O, 1962-ci ilin aprelində “Dövlət təhlükəsizliyi orqanının fəxri əməkdaşı” nişanı, 1962-ci ilin mayında “Qırmızı ulduz” ordeni, 1964-cü ildə isə “Qüsursuz xidmətə görə” medalı ilə təltif edilmişdir.

General Heydər Əliyev Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinə 2 il rəhbərlik etdi. V.Y.Andropov onun fəaliyyətini SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin 27 noyabr 1966-cı il tarixli 166 saylı əmri ilə yüksək qiymətləndirmişdi: “General-mayor Heydər Əlirza oğlu Əliyev təhlükəsizlik orqanlarında 25 il fəaliyyət göstərib. Bu müddət ərzində, o, sıravi operativ işçidən respublika DTK-sının sədrinə qədər böyük yol keçmişdir. Rəhbər vəzifələrdə olarkən yoldaş Əliyev bütün gücünü, enerjisini, bacarığını dövlətimizin təhlükəsizliyinin təmin olunmasına yönəldib, özünü çox yaxşı təşkilatçı kimi göstərib.

Hazırda yoldaş Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. Təhlükəsizlik orqanlarında uzunmüddətli və səmərəli fəaliyyətinə görə, general-mayor Heydər Əliyevə təşəkkür elan edilsin və o, məxsusi qiymətli hədiyyə ilə mükafatlandırılsın”.

Heydər Əliyev qeyri-adi istedada, hərtərəfli biliyə, analitik təfəkkürə, sarsılmaz iradəyə malik, böyük idarəetmə məharətinə, hadisələrin nəbzini tutmağı bacaran mahir siyasətçi idi. Onun bu yüksək keyfiyyətlərindən, fenomen xüsusiyyətlərindən təkcə təhlükəsizlik orqanlarına pay düşmədi, bütövlükdə müstəqil Azərbaycan Respublikası faydalandı, onu daimi və dönməz etdi. Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi dövrlər diqqəti xüsusilə cəlb edir.

Heydər Əliyev hakimiyyətinin birinci dövründə (1969-1982) Azərbaycanı aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevirmiş, ikinci dövründə (1993-2003) isə müstəqil Azərbaycanın davamlı və dayanıqlı inkişafına, hərtərəfli yüksəlişinə nail olunmuşdur. Azərbaycan Respublikası bütün göstəricilər üzrə lider dövlətə çevrilmişdir. Heydər Əliyevin hazırladığı və həyata keçirdiyi siyasi kurs ölkə Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə həyata keçirilir. Azərbaycanın ən ağrılı problemi olan ərazi bütövlüyü məsələsi İkinci Qarabağ müharibəsində uğurla həll edilmiş, itirilmiş torpaqlarımız geri qaytarılmışdır. Hazırda Böyük Qayıdış uğurla həyata keçirilir.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan bölməsinin sədri, akademik***

# Gerçək müstəqilliyimizin memarı və milli həmrəyliyin tarixi fəlsəfəsi



**Tarixin hər bir dönəmində millətlərin taleyi dahi liderlərin varlığı və ya yoxluğu ilə sınağa çəkilir. Zaman sübut etdi ki, dahi siyasi lider fenomeni və milli liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nə qədər unikal bir haldırsa, Heydər Əliyev şəxsiyyəti də müasir müstəqil Azərbaycan üçün bir o qədər əvəzsiz və unikal bir nicat rəmzi idi.**

Onun 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi antimilli, qərəzli siyasi xəttə etiraz olaraq tutduğu yüksək vəzifələrdən cəsarətlə istefa verməsi ölkə daxilində və xaricində böyük əks-səda doğurmuşdu. Ermənilər bu fürsətdən dərhal istifadə etdilər, Azərbaycana qarşı pusquda duran xain qüvvələri hərəkətə keçdilər. İstefadan hələ iki həftə keçməmiş, erməni millətçiləri və onların sovet iqtidarının ən ali eşelonlarında yuva salmış himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana verilməsi ilə bağlı çirkin məsələ qaldırdılar. Azərbaycan xalqının sonsuz faciələri, torpaq itkiləri və böyük ağrıları məhz o qara gündən etibarən başladı. Tarixi reallıq birmənalı olaraq göstərir ki, əgər həmin dövrdə Heydər Əliyev respublika rəhbərliyində və ya mərkəzi hakimiyyətdə təmsil olunsaydı, erməni şovinistləri və onların havadarları bu cür çirkin, məkrli əməllərə əl atmağa əsla cürət edə bilməzdilər.

Təəssüf ki, o illərdə respublikaya rəhbərlik edən Vəzirov rejimi Azərbaycanı Heydər Əliyev yolundan döndərməyə, onun zəngin dövlətçilik irsini silməyə çalışdı. Müstəqilliyin ilk illərində sağlam düşüncənin səsinə qulaq asıb, bu böyük siyasi xadimi vaxtında respublika rəhbərliyinə dəvət etsəydilər, Azərbaycan xalqı 20 Yanvar qırğınını, Xocalı soyqırımını görməz, Laçın və Şuşa kimi strateji qalalarımızın satqınlıq və xəyanət qurbanı olmasına şahidlik etməzdi.

Ölkə ərazisinin 20 faizi işğal edilməz, dövlət müstəqilliyimiz bu qədər ağrılı, əzablı və qanlı yollardan keçməzdi. AXC–Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin yoxluğu, ölkədə fəaliyyət göstərən və rəsmi strukturlara tabe olmayan silahlı dəstələrin 1993-cü ilin əvvəllərindən başlayaraq törətdikləri qanunsuz əməllər daxili vəziyyəti artıq son həddə çatdırmışdı. Ölkəmizin ayrı-ayrı bölgələrində xarici kəşfiyyatın dəstəyi ilə separatçılıq və parçalanma meyillərinin baş qaldırması, bütün bunların daxildə qardaş qırğınına və amansız vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi xəritədən silinmək və məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

AXC–Müsavat cütlüyünün naşı və səriştəsiz idarəetməsi ölkəni hər an geridönməz olacaq bir uçuruma doğru sürükləyirdi. Yalnız və yalnız öz fərdi hakimiyyətlərini və kreslolarını saxlamağı düşünən bu qüvvələr millətə böyük faciələr gətirir, günahsız insanların cəbhədə və daxili çəkişmələrdə həlak olmasına şərait yaradırdılar. Dövlət idarəetməsində heç bir təcrübəsi, mənəvi haqqı və savadı olmayan, kriminal düşüncəli, təsadüfi şəxslərin dövlətin ən mühüm postlarına gətirilməsi suverenliyimizə birbaşa daxili təhdid yaradır, cəmiyyətdə görünməmiş bir mənəviyyatsızlıq və xaos mühiti formalaşdırırdı. Üstəlik, xarici siyasətdəki kor-koranə addımlar nəticəsində demək olar ki, bütün qonşu dövlətlərlə münasibətlər tamamilə korlanmışdı. Bəzi ölkələrə qarşı irəli sürülən əsassız və aqressiv iddialar Azərbaycanı regional müstəvidə düşmən qazanmağa məcbur etmiş, ölkəni tamamilə təcrid olunmuş vəziyyətə salmışdı.

Bütün bu qaranlıq amillər – 1991-1993-cü illər ərzində dövlətin müstəqilliyinə və suverenliyinə təhdid yaradan hər bir təhlükə artıq ölkəmizdə pik həddə çatmış, 1993-cü ilin yayında respublikada həyatın bütün sahələrini dərin və sistemli bir böhran bürümüşdü. Millət tam bir ümidsizlik içində çırpınırdı. Belə bir fəlakətli vəziyyətdən yeganə çıxış yolunu axtaran Azərbaycan xalqı öz xilasını və gələcəyini yalnız və yalnız dahi rəhbər Heydər Əliyev simasında gördü. Dövlətçilik anlayışından tamamilə bixəbər olan, hərbi birləşmələri öz şəxsi maraqları üçün istifadə edən ayrı-ayrı qiyamçıların və kriminal qrupların hədələrindən qorxub gizlənmiş, paytaxtda baş verən təhlükəli proseslərin qarşısını almaq iqtidarında olmadığını dərk edən AXC-Müsavat cütlüyü də dalana dirəndiyini görərək, sonda çarəsizlikdən Heydər Əliyevdən imdad istəməyə məcbur oldu.

Ulu öndər sonralar həmin günləri xatırlayarkən öz dərin fəlsəfi təhlili ilə vurğulayırdı: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı". Bəli, xalq öz iradəsi ilə ayağa qalxdı və öz dahi oğlunu tarixin ən böyük xilaskarlıq missiyasına çağırdı.

1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın və respublikanın çıxılmaz vəziyyətdə qalan hakim dairələrinin təkidli dəvətini qəbul edərək Bakıya gəldi. Taleyimizin həll olunduğu, ölüm-dirim savaşı apardığımız ağır bir zamanda millətin səsinə səs verərək yenidən böyük siyasətə və dövlət rəhbərliyinə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz bir fədakarlıq, böyük bir cəsarət nümayiş etdirdi. O, ölkəmizi ictimai-siyasi pərakəndəliyin, anarxiyanın və parçalanmanın məngənəsindən qurtardı, hər bir sahədə müşahidə olunan dərin tənəzzülün qarşısını qətiyyətlə aldı. Bu xilaskarlıq missiyasını öz çiyinlərinə götürən Ulu öndər, Bakıda hələ də hakimiyyət davasının getdiyi, güllələrin atıldığı bir vaxtda öz həyatını birbaşa təhlükə altında qoyaraq, heç bir tərəddüd etmədən dərhal Gəncəyə yollandı, hadisələri yerindəcə nəzarətə götürərək orada baş qaldırmış qorxulu qiyamın alovunu söndürdü, qardaş qırğınının qarşısını aldı.

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalının davam etdiyi, getdikcə gərginləşən xaos mühiti və əhalinin gündən-günə ağırlaşan sosial-iqtisadi durumu ölkəni bu bəlalardan xilas edə biləcək, dağınıq qüvvələri vahid amal ətrafında birləşdirib ağır və çıxılmaz vəziyyətdən çıxarmağa qadir xarizmatik, qüdrətli bir liderə ehtiyac olduğunu mütləq şəkildə şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri – ziyalıdan tutmuş sadə zəhmətkeşə qədər hər kəs tam əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş, lakin məhv olmaq astanasına gəlmiş ölkəni düşdüyü bu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə universal zəka və şəxsiyyət məhz Heydər Əliyevdir. Xalqımız böyük rəhbərin ətrafında polad bir yumruq kimi sıx birləşməklə öz gələcək taleyini özü həll etmək və müstəqilliyini əbədiləşdirmək niyyətində idi.

Budur, 15 İyun – Milli Qurtuluş Günü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı, taleyüklü əhəmiyyəti olan ən müqəddəs günlərdən birinə çevrildi. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, gələcək sürətli inkişafın sarsılmaz təməlləri qoyuldu. Həmin gün Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Az sonra, iyunun 24-də isə Milli Şuranın qanuni qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin sədri Heydər Əliyevə verildi. Xalqın bu qurtuluş sevinci və tarixin gedişatının dəyişməsi o qədər möhtəşəm idi ki, 1997-ci ilin iyun ayında Milli Məclis bu şərəfli günü rəsmən bayram günü – Milli Qurtuluş Günü elan etdi.

Ulu öndər Ali Sovetin sədri seçildiyi o tarixi gündə parlament kürsüsündən millətinə və dünyaya belə müraciət etmişdi: "Mənə bu gün böyük etimad göstərdiyinə görə Milli Məclisin üzvlərinə, Azərbaycanın Ali Sovetinə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm.

Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının dövlət müstəqilliyi kimi inkişaf etməsinə həsr edəcəyəm".

Ulu öndərin xalqımız və tariximiz qarşısında ən böyük, əbədi və unudulmaz xidməti kəskin geosiyasi ziddiyyətlərin, qanlı münaqişələrin mövcud olduğu çətin bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq fəlakətindən qurtarmasında idi. O, hər zaman öz müqəddəs andına sadiq qaldı. 1993-cü ilin payızında xalq böyük ruh yüksəkliyi və mütləq səs çoxluğu ilə öz tarixi seçimini etdi və Ulu Öndər Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Ümummilli Lider öz möhtəşəm andiçmə mərasimindəki tarixi nitqində xalqına olan sonsuz sevgisini bu sözlərlə ifadə edirdi: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Heydər Əliyevin həyata keçirdiyi bu dahi xilaskarlıq və dövlət quruculuğu missiyası üç mühüm fundamental amilə söykənirdi:

**Birincisi,** xalqın öz böyük rəhbərinə olan möhkəm, sarsılmaz inamı, sevgisi və böyük dəstəyi;

**İkincisi,** Heydər Əliyev şəxsiyyətinin bənzərsiz böyüklüyü, idarəçilik qüdrəti və siyasi əzəməti;

**Üçüncüsü** isə Heydər Əliyevin mənsub olduğu doğma Azərbaycan xalqına, müqəddəs Vətəninə olan sonsuz və təmənnasız sevgisi.

Ümummilli lider dövlətin daxili və xarici problemlərinin köklü həlli üçün ölkədə vətəndaş həmrəyliyini, ictimai sabitliyi son dərəcə vacib və ilkin şərt sayırdı. O, hər zaman qətiyyətlə bildirirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam mühit bərqərar edilməsə, heç bir sosial-iqtisadi proqramdan, yaxud hər hansı bir problemin həll edilməsindən söhbət belə gedə bilməz. Böyük şəxsi risklərə, sui-qəsd cəhdlərinə baxmayaraq, dövlətin və dövlətçiliyin qorunması məsuliyyətini cəsarətlə öz üzərinə götürən Ümummilli lider bütün səylərini məhz vətəndaş həmrəyliyinin bərqərar olunmasına yönəltdi və buna tamamilə nail oldu.

Heydər Əliyev rəhbərliyi ilə həyata keçən bu böyük qurtuluşun rəmzləri və qazanılan nailiyyətlər Azərbaycanı addım-addım intibaha apardı. İlk növbədə, ölkədə asayiş və qəti qayda-qanun bərqərar edildi, illərlə tüğyan edən soyğunçuluğa, anarxiyaya, vətəndaşların əmlakının zorla qəsb olunmasına birdəfəlik son qoyuldu. Qısa müddətdə pərakəndə dəstələrin əvəzinə vahid komandanlığa tabe olan nizami, güclü ordu yaradıldı, Birinci Qarabağ müharibəsində strateji atəşkəs əldə edilərək münaqişənin dinc və diplomatik yolla nizama salınmasına dair qlobal danışıqlara başlandı. Dövlət idarəetmə sistemi yenidən professional əsaslarla formalaşdırıldı, ümidini itirmiş insanlara öz milli dövlətinə olan inamı qaytarıldı. "Əsrin müqaviləsi" adı alan tarixi neft müqaviləsi – "Əsrin müqaviləsi" imzalandı, bununla da Azərbaycanın qlobal iqtisadi dirçəlişinin və maliyyə müstəqilliyinin sarsılmaz əsası qoyuldu.

Dövlət çevrilişlərinə cəhd edən qanunsuz silahlı qruplaşmaların və daxili xainlərin fəaliyyətinə birdəfəlik son verildi. Ölkədə müstəqil Azərbaycanın ilk demokratik parlament seçkiləri keçirildi və ümumxalq referendumu yolu ilə suveren dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Azərbaycanın çoxtərəfli beynəlxalq əlaqələri milli maraqlar çərçivəsində yenidən quruldu, ölkənin dünya birliyinə, beynəlxalq təşkilatlara inteqrasiyası prosesinə uğurlu start verildi. Siyasi islahatlar dərinləşdi, çoxpartiyalı sistem və azad cəmiyyət prinsipləri dövlətin əsas prioriteti oldu.

Peşəkar dövlət xadimi olan Heydər Əliyevin ən böyük gücü onun dərin və universal biliyində, polad qətiyyətində, inanılmaz işgüzarlığında, sarsılmaz hökmündə, qeyri-adi fitri yaddaşında, tükənməz peyğəmbərənə səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, dahi uzaqgörənliyində, qarşısına qoyduğu strateji məsələni nəyin bahasına olursa-olsun həyata keçirmək qabiliyyətində, müdrikliyində, böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında və həmsöhbətinə psixoloji təsir etmək gücündə idi. Məhz onun 1993-2003-cü illər rəhbərliyi dövründə qazanılmış sürətli və dayanıqlı inkişaf bugünkü möhtəşəm reallıqlarımızın, tarixi zəfərlərimizin aşınmaz bünövrəsidir. Həmin onillikdə görülmüş titanik işlər sayəsində Azərbaycan qlobal arenada öz prinsipial və diktəedici mövqeyini nümayiş etdirdi, dünyada böyük tərəfdaş və hörmətə malik dövlət oldu. Ölkə daxilində başlanan köklü islahatlar dövlətimizin gələcəyi üçün həlledici və xilaskar rol oynadı.

Ulu öndər Heydər Əliyevin adı tariximizə Vətənin və xalqın əbədi xilaskarı, yeni Azərbaycanın qurucusu kimi həkk olunmuşdur. Xalqımız onun müqəddəs və silinməz xatirəsini hər zaman öz qəlbinin ən uca zirvəsində saxlayır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi sonsuz minnətdarlıq hissi ilə qeyd edir.

*Əziz ƏLƏKBƏRLİ,*
*Milli Məclisin deputatı,*
*Qərbi Azərbaycan İcması*
*İdarə Heyətinin sədri*

# Mingəçevirdə Qurtuluş Günü təntənəsi

**İyunun 12-də Heydər Əliyev Mərkəzində 15 İyun Milli Qurtuluş Günü münasibətilə İcra Hakimiyyəti, YAP şəhər təşkilatı və Mingəçevir Dövlət Universitetinin birgə təşkil etdiyi "Ulu öndər Heydər Əliyev milli qurtuluşumuzun müəllifidir" mövzusunda konfrans keçirilib.**

İştirakçılar ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dövlətçiliyimizin xilaskarına dərin ehtiramlarını ifadə ediblər. Mərkəzin foyesində Heydər Əliyevin fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib. "Ulu öndər Heydər Əliyev milli qurtuluşumuzun müəllifidir" mövzusunda film nümayiş etdirilib.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov "15 iyun 1993-cü il Azərbaycan xalqı və dövlətçiliyi üçün qurtuluş tarixinin başlanğıcıdır" mövzusunda məruzə ilə çıxış edərək qeyd edib ki, 15 İyun Milli Qurtuluş Günü Azərbaycan xalqının dövlətçilik tarixində dönüş səhifəsidir və qədirbilən xalqımız dahi xilaskarın xidmətlərini heç vaxt unutmayacaq.

Konfransda YAP Mingəçevir şəhər Təşkilatının sədri Bəxtiyar Mustafayev "15 iyun Milli Qurtuluş Günü müasir dövlətçilik tariximizin ən parlaq səhifəsidir", Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov "Milli Qurtuluş Günü Azərbaycan təhsilinin uğurlu gələcəyinə gedən yolun təməlidir", Qərbi Azərbaycan İcması Mingəçevir şəhər nümayəndəliyinin sədri Mayıl İsmayılov "Ulu öndər Heydər Əliyev Milli inkişaf strategiyamızın yaradıcısıdır", Ruhi Əsəb Xəstəlikləri Dispanserinin baş həkimi Şəmsinur Hüseynova "Ölkə Prezidenti İlham Əliyevin zəfərləri Ulu öndərin siyasi kursunun uğurlu davamıdır" mövzularında məruzələrlə çıxış ediblər.




Mərasim Qurtuluş Günü münasibətilə hazırlanmış kompozisiyanın təqdimatı ilə davam edib.

*İ.MUSAOĞLU,*
*XQ-nin bölgə müxbiri*

# Ulu öndərin Milli Qurtuluş missiyası tarixi zərurət idi



**1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi ilə respublika tənəzzüldən tərəqqiyə yön aldı. Bu tarix Azərbaycanda milli özünüdərk, dirçəliş, inkişaf, cəmiyyətin hərtərəfli dəyişməsi mərhələsinin başlanğıcı oldu.**

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, müstəqil Azərbaycan dövlətinin formalaşması, dinamik inkişafı və dünya inteqrasiya sisteminə qovuşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır: "O dövrü düzgün təhlil edərkən biz gələcəkdə də özümüzü hər hansı bir risklərdən sığortalamış olarıq. O dövrü bilməyən, o vaxt yaşamayan gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik". Müstəqilliklə bağlı Ulu öndərin birmənalı, qətiyyətli addımları, gördüyü irimiqyaslı, nəhəng işləri xalqımız da yüksək qiymətləndirib.

Azərbaycanın bugünkü müstəqil, demokratik, hüquqi və dünyəvi ölkəyə çevrilməsi hələ keçən əsrin 70-80-ci illərinin əvvəllərində məhz Heydər Əliyev şəxsiyyəti, uzaqgörənliyi, müdrikliyi hazırlamışdır. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycan dövlətinin suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, regionda lider dövlətə çevrilməsi, dünya iqtisadiyyatına get-gedə daha da dərindən inteqrasiya olunması hələ 1969–1982-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirdiyi əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Aparılmış təhlillər göstərir ki, bugünkü müstəqilliyimizin əsasları o illərdə yaradılmışdır.

Ulu öndər 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda ölkə Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərinə görə axırıncı yerlərdən birini tuturdu. 1969–1982-ci illərdə ulu öndər Heydər Əliyevin apardığı nəhəng işlər Azərbaycana ittifaqda qabaqcıl mövqe qazandırmışdı. Dövlət başçısı İlham Əliyev yüksəlişi belə qiymətləndirmişdir: "O vaxt onun gördüyü o işlər həm sənaye, həm kənd təsərrüfatı, həm yüngül sənaye sahələrini böyük dərəcədə inkişaf etdirdi, canlandırdı. Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi".

Azərbaycanın dövlət müstəqilliyinin 35-ci ilidir. Bu, tarixi nöqteyi-nəzərdən çox az vaxtdır. Ancaq bu illərdə Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi çox çətin sınaqlardan, mürəkkəb proseslərdən keçmişdir. XX ərin sonlarında SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan öz müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd – Dövlət Müstəqilliyinin Bərpası haqqında Konstitusiya Aktı qəbul olundu. Bu tarixi sənəddə göstərilirdi ki, Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir.

Bu zaman Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa hazır idi. XX əsrin 80-ci illərinin sonlarından 1991-ci ilin oktyabrına kimi Azərbaycan xalqı tarixin ən ağır sınaqları ilə üzləşdi, müstəqilliyə sahib olmaq, onu qoruyub saxlamaq və möhkəmləndirmək üçün əzablı, əziyyətli yollar keçdi, bu imtahanlardan şərəflə çıxdı. Azərbaycan xalqı müstəqillik yolunda meydan hərəkatından keçmiş, 20 Yanvar faciəsinə o tuş gəlmişdi. Ancaq sovet imperiyasının tankları belə xalqın azadlığa, müstəqilliyə gedən yolunun qarşısını kəsməkdə aciz qalmışdı.

1991-ci il 18 oktyabrda Azərbaycan müstəqillik əldə etsə də, ilk illərdə siyasi hakimiyyət boşluğu, daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq, səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirmiş, onun gələcək taleyini sual altına qoymuş, müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı. Ayrı-ayrı bölgələrdə isə separatçılıq, parçalanma meyillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına son qoyulması planını tam gücü ilə işə salmışdı. İkiillik müstəqillik tarixinə baxmayaraq, ölkə qarşıdurmalar vəziyyətindən xilas ola bilməmişdi.

1993-cü il iyunun 4-də Gəncədə Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi isə ölkəni tamamilə xaosa sürükləmişdi. Belə bir şəraitdə Azərbaycan torpaqları Ermənistan quldur, silahlı dəstələri tərəfindən işğala məruz qalmış, yüz minlərlə soydaşımız öz dədə-baba torpaqlarından didərgin düşmüşdü.

1993-cü ilin may–iyun aylarında Azərbaycan öz tarixinin ən ağır günlərini yaşayırdı. Birinci Qarabağ müharibəsində böyük itkilər, hərbi uğursuzluqlar, Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizinin işğal edilməsi, yüz minlərlə soydaşımızın öz dədə-baba torpaqlarından didərgin düşməsi, iqtisadi tənəzzül və s. bütün bunlar bir daha göstərirdi ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.

Belə bir şəraitdə getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin ağırlaşan sosial durumu, müstəqilliyin itirilməsi təhlükəsinin yaranması ölkəni bu bəlalardan, bu vəziyyətdən, müstəqilliyimizi xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirdi. Azərbaycan xalqı tam əmin idi və inanırdı ki, yenicə müstəqillik əldə etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə siyasi lider, dahi şəxsiyyət Heydər Əliyevdir.

Özünün zəifliyini hiss edən respublika rəhbərliyi xalqın təkidi və tələbi ilə o vaxt Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik edən Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. Beləliklə, görkəmli dövlət xadimi, dünya miqyaslı böyük siyasi xadim Azərbaycanda yenidən siyasi hakimiyyətə gəldi. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi.

Bununla ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının tarixinə Qurtuluş Mübarizəsinin Qalibi kimi daxil oldu. Ulu öndərin bütün zamanların və bütün məkanların böyük azərbaycanlısı olmaqla, həm də müstəqil Azərbaycan dövlətinin banisidir, yeni müstəqil Azərbaycanın qurucusudur. Müstəqil Azərbaycan Ulu öndərin şah əsəridir.

Ümummilli lider Heydər Əliyevin xalqımız və milli tariximiz qarşısında ən böyük xidmətlərindən biri də, heç şübhəsiz, bu dahi şəxsiyyət torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlər mövcud olduğu, siyasi, sosial və iqtisadi böhranın dərinləşdiyi bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsi, Azərbaycan varlığını parçalayıb yox olmaq təhlükəsindən qurtarması idi.

Ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Respublikada hadisələrin gedişində həlledici dönüş başladı. Dünyaşöhrətli dövlət xadimi bir neçə siyasi gedişdən sonra ölkədə vəziyyət kökündən dəyişməyə başladı, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Qurtuluş döyüşündə qələbəyə doğru dönüş başladı. Xalqın Ulu öndərə rəğbəti və inamı daha da artdı, müdrik şəxsiyyətin, öz xilaskarının ətrafında daha möhkəm birləşdi.

Sonralar ümummilli lider Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1993-cü ilin iyununda hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Ulu öndərin şəxsiyyəti, müdrikliyi, uzaqgörənliyi, onun Azərbaycan xalqına, Azərbaycan torpağına olan misilsiz təəssübkeşliyi, özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, milli dövlətçiliyə sədaqəti bütün istiqamətlərdə baş verən xaosa, özbaşınalığa son qoydu, xalqımız azərbaycançılıq ideyaları ətrafında sıx birləşdi. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu, demokratik təsisatlar, insan hüquqları və azadlıqları müəyyən olundu və bunlar konstitusiyamızda əksini tapdı. Yeni iqtisadi sistemə keçilməyə başlandı. Respublikada ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi və vətəndaş cəmiyyəti quruculuğu prosesi sahəsində nəhəng addımlar atıldı. Həmçinin dahi, müdrik siyasi liderin təşəbbüsü və rəhbərliyi ilə ölkədə qanunla müəyyən olunan söz, mətbuat və vicdan azadlığı bərqərar olundu.

Ulu öndərin rəhbərliyi ilə dövlətin milli təhlükəsizlik və xarici siyasət xətti müəyyənləşdirildi. Az müddətdə ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi ilə Azərbaycan Respublikasında vahid mərkəzdən idarə olunan Silahlı Qüvvələrinin yaradılması və inkişaf etdirilməsi sahəsində əhəmiyyətli işlərə başlanıldı. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri, məqsəd, vəzifə və prioritetləri müəyyənləşdirildi.

Təcrübəli dövlət xadimi Heydər Əliyev respublikanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrin yaradılması və genişləndirilməsində dönüş yaratdı, elmi əsaslarla, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə start verildi. Ulu öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, ordunun formalaşması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami ordunun yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm işlər görüldü. 1994-cü ilin mayında atəşkəsə nail olundu.

Beləliklə, 15 İyun müstəqil Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Sonralar Azərbaycanın ali qanunverici orqanı – Milli Məclis xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü il 15 İyun gününü əbədiləşdirdi. Azərbaycan parlamenti 1997-ci il iyunun 27-də 15 İyun tarixini Milli Qurtuluş Günü elan etdi.

Həmin tarixi sənəddə deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "Ömrümün qalan hissəsini də xalqıma qurban verərəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

1993-cü il iyunun 15-ni Qurtuluş ona görə Milli Qurtuluş Günü adlandırırıq ki, azadlıq, müstəqillik, həm ayrıca, hər bir vətəndaş üçün, həm də bütöv xalqlar üçün, millətlər üçün ən müqəddəs, ən böyük nemətdir. Biz, bir xalq olaraq azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, ən sərt sınaqlardan keçmişik, bu yolda minlərlə şəhid vermişik. Tarixi proseslər göstərir ki, qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur. Milli dövlətçiliyin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi deməkdir, qurtuluş deməkdir!

Müstəqil Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı. Ümummilli liderin qətiyyəti xalqımıza ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı. Ümummilli lider Heydər Əliyev öz gücünə, iradəsinə, təcrübəsinə və xalqına arxalanan dahi, fenomen şəxsiyyət və dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".

Milli Qurtuluş Gününün tarixə yazılmasında 33 il keçir. Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmış və möhkəmləndirilmişdir. Şübhəsiz ki, bu mühüm nailiyyətlərin əldə edilməsində ümummilli lider Heydər Əliyevin fədakar, misilsiz xidmətlərinin müstəsna əhəmiyyəti vardır.

Ulu öndərin dahi şəxsiyyət, görkəmli siyasi xadim kimi fəaliyyətinin, məqsədyönlü siyasətinin başlıca qayəsi ölkənin hər bir vətəndaşının sosial-iqtisadi, siyasi təhlükəsizliyini qoruya biləcək qüdrətli dövlətə çevirmək olub. Bu gün Prezident İlham Əliyev Ümummilli liderimizin siyasi kursuna sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Bu yol ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Ümummilli lider Heydər Əliyev vaxtilə müdrikliklə demişdir: "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz".

Bu inam və qətiyyət Qurtuluş Gününün mənası və verdiyi ibrət dərsləridir. Bu onu göstərir ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaqdır. Ümummilli liderin yenilməz iradəsi, cəsarəti, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri etdi, ömür yolu xalqına, vətəninə xidmət nümunəsinə çevrildi.

Ulu öndər demişdir: "Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi, suverenliyi qoruyub saxlayacaqdır. İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, güclənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".

Azərbaycan bu gün Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Ölkəmiz özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır.

Son 30 ildən artıq bir dövrdə Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xətt, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərpası və suverenliyinin tam təmin edilməsi olmuşdur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və fədakarlığı sayəsində 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistan ordusunun tam məğlubiyyəti və onun kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Xalqımızın, Şanlı Ordumuzun bu Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Bu tarixi qələbə həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Bugünkü Azərbaycan ümummilli lider Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. 2003-cü ildən sonrakı illərdə qazanılan bütün nailiyyətlərin əsasında Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs və Prezident İlham Əliyevin bu xətti uğurla davam etdirməsi gerçəyi dayanır.

Dövlət başçısı İlham Əliyevin ulu öndər Heydər Əliyev siyasətini uğurla həyata keçirməsi nəticəsində respublikamız dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu günü-gündən artan dövlətə çevrilib. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Respublikası Heydər Əliyev ideyaları uğrunda Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə dünyaya daha sürətlə, daha çox inteqrasiya edəcək, daha yüksək nailiyyətlər əldə edəcək.

***İbrahim ZEYNALOV,***
***Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı, professor***

# Baş prokurorun vətəndaş qəbulu



**İyunun 12-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Nərimanov Rayon Prokurorluğunun inzibati binasında Nərimanov rayonundan olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 48 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

# İnsan alveri bəşəri cinayətdir





**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "İnsan alveri ilə mübarizədə təhsil müəssisələrinin rolunun gücləndirilməsi" mövzusunda təlim keçirilib.**

"Polisə Dəstək" İB-nin sədri Şəmsəddin Əliyev transmilli mütəşəkkil cinayətkarlığın insan alveri növünü doğuran səbəb və şəraitin aradan qaldırılması, bu cinayətlərin qarşısının alınması, sosial və hüquqi məsələlərin – gender əsaslı zorakılıqların insan alverinə zəmin yaradan səbəblər barədə danışıb. O, iştirakçıları insan alveri ilə bağlı maarifləndirmə tədbirlərində fəal olmağa çağırıb. Təşkilatın sədri, həmçinin vurğulayıb ki, ölkədə insan alverinə qarşı mübarizə sahəsində dövlət tərəfindən ardıcıl tədbirlər həyata keçirilir, profilaktik xarakterli maarifləndirici layihələr genişləndirilir.

Layihə üzrə ekspert Aydın Kərimov isə çıxışında turizm sahəsində qanunvericiliyin tələbləri, insan alveri ilə mübarizənin hüquqi əsasları və bu sahədə vətəndaşların hüquq və vəzifələri barədə ətraflı məlumat verib.

***XQ***

# Ümummilli liderin “Qurtuluş” savaşı



**15 İyun Azərbaycan tarixində yalnız bir siyasi hadisənin xatırlanması deyil, bütöv bir dövlətin varlıq təhlükəsindən çıxaraq sabit inkişaf yoluna qədəm qoymasının simvoludur. Bu tarix 1993-cü ildə ölkədə yaranmış dərin siyasi böhran, idarəetmə boşluğu və ictimai parçalanma fonunda xalqın iradəsi ilə yeni bir siyasi mərhələnin başlanğıcını ifadə edir. Həmin dövrdə ulu öndər Heydər Əliyevin Bakıya dəvət olunması və hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyinin qorunmasında həlledici rol oynadı və sonradan bu gün Milli Qurtuluş Günü kimi rəsmiləşdirildi.**

1990-cı illərin əvvəllərində Azərbaycan müstəqilliyini formal olaraq qazansa da, real dövlət quruculuğu ciddi çətinliklərlə üzləşmişdi. Sovet sistemindən miras qalan idarəetmə strukturlarının dağılması, yeni siyasi institutların isə hələ tam formalaşmaması ölkədə idarəetmə boşluğu yaratmışdı. Bu boşluq fonunda siyasi qüvvələr arasında kəskin qarşıdurmalar, mərkəzi hakimiyyətin zəifləməsi və iqtisadi sistemin çökməsi dövlətin funksionallığını ciddi şəkildə zəiflətmişdi. Eyni zamanda, Ermənistanla davam edən müharibə Azərbaycanın həm insan resurslarını, həm də iqtisadi imkanlarını tükəndirir, cəmiyyətin sosial strukturlarında dərin sarsıntılar yaradırdı. Qaçqınlıq və məcburi köçkünlük problemi, istehsalın dayanması və inflyasiyanın artması ölkəni kompleks böhran vəziyyətinə salmışdı.

Bu şəraitdə böhran təkcə iqtisadi və hərbi sahələrlə məhdudlaşmırdı, eyni zamanda, dövlətin legitimliyi məsələsini də gündəmə gətirirdi. Mərkəzi hakimiyyətin qərarlarının icra olunmaması, bölgələrdə nəzarətin zəifləməsi və siyasi institutların parçalanması real vətəndaş qarşıdurması təhlükəsini gündən-günə artırırdı. Belə bir vəziyyət artıq sadə idarəetmə problemi deyil, dövlət müstəqilliyinin davamlılığını sual altına alan sistem böhranı idi.

Belə kritik bir mərhələdə cəmiyyətin müxtəlif təbəqələri, xüsusilə ziyalılar və siyasi elita çıxış yolunu güclü dövlətçilik təcrübəsinə malik liderin hakimiyyətə gətirilməsində görürdülər. Bu ehtiyac yalnız siyasi boşluqdan deyil, həm də dövlət idarəçiliyinin strateji düşüncə ilə yenidən qurulması zərurətindən qaynaqlanırdı. Məhz bu tarixi zərurət nəticəsində Heydər Əliyev 1993-cü ildə Bakıya dəvət olundu və iyunun 15-də Ali Sovetin sədri seçilərək ölkənin siyasi rəhbərliyinə qayıtdı. Bu hadisə Azərbaycan tarixində dönüş nöqtəsi kimi qəbul edilir.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət idarəçiliyində prioritetlər köklü şəkildə dəyişdi. İlk mərhələdə əsas məqsəd ölkədə anarxiyanın qarşısının alınması və siyasi sabitliyin bərpası idi. Dövlətin güc strukturları yenidən təşkil olundu, silahlı qeyri-qanuni dəstələr zərərsizləşdirildi və mərkəzi hakimiyyətin qərarvermə qabiliyyəti bərpa edildi. Bu addımlar nəticəsində dövlətin əsas funksiyası olan ictimai təhlükəsizliyin təmin edilməsi mərhələli şəkildə sabitləşdi.

Eyni zamanda, idarəetmədə institusional yanaşma gücləndirildi. Dövlət orqanlarının fəaliyyətində koordinasiya artırıldı, hüquqi mexanizmlər yenidən işlənildi və dövlət idarəçiliyi daha sistemli formaya salındı. Bu proses təkcə inzibati tədbirlər deyil, həm də dövlətin ideoloji və strateji əsaslarının yenidən qurulması demək idi. Beləliklə, Azərbaycan tədricən xaotik idarəetmə modelindən çıxaraq mərkəzləşmiş və funksional dövlət modelinə keçid etdi.

Xarici siyasət sahəsində də mühüm dəyişikliklər baş verdi. Azərbaycan beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirmək üçün balanslaşdırılmış diplomatiya kursu seçdi. Region dövlətləri ilə münasibətlərin normallaşdırılması, Qərb ölkələri ilə əməkdaşlığın genişləndirilməsi və beynəlxalq təşkilatlara inteqrasiya ölkənin qlobal sistemdə mövqeyini gücləndirdi. Bu siyasət Azərbaycanın beynəlxalq legitimliyini artırmaqla yanaşı, iqtisadi və siyasi dəstək mexanizmlərinin formalaşmasına şərait yaratdı.

1994-cü ildə imzalanan “Əsrin müqaviləsi” Azərbaycanın iqtisadi inkişafında fundamental dönüş nöqtəsi oldu. Bu müqavilə Xəzər dənizinin enerji ehtiyatlarının beynəlxalq şirkətlərlə birgə işlənməsini nəzərdə tuturdu və ölkəyə böyük həcmdə xarici investisiyaların daxil olmasına imkan yaratdı. Bu, həm iqtisadi dirçəlişin başlanğıcı, həm də Azərbaycanın qlobal enerji xəritəsində mühüm oyunçuya çevrilməsi demək idi. Eyni zamanda, bu layihə dövlətin maliyyə sabitliyinin möhkəmlənməsində strateji rol oynadı.

1995-ci ildə qəbul edilən Konstitusiya isə dövlət quruculuğunun hüquqi əsaslarını tamamladı. Bu sənəd demokratik idarəetmə prinsiplərini, insan hüquqlarının qorunmasını və hakimiyyət bölgüsü sistemini təsbit etməklə Azərbaycanın hüquqi dövlət kimi inkişafına zəmin yaratdı. Konstitusiya həm də dövlət institutlarının fəaliyyətini normativ çərçivəyə salaraq uzunmüddətli sabitliyin təmin edilməsində əsas rol oynadı.

Bu dövrdə aparılan islahatlar təkcə dövlət strukturlarını deyil, həm də ictimai şüuru dəyişdirdi. Cəmiyyətdə dövlətə inamın bərpası, sosial həmrəyliyin güclənməsi və gələcəyə yönəlmiş optimizmin formalaşması inkişaf proseslərinin sosial əsasını möhkəmləndirdi. İnsanlar artıq dövlətin dağılma təhlükəsindən çıxaraq sabit gələcəyə doğru irəlilədiyini görməyə başladılar.

Eyni zamanda, iqtisadi sistemin liberallaşdırılması, bazar münasibətlərinin formalaşması və özəl sektorun inkişafı ölkənin iqtisadi strukturunu dəyişdirdi. Xarici investisiyaların artması və yeni iqtisadi layihələrin həyata keçirilməsi Azərbaycanın uzunmüddətli iqtisadi inkişaf modelini formalaşdırdı. Bu dəyişikliklər ölkənin tədricən regional iqtisadi mərkəzə çevrilməsinə şərait yaratdı.

Ulu öndər dövlət quruculuğunda ən kritik sahələrdən biri olan ordu quruculuğuna xüsusi diqqət yetirirdi. 1993-cü ildən etibarən nizamsız və ayrı-ayrı silahlı dəstələr şəklində fəaliyyət göstərən hərbi qüvvələrin vahid komandanlıq altında birləşdirilməsi istiqamətində mühüm addımlar atıldı. Bu proses nəticəsində Azərbaycan Ordusu tədricən peşəkar, mərkəzləşdirilmiş və dövlətə tabe olan milli ordu kimi formalaşmağa başladı. Hərbi nizam-intizamın gücləndirilməsi, komandanlıq strukturunun yaradılması və ordunun siyasi təsirlərdən uzaqlaşdırılması dövlətin təhlükəsizlik sistemini möhkəmləndirdi. Bu addımlar həm də müharibə şəraitində ölkənin müdafiə qabiliyyətini artıraraq cəbhə xəttində sabitliyin təmin olunmasına şərait yaratdı.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsas sütunlarından biri azərbaycançılıq ideologiyası oldu. Azərbaycançılıq ideyası milli kimliyin qorunması, dilin, mədəniyyətin və tarixi yaddaşın inkişaf etdirilməsi ilə yanaşı, ölkə daxilində yaşayan bütün etnik qrupların vahid dövlətçilik ideyası ətrafında birləşməsini nəzərdə tuturdu. Bu ideologiya etnik və dini müxtəlifliyi parçalanma amili kimi deyil, dövlətin zənginliyi kimi qəbul edir, cəmiyyətin birliyini gücləndirirdi. Azərbaycançılıq həm də dövlətə sədaqət, vətəndaş həmrəyliyi və milli maraqların üstün tutulması kimi prinsipləri özündə birləşdirirdi.

Beləliklə, 15 İyun Milli Qurtuluş Günü Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunması və yeni inkişaf mərhələsinə keçidinin əsas simvoludur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi, iqtisadi və institusional islahatlar ölkəni dərin böhrandan çıxararaq sabit və dayanıqlı dövlət modelinə çevirdi. Bu günün tarixi əhəmiyyəti təkcə keçmişin xatırlanması deyil, həm də müasir Azərbaycan dövlətçiliyinin əsas ideoloji və strateji təməlini təşkil etməsidir.

*Adil ƏLİYEV,*
*Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı*



# Gələcək Zəfərə aparan yol

**Xalqımızın çoxəsrlik dövlətçilik tarixində 15 İyun Milli Qurtuluş Günü təkcə siyasi hakimiyyət dəyişikliyini deyil, respublikamızın məhv olmaq təhlükəsindən xilas edilməsini və gələcək inkişafının möhkəm təməl üzərində qurulmasını ifadə edir.**

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan son dərəcə mürəkkəb və ziddiyyətli geosiyasi şəraitdə fəaliyyət göstərməyə başlamışdı. Sovet İttifaqının çökməsi nəticəsində yaranmış iqtisadi böhran, idarəetmə sisteminin dağılması, Ermənistanın hərbi təcavüzü və daxili siyasi çəkişmələr ölkəni ağır vəziyyətə salmışdı.

O dövrdə dövlət strukturlarının zəifliyi, hakimiyyət uğrunda mübarizə, sosial-iqtisadi tənəzzül və cəbhədə uğursuzluqlar ölkədə ciddi narazılıq yaratmışdı. Bir tərəfdən torpaqlarımız işğal olunur, digər tərəfdən isə respublika daxilində sabitlik pozulurdu. Dövlət idarəçiliyi iflic vəziyyətinə düşmüş, müxtəlif bölgələrdə qanunsuz silahlı birləşmələr müxtəlif bölgələrdə hökmranlıq etməyə başlamışdı.

1993-cü ilin ortalarında vəziyyət daha acınacaqlı həddə çatdı. Gəncədə baş vermiş hadisələrin doğurduğu siyasi böhran ölkədə vətəndaş qarşıdurması təhlükəsini artırdı. Azərbaycan, demək olar ki, dövlət müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz belə bir taleyüklü məqamda xalqın nəzərləri Naxçıvanda yaşayan, zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyevə yönəldi.

Azərbaycan xalqının təkidli tələbi ilə Heydər Əliyev 1993-cü ilin iyun ayında Bakıya dəvət olundu. İyunun 15-də dahi liderin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi isə ölkənin siyasi həyatında dönüş nöqtəsi oldu. Bu hadisə təsadüfi deyildi. Xalq yaranmış mürəkkəb vəziyyətdən çıxış yolunu yalnız güclü siyasi iradəyə, zəngin idarəçilik təcrübəsinə malik və milli maraqları hər şeydən üstün tutan lider şəxsiyyətin rəhbərliyi ilə fəaliyyətdə görürdü.

Beləliklə, “Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır”, – deyən Ümummilli lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: “Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”. Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Bununla da Azərbaycanda uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. “Olum, ya ölüm” dilemması qarşısında qalmış ölkə Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ulu öndər xalqımızın böyük əksəriyyəti tərəfindən Prezident seçildi.

Dahi şəxsiyyəti hakimiyyətə qayıdışından sonra ölkədə, ilk növbədə, ictimai-siyasi sabitliyin təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirildi. Qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsi, dövlət hakimiyyəti institutlarının fəaliyyətinin bərpası və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində ardıcıl addımlar atıldı. Qısa müddət ərzində respublikada vətəndaş qarşıdurması aradan qaldırıldı. Dövlət idarəçiliyində vahid sistem formalaşdırıldı. Azərbaycanın müxtəlif bölgələrində müşahidə olunan separatizm meyillərinə sədd çəkildi və milli birlik möhkəmləndirildi.

Sonrakı iqtisadi, sosial və beynəlxalq uğurların təməlində bu sabitlik önəmli rol oynadı. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, əgər 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, Azərbaycan bu gün müstəqil dövlət kimi mövcud olmaya bilərdi. Bu fikir Milli Qurtuluşun əsl mahiyyətini və tarixi əhəmiyyətini aydın şəkildə ifadə edir.

Milli Qurtuluşdan sonra qarşıda duran əsas vəzifələrdən biri iqtisadi tənəzzülün qarşısını almaq idi. Çünki ölkənin maliyyə imkanları məhdud idi, istehsal sahələri iflic vəziyyətinə düşmüşdü. Ulu öndərin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən iqtisadi strategiya qısa müddətdə öz nəticələrini verməyə başladı. 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı enerji şirkətləri ilə imzalanmış “Əsrin müqaviləsi” Azərbaycanın müasir iqtisadi inkişaf tarixində yeni mərhələ açdı.

Bu müqavilə ölkəyə milyardlarla dollar xarici investisiyanın cəlb olunmasına şərait yaratdı. Sonrakı dövrdə Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri və digər strateji enerji layihələri Azərbaycanın beynəlxalq iqtisadi mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi. Beləliklə, Milli Qurtuluş yalnız siyasi sabitlik deyildi, həm də iqtisadi müstəqillik və tərəqqi üçün möhkəm təməlin yaradılması demək idi.

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlət quruculuğunun əsasını formalaşdırdı. Məhkəmə-hüquq sistemi yenidən quruldu, demokratik institutların inkişafı üçün hüquqi baza yaradıldı, insan hüquq və azadlıqlarının qorunması istiqamətində mühüm addımlar atıldı.

Milli Qurtuluş Azərbaycanın beynəlxalq münasibətlər sistemində də mövqelərinin güclənməsinə yol açdı. Balanslaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasət nəticəsində ölkəmiz qısa müddətdə regionun aparıcı dövlətlərindən biri oldu. Beynəlxalq təşkilatlarda fəal iştirak etməyə başladı, dünyanın aparıcı dövlətləri ilə strateji tərəfdaşlıq münasibətləri qurdu. Azərbaycan enerji təhlükəsizliyi, nəqliyyat-logistika layihələri və regional əməkdaşlıq sahələrində mühüm aktora çevrildi.

Bu gün ölkəmizin Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat qovşaqlarından biri olması, beynəlxalq enerji təhlükəsizliyinə mühüm töhfələr verməsi və qlobal təşəbbüslərin fəal iştirakçısı kimi tanınması da məhz həmin dövrdə müəyyənləşdirilən strateji kursun nəticəsidir.

Milli Qurtuluşun yaratdığı güclü dövlətçilik modeli özünün ən parlaq təzahürünü 2020-ci ildə göstərdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı möhtəşəm Zəfər ölkəmizin müasir tarixinin ən şanlı səhifəsinə çevrildi. 44 günlük Vətən müharibəsi nəticəsində işğal altındakı torpaqlarımız azad edildi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bununla da xalqımızın onilliklər ərzində həsrətini çəkdiyi tarixi ədalət təmin edildi. Bu möhtəşəm Qələbənin əsasında güclü iqtisadiyyat, müasir ordu, milli birlik və siyasi sabitlik dayanırdı. Bütün bunların təməli isə 1993-cü ildə başlanan Milli Qurtuluş prosesində qoyulmuşdu.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misilsiz bərpa-quruculuq işləri Azərbaycanın inkişaf tarixində yeni mərhələ açır. Azad edilmiş ərazilərdə “ağıllı” şəhər və kənd layihələri həyata keçirilir, geniş infrastruktur qurulur. Böyük Qayıdış Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması Azərbaycan dövlətinin gücünün və sosial siyasətinin humanist mahiyyətindən soraq verir. Bu genişmiqyaslı quruculuq prosesinin ideoloji əsaslarını da Milli Qurtuluş fəlsəfəsi təşkil edir. Çünki güclü dövlət, milli həmrəylik və strateji inkişaf xətti olmadan belə böyük layihələrin həyata keçirilməsi mümkün olmazdı.

Bu gün Azərbaycan tarixinin ən qüdrətli mərhələlərindən birini yaşayır. Ölkəmiz regionun siyasi, iqtisadi və hərbi cəhətdən güclü dövlətlərindən biri kimi tanınır. Qlobal təşəbbüslərin müəllifi kimi çıxış edir, beynəlxalq nüfuzu davamlı şəkildə artır. Bütün bu uğurların əsasında məhz 1993-cü ilin 15 iyununda başlanan qurtuluş missiyası dayanır. Bu isə Milli Qurtuluş Gününün Azərbaycan xalqının öz dövlətinə sahib çıxması, milli birliyinin və siyasi müdrikliyinin təntənəsi kimi dəyərləndirməyə əsas verir.

Beləliklə, 15 İyun təkcə tarix deyil, həm də Azərbaycanın dövlətçilik iradəsinin, müstəqilliyə sadiqliyinin, milli həmrəyliyinin və gələcəyə inamının rəmzidir. Xalqımız bu təqvimi qürurla qeyd edir, çünki yaxşı bilir ki, müasir Azərbaycanın uğur salnaməsinin başlanğıc nöqtəsi məhz Milli Qurtuluş Günüdür.

Bu gün Qurtuluşdan doğan inkişaf yolu Azərbaycanı yeni hədəflərə aparır. Dövlətimizin gücü, xalqımızın birliyi və milli maraqlara əsaslanan siyasət sayəsində ölkəmiz qarşıdakı illərdə də yeni uğurlara imza atacaq, müstəqilliyini və suverenliyini daha da möhkəmləndirəcək.

*Hidayət HEYDƏROV,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü, iş adamı*



# Xilaskarın qayıdışı

**Dünya tarixi hər hansı bir xalqın, ölkənin, etnik qrupun və bütövlükdə, bəşəriyyətin taleyində şərəfli yer tutan şəxsiyyətlərlə sıx bağlıdır. Bəzən uzun illər hakimiyyətdə qalmış belə şəxsiyyətlərin həyat tarixçələri ölkələrinin mürəkkəb siyasi, sosial-iqtisadi problemlərinin həllinə və sabit inkişafına həsr etdikləri gərgin zəhmətləri gələcək nəsillərə çatdırır və dövlətçiliyə xidmət örnəyinə çevrilir.**

Heç şübhəsiz, Heydər Əliyev bu şəxsiyyətlərin ön sırasında yer alan möhtəşəm simalardandır. Onun gözlənilməz siyasi gedişlərlə, ağlasığmaz dönüşlərlə və səs-küylü çətinliklərlə dolu zəngin həyatı, yer üzündə qoyduğu unikal və təkrarolunmaz izi bütün dünya üçün bir xəzinədir. Heydər Əliyevin adı eşidiləndə, hər bir azərbaycanlı bütün həyatını vətəninin çiçəklənməsinə həsr etmiş bir insanla təsəvvürolunmaz bir qürur hissi keçirir. Ulu öndər xalqının sonsuz sevgisini öz böyük əməlləri və möhtəşəm ictimai-siyasi fəaliyyətilə qazanmış, onların yaddaşında azad və çiçəklənən bugünkü müstəqil Azərbaycanın yaradıcılarından biri kimi əbədi qalmışdır.

Belə bir sual yaranır ki, idarəetmə təcrübəsi, sarsılmaz, mətin xarakteri və çıxdığı yola güclü inamı Heydər Əliyevə 1990-cı illərin əvvəllərindəki xaotik idarəetmənin yaratdığı dağıntıların öhdəsindən gəlməyə, Azərbaycanı müstəqil dövlətçilik yoluna çıxarmağa və onu regionun aparıcı iqtisadiyyatına çevirməyə necə kömək etdi?

1960-cı illərdə əsası qoyulan Heydər Əliyevin idarəetmə fəlsəfəsinin əsas ideoloji və siyasi istiqaməti milli özünüifadənin bütün forma və vasitələrinin geniş əhatə dairəsi, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə töhfə verən sürətli inkişaf strategiyasının həyata keçirilməsi ilə xarakterizə olunur. Milli dövlətçiliyin ideoloji təməlinə çevrilən Heydər Əliyevin "azərbaycançılıq" ideologiyası onun müasir dünyada yerini müəyyən etmiş və dünyanın hər yerində yaşayan azərbaycanlılar üçün birləşdirici amilə çevrilmişdir. Heydər Əliyev bütün həyatını xalqına sədaqətlə xidmət etməyə həsr etmiş, həmişə ona güvənmiş, ən çətin anlarda ona üz tutmuşdur. Xalqın, həmvətənlərin isə ona etimadı, inamı daimi olmuş və heç vaxt ondan dəstəklərini əsirgəməmişlər.

Sevimli vətəni olan Azərbaycan, yalnız doğma torpağını öz həyatından daha çox sevən, taleyin qəddar və bəzən ədalətsiz zərbələrinə qarşı mətanətlə duruş gətirən sadiq oğlunun səyləri sayəsində bütöv və bölünməz qalmışdır. Heydər Əliyev xain və namərd düşmənin zərbəsindən sonra hər dəfə ayağa qalxmış, ölkəsini ən firavan, ən xoşbəxt və çiçəklənən ölkə etmək kimi ülvi məqsədinə doğru irəliləməyə davam etmişdir. Ulu öndər əmin idi ki, hər bir azərbaycanlının qürurla "Vətənim, Azərbaycan" deyəcəyi vaxt gələcək və o zaman "Azərbaycan dünyaya Günəş kimi doğacaq!"

Hələ Sovet hakimiyyəti illərində həm Azərbaycanın, həm də SSRİ kimi nəhəng dövlətin əsas dövlət rəhbərlərindən biri kimi sovet vətəndaşları arasında Heydər Əliyevə populyarlıq qazandıran onun fərqli və fenomenal xüsusiyyətləri, şəxsi ünsiyyət üslubu və hadisə yerinə gedərək problemi şəxsən həll etməyə hazır olması idi. Bununla bağlı sovet dövründən də, müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdən də kifayət qədər faktlar var.

Dünyanın tarixçi alimləri və politoloqları Heydər Əliyevin böyük siyasətə qayıdışını Sovet qoşunlarının 1990-cı il yanvarın 20-də törətdiyi qanlı Yanvardan sonra ilə bağlayırlar. Həqiqətən də, 1990-cı il Heydər Əliyev üçün fərqli bir karyeranın – ümummilli lider kimi siyasi fəaliyyətinin başlanğıcı oldu. 1991-ci ildən 1993-cü ilə qədər o, sahib olduğu zəngin siyasi və dövlət idarəçilik təcrübəsini, istedadını Naxçıvanda sınadı. 1991-ci ilin iyul ayında, Moskvada baş vermiş hakimiyyət çevrilişindən bir ay əvvəl Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasından ayrıldı və 1991-ci il sentyabrın 3-də Naxçıvan parlamentinin sədri seçildi. Həmin dövrdən başlayaraq 1993-cü ilin yazına qədər onun şöhrətinin qayıdış dövrü oldu. O, Naxçıvanın sərhədlərində sülh və sabitliyin qorunması barədə Ermənistanla razılığa gəlməyi, eləcə də Türkiyə və İranla konstruktiv, balanslı münasibətlər qurmağı bacardı.

Hələ 1990-1991-ci illərdə müxtəlif respublikalarda baş vermiş qanlı dövlət terrorları SSRİ-nin dağılması ilə nəticələndi və bu amil yenidən Heydər Əliyevi kəskin siyasi dalğaların zirvəsinə qaldırdı. Bu, təəccüblü deyildi - postsovet Azərbaycanın məhz belə qətiyyətli və bacarıqlı bir liderə ehtiyacı var idi. 1993-cü ilin oktyabrında respublika daxili iğtişaşlardan və Dağlıq Qarabağdakı münaqişədən sarsıntı keçirərkən, Vətəninə son dərəcə bağlı olan və hələ Sovet rejiminin repressiv metodlarının hökm sürdüyü bir dövrdə Azərbaycan üçün misilsiz işlər görən Heydər Əliyev kənarda qala bilməzdi. Əslində xalq da onun kənarda qalmasını deyil, hakimiyyətə gəlib "xəstə" Azərbaycanı ayağa qaldırmasını istəyirdi.

1992-1993-cü illərdə Heydər Əliyev özünün razılığı ilə yaradılmış Yeni Azərbaycan Partiyasına rəhbərlik etdi. Bu dönəmdə Heydər Əliyev onun yenidən hakimiyyətə gəlməsini istəməyən ovaxtkı respublika hakimiyyətinin inamsızlığını və tez-tez açıq düşmənçiliyini aradan qaldırmaq üçün mətin iradə nümayiş etdirdi.

Azərbaycan tarixinin diqqətçəkən məqamlarından biri ondadır ki, qısa bir zamanda Azərbaycanda bir neçə dövlət çevrilişi baş verdi: 1992-ci ilin fevralında Qarabağ müharibəsindəki uğursuzluqlar səbəbindən Rusiyapərəst Ayaz Mütəllibov hakimiyyəti devrildi. Həmin il mayın 15-də Mütəllibovun tərəfdarları onu hakimiyyətə qaytardılar, lakin heç bir gün keçməmiş o, ölkədən qaçdı və Əbülfəz Elçibəy prezident seçildi. Amma onun hakimiyyəti də 1 ildən çox çəkmədi. Ölkə sürətlə xaosa və vətəndaş müharibəsinə sürüklənirdi.

...1993-cü ilin may ayında Surət Hüseynov özünə tabe olan silahlı dəstələrin dəstəyi ilə hökumət əleyhinə üsyana başladı. Hüseynovun tərəfdarları ilə hökumət qüvvələri arasında toqquşmalar insan ölümü ilə nəticələndi. Qarabağdakı uğursuzluqlar fonunda Surət Hüseynovun üsyanı yeni kütləvi etiraz dalğasına səbəb oldu. Bu dəfə bu dalğa sələfi Ayaz Mütəllibovun siyasətindən narazılıq dalğası ilə hakimiyyətə gələn Azərbaycanın ikinci prezidenti Əbülfəz Elçibəyə qarşı yönəlmişdi. Böhranın qorxulu vətəndaş müharibəsinə çevriləcəyi məqamda Heydər Əliyev respublikaya gəldi və birbaşa hadisələrin sürətlə cərəyan etdiyi, milli qarşıdurmanın kəskin xarakter aldığı Gəncəyə yola düşdü. Bədxahlarının ağlına belə gəlməzdi ki, xalqın çağırışına səs verib paytaxta dönmüş Heydər Əliyev artıq milli lider kimi Azərbaycanın daxilindəki parçalanmanı həll etməyə nail olacaq. Amma Ulu öndər bunu ən usta şəkildə bacardı.

15 iyun 1993-cü ildə Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. 17 iyundan 18 iyuna keçən gecə Elçibəy Bakıdan qaçdı və 25 iyunda onun səlahiyyətləri Heydər Əliyevə keçdi. 29 avqust 1993-cü ildə Əbülfəz Elçibəyə etimadla bağlı referendum keçirildi. Xalqın 92 faizinin ikinci Azərbaycan Prezidentinə etimadsızlığı Xalq Cəbhəsi Partiyasının (AXP) lideri üçün siyasi məğlubiyyət idi. Digər birinci dalğa milli demokratların kimi, Elçibəy də mitinqlərin hüdudlarından kənarda real siyasi fəaliyyət göstərə bilmədiyini sübut etdi və onun hakimiyyəti iflasa uğradı.

Ona görə də Heydər Əliyev xalqın təkidi ilə elə həmin ilin oktyabrında keçiriləcək seçkilərdə prezidentliyə namizədliyini irəli sürməyə razı oldu. Seçki məntəqələrinə gələn demək olar ki, hər kəs məhz ona səs verirdi. 1993-cü il oktyabrın 3-də Heydər Əliyev seçkilərdə 98,8 faizi səslə Azərbaycan Prezidenti seçildi və eyni zamanda, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı oldu. Təbii ki, Heydər Əliyev Dağlıq Qarabağ Azərbaycana qaytarmaq niyyətini gizlətmirdi və dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən uzaq siyasi hədəfdə buna yönələn ciddi addımlara hazırlıq gedirdi. Hadisələrin çox gərgin məqamında Heydər Əliyevin siyasi dühasının gücü onda idi ki, o, xaotik inqilabi hərəkatı dövlətçiliyin və milli maraqların müdafiəsi çağırışları ilə əsas qayəyə tərəf döndərə bildi və bu qüvvənin aparıcı lideri oldu. Dövlətçilik instinkti yeniləşməni hərəkətə gətirdi və milli azadlıq hərəkatını dövlətçiliyin xilası trekinə çıxartdı. Bir neçə strateji araşdırmalar inistutunun görməli olduğu işləri Heydər Əliyev zəkası təkbaşına gördü. Amma bu bir gündə baş verə bilməzdi.

Düşmən bilirdi ki, artıq Azərbaycana yüksək siyasi zəkaya və beynəlxalq nüfuza malik bir şəxsiyyət rəhbərlik etməyə başlayıb. Bu amilin özü daxili sabitliyin tənzimlənməsi üçün bir vasitə olsa da, xarici qüvvələrin öz planlarını həyata keçirməsi yolunda çox güclü bir manеə idi. Ona görə də onlar bütün vasitələrlə Heydər Əliyevin nüfuzuna elə ilk gündən sarsıdıcı zərbə vurmaq niyyəti ilə cəbhədə vəziyyəti daha da gərginləşdirdilər.

1993-cü il dekabrın 11-də Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağın əhəmiyyətli bir hissəsini işğal edərək bölgəyə bitişik Azərbaycan ərazisində bir neçə yaşayış məntəqəsini ələ keçirməyə müvəffəq oldular. Buna cavab olaraq Heydər Əliyevin çağırışı ilə səfərbər olan Azərbaycan silahlı qüvvələri dekabrın 22-də bütün cəbhə boyu Ermənistan silahlı qüvvələrinə ağır zərbələr endirib bir neçə məntəqəni geri qaytardılar. Döyüşlər zamanı düşmən ağır itkilər verdi və 1994-cü il may ayının əvvəlində Bişkekdə başlayan danışıqlar nəticəsində 12 may 1994-cü ildə Bişkek atəşkəs protokolu qüvvəyə mindi.

Heydər Əliyevin Dağlıq Qarabağda müharibənin dayandırılmasında əsas məramı xalqın və ölkənin üzücü gərginliklərdən xilas olub rahat nəfəs almasını, daxili sabitliyi təmin etmək və dövlət təsisatlarında nizam-intizam yaratmaq idi. Bundan keçən qısa bir vaxtda Heydər Əliyev Azərbaycanın daxilində qarışıqlığa səbəb ola biləcək hər şeyə böyük uzaqgörənliklə və qətiyyətlə son qoydu. Məhz bu xidmətinə görə də Heydər Əliyev postsovet Azərbaycanını vətəndaş müharibəsindən və dövlətçiliyin məhvindən xilas edib, müstəqillik yoluna çıxaran müstəsna siyasətçi hesab olunur.

Prezident Heydər Əliyevin həmin dövr üçün əsas narahatlıqları təkcə ölkəni xaosdan xilas etmək və təcavüzü dayandırmaq deyildi. O, tarix qarşısında üzərinə düşən vəzifənin nə qədər mühüm olduğunu heç kimin, görə bilmədiyi bir uzaqgörənliklə görürdü. Bilirdi ki, onun missiyası yeni, müstəqil və azad bir Azərbaycan dövləti qurmaqdır. Məhz 1993-cü ildə hakimiyyətə qayıdışından, Azərbaycanı xaosdan və dağılmaqdan xilas etdikdən sonra Heydər Əliyev ölkənin iqtisadi və siyasi sisteminin təməl daşlarını qoydu, dövlətinin, sonradan məlum olduğu kimi, əslində qonşu dövlətlərin əksəriyyətinin - gələcək illər üçün gedişatını müəyyən etdi. Heydər Əliyevin ona miras qalan ağır problemləri həll etmək üçün böyük dövlətçilik və iqtisadi-idarəetmə təcrübəsi var idi. Düşünülmüş maliyyə islahatları, təkcə sənaye nəhənglərinin deyil, həm də kiçik biznesin və orta təbəqənin maraqlarını nəzərə alan vergi siyasəti ona xarici yardımı və daxili resursları səmərəli şəkildə idarə etməyə kömək etdi.

Heydər Əliyev Rusiyanın imperiya boyunduruğundan buraxmaq istəmədiyi və bunun üzündən ağır zərbələr alaraq torpaqlarının bir hissəsi böyük qonşularının hərbi dəstəyini alan Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib dağıdılmış, evlərinin yağmalanıb viran qoyulduğu 1 milyona yaxın vətəndaşının qaçqın kimi küçələrə töküldüyü Azərbaycanı dirçəltdi və bütün regionun gələcəyini formalaşdıran bir inkişaf xətti formalaşdırdı. Bu yerdə son illərdə mətbuatda oxuduğum, ulu öndər Heydər Əliyevin Azərbaycan hüdudlarından kənara işıq saçan dühasından bəhs edən çox maraqlı bir fakt yadıma düşür:

Gürcüstanın ictimai-siyasi xadimi, 1990-cı illərdə Tbilisinin meri olmuş Niko Lekişvili medaya verdiyi müsahibədə Astanadakı görüşləri zamanı Heydər Əliyevin Eduard Şevardnadzenin siyasi karyerasını necə xilas etməyə çalışdığını xatırlayaraq deyir: "Şevardnadzeni tək qoymamağı məsləhət gördükdən sonra, Heydər Əliyev mənə vacib bir qovluq uzatdı və bunu Gürcüstan dövlət başçısına təhvil verməyi tapşırdı. Heydər Əliyev qovluğu təhvil verməklə və içindəkiləri izah etməklə mənə böyük etimad göstərdi. Heydər Əliyev heç bir siyasi məktəbdə öyrənilə bilməyən keyfiyyətlərə malik idi".

...Heydər Əliyevin qısa dövrdə atdığı addımlar, qəbul etdiyi siyasi qərarlar bir daha ulu öndərin bütün ömrü boyu sahib olduğu cəsarətdən, əzmkarlıqdan, dərin zəkasından xəbər verirdi. Kremlin rus şovinizmi və Mixail Qorbaçovun çirkin xisləti üzündən hakimiyyətdən uzaqlaşdırılan Heydər Əliyevin uzun müddət fəxri sovet təqaüdçüsü vəzifəsində qalmayaraq, az bir vaxtda yenidən siyasi səhnəyə qayıtması fenomenal bir hadisə idi. Çünki Naxçıvana "sürgün edildikdən" sonra hər siyasətçi 70 yaşında münaqişələrlə dolu gənc, müstəqil bir respublikaya rəhbərlik etməyə cəsarət etməzdi. Onun siyasi karyerasını araşdıran tədqiqatçılara görə, çoxları üçün aydın olmayan bu seçimdə həlledici amil Heydər Əliyevin doğma torpağına və xalqına olan həqiqi və sarsılmaz sevgisi idi.

Heydər Əliyevin adının Azərbaycanın çiçəklənməsi və inkişafı ilə əlaqələndirilməsi onun 34 il bu respublikaya rəhbərlik etməsi, bu illər ərzində onun inkişafında, ikinci dönəm hakimiyyətə qayıdışı ilə müstəqilliyinin bərqərar olmasında müstəsna xidmətlər göstərməsində idi. 1993-cü ildə prezident səlahiyyətlərinin icrasına başlayan Heydər Əliyev, demək olar ki, dərhal Xəzər dənizində karbohidrogen hasilatına böyük beynəlxalq investisiyalar cəlb etməyə nail oldu. Bu cəhətdən bilavasitə onun rəhbərliyi altında 1994-cü ildə dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" adını alan neft layihəsinin hazırlanması və imzalanması xüsusi rol oynayır. Bu müqavilə təkcə Azərbaycanın zəngin təbii sərvətlərini qlobal bazarlara çıxarmadı, həm də onu beynəlxalq siyasətdə mövqey sahibinə çevirdi.

1994-cü il sentyabrın 20-də imzalanan bu müqavilə Qərb şirkətlərinə Azərbaycanın Xəzər dənizinin neft yataqlarının işlənməsində 70 faiz pay verdi. Dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi" ilə Azərbaycan növbəti 30 il ərzində 180 milyard dollar mənfəət əldə etməyə ümid edirdi. Rusiya və digər Xəzəryanı dövlətlər bu addımı qəbuledilməz hesab edirdilər. Onlar Xəzərin neft ehtiyatlarının istismarı ilə bağlı hər hansı bir böyük layihənin kollektiv şəkildə əlaqələndirilməsində israr edirdilər. Bu səbəbdən Rusiya-Azərbaycan münasibətləri xeyli gərginləşdi, Türkmənistanla mübahisələr yaşandı. Lakin Heydər Əliyevin iradəsi və siyasi gedişləri sayəsində Azərbaycan özünə faydalı olan nəticəyə nail oldu.

Bu sırada Prezident Heydər Əliyevin ən böyük nailiyyətlərindən biri də Xəzər neftinin birbaşa Aralıq dənizi limanına ixracı üçün Avropanın ən böyük neft kəməri olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi hesab olunur. Bunlar Azərbaycanın həm siyasi, həm də sosial-iqtisadi uzunmüddətli uğurlu inkişafının təməlini qoydu. Məhz Heydər Əliyevin 10 illik rəhbərliyi dövründə Azərbaycan beynəlxalq arenada hörmət edilən və söz sahibi olan bir ölkəyə çevrildi.

Bütün bunlar hələ ermənipərəst qüvvələrin Azərbaycana təzyiqinin qarşısının alınması və ölkədə sabitliyin tam bərqərar olması anlamına gəlmirdi. Həmin vaxta qədər Qarabağ münaqişəsi səbəbindən ABŞ Konqresi Azadlığa Dəstək Aktına ABŞ hökumətinin Azərbaycana yardımını qadağan edən düzəliş qəbul etdi. Eyni zamanda Prezident Heydər Əliyev 1994-cü il oktyabr ayının əvvəllərində respublikadakı daxili münaqişələrlə də məşğul oldu. Həmin ərəfədə Baş nazir Sürət Hüseynov daha bir dövlət çevrilişinə cəhd etdi. Heydər Əliyev çevriliş cəhdinə imkan vermədi. Azərbaycanın hüquq-mühafizə orqanları planlaşdırılan üsyandan xəbər tutub, üsyançıları vaxtından əvvəl hərəkətə keçməyə məcbur etdilər. Çevriliş iştirakçılarının bəziləri həbs edildi, Sürət Hüseynov isə ölkədən qaçdı. Lakin 1997-ci ildə o da Rusiyada həbs olunaraq Bakıya ekstradisiya edildi və 1999-cu ildə ömürlük həbs cəzasına məhkum edildi.

Lakin bunlar Prezident Heydər Əliyev hakimiyyətinə qarşı olan radikal müxalifət və xarici irticaçı qüvvələrin revanşizmini sona vermədi. 1990-cı illərin ortalarında, daha iki dövlət çevrilişi cəhdindən – 1995-ci il 13-17 mart və 1996-cı ilin oktyabr hadisələrindən sonra respublikada siyasi sabitlik demək olar ki, tam bərqərar oldu.

Həmin illərdə artıq müstəqil Azərbaycanın yeni Konstitusiyasının hazırlanması zərurəti yarandı. Prezident Heydər Əliyev başda olmaqla xüsusi komissiya yaradıldı və hazırlanan yeni Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verildikdən sonra – 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Müstəqil Azərbaycanın ilk Konstitusiyası dövlət quruculuğunun əsaslarını qoydu və eyni zamanda, prezidentin səlahiyyətlərini əhəmiyyətli dərəcədə genişləndirdi.

Bu mənada, əlbəttə, Heydər Əliyev təkcə bu gün qüvvədə olan müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının deyil, həm də yeni Azərbaycan Respublikasının hüquqi dövlət strukturunun müəllifi oldu. Bu gün Prezident İlham Əliyev dövrünə xas olan müstəqil dövlətin demokratik idarə olunmasında görkəmli rolu məhz xaosdan və dağıntılardan sonra bərqərar olan Heydər Əliyev hakimiyyəti müəyyən etdi.

1990-cı illərin sonlarında Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə tanınması sahəsində çox ciddi addımlar atdı. 1997-ci ildə Azərbaycan GUÖAM assosiasiyasının fəal üzvü oldu. 1999-cu ilin fevralında Azərbaycan MDB Kollektiv Təhlükəsizlik Müqaviləsindən (KTM) çıxdı və həmin ilin noyabr ayında ATƏT-in İstanbul sammitində bölgədə Rusiya neft tranzit marşrutlarına alternativ olan strateji Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi ilə bağlı bir sıra sazişlər imzaladı. Beynəlxalq siyasi dairələrdə kifayət qədər yaxşı tanınan və böyük nüfuza malik olan Heydər Əliyev Azərbaycanın dünya siyasətində öz yerini tutması üçün müntəzəm xarici səfərlərə gedir, danışıqlar aparır, ikitərəfli əməkdaşlıq və tərəfdaşlıq müqavilələri, sazişlər imzalayırdı.

Cəmi bir onillikdə daxili siyasi çəkişmələrə son verərək ölkənin inkişafının təməlini qoymağa müvəffəq olan Ulu öndər çətinliklər olmadan deyil, inamla və aydın şəkildə Azərbaycan sosial-iqtisadi və siyasi sisteminin əsas prinsipini - sosialyönümlü bazar iqtisadiyyatını - rifah dövlətini qurdu.

Ölkə bütün bunları həyatını Azərbaycan xalqının rifahı naminə ictimai-siyasi xidmətə həsr edən Heydər Əliyevə borclu idi. O, uzaqgörən, son dərəcə işgüzar, dünya siyasətini dərindən bilən, beynəlxalq aləmdə nüfuzu olan, polad iradə və möhkəm əqidə sahibi idi. Bütün bu keyfiyyətlər ona Azərbaycnın müstəqilliyini təməldən qurmağa, sabit siyasi sistem formalaşdırmağa və Cənubi Qafqazın ən güclü iqtisadiyyatının bünövrəsini qoymağa kömək etdi.

Onun Azərbaycanda qurduğu demokratik dövlət idarəçiliyi sistemi bu günə qədər fəaliyyət göstərir: güclü və demokratik dövlət quruluşuna, sosial yönümlü iqtisadiyyata və dünya ölkələrinə inteqrasiyaya malik azad və müstəqil respublika.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın geosiyasəti üçün uzun illərə hesablanmış yeni bir vektor müəyyən etdi. Başda Prezident İlham Əliyev olmaqla onun dövlət idarəçilik məktəbinin yeni nəsli yetişdi və bu gün onlar inqilabı idarəçilikdən çox dəqiq ayırırlar.

2003-cü ildə ümummilli liderin vəfatı onun bədxahlarının, xarici və daxili düşmənlərinin gözlədiyi kimi Heydər Əliyevin yaratdığı sistemi çökdürmədi, əksinə yeni nəsil liderlərə hərəkət üçün strateji bir vektor və aydın bir məqsəd verdi. Demokratik seçki yolu ilə hakimiyyət kürsüsündə Ulu öndəri əvəzləyən Prezident İlham Əliyev az bir zamanda ümummilli liderin müəyyənləşdirdiyi bu siyasi vektor ətrafında öz komandasını səfərbər edib Azərbaycanı regionun lider dövləti və beynəlxalq siyasətdə söz sahibi edən bir dövlətə çevirməyə müvəffəq oldu. Prezident İlham Əliyevin yeni və müasir bir lider kimi yüksəlişi nəsillərin əvəzlənməsini möhkəmləndirdi və sürətləndirdi. Onun 23 il ərzində həyata keçirdiyi xarici və daxili siyasət, elən etdiyi hərbi doktrina bütün mənalarda varisi olduğu Heydər Əliyevin arzu və istəklərinin, xüsusilə də Azərbaycanın ərazi bütövlüyünün tam təmin edilməsində müstəsna rol oynadı. Prezident İlham Əliyev 2020-ci ildə 44 günlük Vətən müharibəsində təcavüzkar Ermənistan üzərində misilsiz qələbəyə imza ataraq ümummilli lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın tarixinə adını Müzəffər Ali Baş Komandan kimi yazdırdı. Bu gün o Komandanın strateji siyasəti Azərbaycanı azad, demokratik, təhlükəsiz rifah ölkəsi kimi növbəti uğurlara doğru aparır.

***Məhərrəm SƏFƏRLİ,***
*Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü,*
*Həsən bəy Zərdabi mükafatı laureatı*

# Ulu öndərin qayıdışı milli xilaskarlıq idi

*Müsahibimiz müstəqillik hərəkatında "91-lər" adı ilə tanınanlardan biri, akademik Sudeif İmamverdiyevdir*

**Keçən əsrin 90-cı illərin əvvəllərində müstəqilliyinə yenicə qovuşmuş Azərbaycan dövləti özünün ağır, təlatümlü dövrünü yaşayırdı. Saxta, populist şüarlarla siyasi hakimiyyətə gələn AXC-Müsavat cütlüyü qısa müddət ərzində xalqın inam və etibarını tamamilə itirmişdi. Nəticədə ölkəni xaos, hərcmərclik, ağır böhran bürümüşdü. O biri yandan da əzəli torpaqlarımız əldən gedirdi. Bəli, Azərbaycan xalqı çox çətin, çıxılmaz duruma düşmüş, milli dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı.**



Vətənin ağır taleyi hər bir vətənpərvər ziyalı kimi o dövrdə Azərbaycan Tibb Universitetinin urologiya kafedrasının müdiri işləyən, görkəmli alim, tibb elmləri doktoru, professor Sudeif İmamverdiyevi də dərindən narahat edirdi. O ağır, taleyüklü illərdən 33 il keçsə də, Sudeif müəllim baş vermiş hadisələri olduğu kimi yaddaşına köçürüb. Görkəmli uroloq-alim bizimlə söhbətinə bu sözlərlə başladı:

– Zaman ən böyük hakimdir. Dövrün, zamanın ağır, çətin sınaqlarından uğurla, alnıaçıq çıxmaq yalnız dahilərə nəsib olur. Xalqımızın böyük oğlu, dünyaşöhrətli dövlət xadimi, milli iftixarımız Heydər Əliyev belə qüdrətli, müdrik şəxsiyyətlərdəndir. Bu dahi siyasətçinin taleyinə tarixi xilaskarlıq missiyası yazılmışdı. Ulu öndər bu missiyasını ən yüksək səviyyədə, böyük qətiyyətlə, səriştə və peşəkarlıqla yerinə yetirmişdir.

1990-cı illərin əvvəlləri bu gün də kino lenti kimi gözümün önündən keçir. AXC – Müsavat hakimiyyəti ölkəni idarə etmək əvəzinə dağıdıcı istiqamətdə fəaliyyət göstərir, torpaqlarımız bədnam qonşularımız tərəfindən işğal olunur, məcburi köçkünlərin sayı günbəgün artırdı. Cənubda, şimalda separatçı qüvvələr baş qaldırmışdı. Ölkə dağılır, parçalanırdı. Biz bir qrup ziyalı dağıdıcı proseslərin davamlı olduğunu görüb hədsiz narahat olur, çıxış yolunu müdrik rəhbər, dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdük.

Ən düzgün yol isə partiya yaratmaqla hakimiyyətə gəlmək idi. Ona görə də 1992-ci il oktyabr ayının 16-da 91 nəfər vətənpərvər ziyalı bir araya gələrək Heydər Əliyevə müraciət etdik. Ulu öndər müraciətimizə müsbət cavab verdi. Açığını deyim ki, o vaxta qədər ümummilli lider Azərbaycanda hakimiyyətə gəlmək düşüncəsini, rəhbər olmaq fikrini ortaya qoymamışdı. Əslində bu düşüncə xalqın qəlbində yaşayırdı, yaxşı bilirdik ki, ölkəni bu vəziyyətdə yalnız Heydər Əliyev dühası, müdrikliyi xilas edə bilər.

"91-lər" çox mühüm missiyanı yerinə yetirdilər. Çox sevinir, qürur duyuram ki, həmin müraciətdə mənim də imzam vardır. Bu müraciət respublikada böyük əks-səda yaratdı. Çoxlu təzyiqlərə, maneələrə baxmayaraq, 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və əbədiyaşar liderimiz Heydər Əliyev partiyanın sədri seçildi.

1993-cü ilin yayında xarici və daxili düşmənlərimiz Azərbaycanı parçalamaq, müstəqilliyimizi və dövlətçiliyimizi məhv etmək planlarını həyata keçirmək üçün daha da fəallaşdılar. İyunun 4-də Gəncə qiyamından sonra Azərbaycanın ovaxtkı rəhbərləri özləri də gördülər ki, respublikanı idarə edə bilmirlər. Anladılar ki, ölkəni vətəndaş müharibəsi, məhvolma həddinə gətirib çıxarıblar.

Müstəqilliyimizi, dövlətçiliyimizi itirmək təhlükəsi yarananda xalq öz xilaskarını, müdrik rəhbərini köməyə çağırdı. 1993-cü il iyun ayının 15-də xalqın təkidli tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi. 15 iyun tarixə Milli Qurtuluş Günü kimi yazıldı.

Ulu öndər qısa vaxtda ölkədə qayda-qanun yaratdı, xalqı bəlalardan xilas etdi. Müstəqil Azərbaycan yeni inkişaf yoluna qədəm qoydu, insanlarda fərqli düşüncə tərzi formalaşdı.

Lakin düşmən yatmamışdı. Xarici havadarlarına arxalanan bədxah, nankor qüvvələr dəfələrlə terror aktı, dövlətçiliyimizə qarşı qəsdlər törətməyə çalışdılar. Xalqın dahi rəhbərə sonsuz inamı, məhəbbəti, böyük dəstəyi ilə dövlət çevrilişinə cəhdlərin qarşısı alındı. Bütün dünya gördü ki, xalq sevimli Prezidentinin arxasındadır, ölkəmizdə xalq-iqtidar birliyini heç bir qüvvə poza bilməz.

1994-cü ilin sentyabrında Ümummilli liderin rəhbərliyi ilə "Əsrin müqaviləsi" reallaşdı. Bütün sahələrdə uğurlu islahatlar aparıldı. Azərbaycan sürətlə inkişaf edərək beynəlxalq aləmdə nüfuzlu dövlət kimi tanındı.

O illərə nəzər salanda Ulu öndərlə unudulmaz görüşləri böyük məhəbbətlə, sayğı ilə xatırlayıram. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü olduğuma görə şuranın iclaslarında görüşürdük. Hər birimizi diqqətlə, səbirlə dinləyir, mövqeyimizi soruşurdu. Onun hər sözü, çıxışı adamı valeh edirdi. Elə bilirdin ki, səni çoxdan tanıyır, qəlbindəkilərdən xəbərdardır. Əsl rəhbər, bütün varlığı ilə xalqa bağlı böyük şəxsiyyət idi.

Heç vaxt yadımdan çıxmır. 1997-ci il yanvar ayında xalq şairi Bəxtiyar Vahabzadəni işlədiyim Qədirli adına Mərkəzi hövzə xəstəxanasında əməliyyat eləmişdim. Ulu öndər yanvarın 19-da xəstəxanada müalicə olunan şairə baş çəkməyə gəlmişdi. Bəxtiyar müəllimin səhhəti, vəziyyəti ilə yaxından maraqlandı. Həmin görüşdə mənim də əməyimi yüksək qiymətləndirərək dedi: "Təşəkkür edirəm ki, cərrahımız belə yaxşı əməliyyat aparıbdır. O, Yeni Azərbaycan Partiyasının üzvüdür və həmin partiyanın siyahısı ilə Milli Məclisə deputat seçilib. Bax, Milli Məclisdə belə cərrahlarımız var. Biz bununla da fəxr etməliyik. Fəxr etməliyik ki, Milli Məclisimizdə bu cür mütəxəssislər, ziyalı adamlar var".

Ümummilli liderin siyasi kursunun dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan tamamilə fərqli bir yola çıxdı. Cənab Prezidentin yüksək qayğısı sayəsində güclü, müasir, mobil ordu yaradıldı. Müzəffər Ali Baş Komandanın qətiyyətli sərkərdəliyi ilə 44 günlük Vətən müharibəsində parlaq qələbəyə, böyük zəfərə imza atdıq. Torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olundu. Şanlı, üçrəngli bayrağımız ən yüksək zirvələrdə əzəmətlə dalğalanmağa başladı. Qazandığımız möhtəşəm qələbə qürurumuzu yüksəltdi, Azərbaycanı qalib dövlət kimi dünyaya tanıtdırdı. Bu gün hər birimiz şanlı ölkənin vətəndaşı olmağımızla fəxr edir, qürur duyuruq.

Hazırda möhtərəm Prezidentimiz İlham Əliyevin bütün fəaliyyəti, titanik səyləri ölkəmizin inkişafı, insanların rifah halının yüksəldilməsi ilə bağlıdır. Bunun nəticəsidir ki, xalqımız böyük ümidlərlə yaşayır, hər gün inkişaf, tərəqqi və yeniliyin şahidi olur.

İndi Qarabağda, Şərqi Zəngəzurda, respublikamızın digər bölgələrində nəhəng tikinti, bərpa-quruculuq işləri görülür, irimiqyaslı layihələr həyata keçirilir. İşğaldan azad edilmiş rayonlarda "ağıllı" kəndlər, şəhərlər salınır, müasir infrastruktur qurulur, insanlar üçün yeni, yüksək yaşam imkanları yaradılır. Uzun illər Vətən həsrəti, yurd dərdi və yanğısı ilə yaşayan soydaşlarımız ata-baba ocaqlarına qayıdırlar. Bugünkü çiçəklənən Azərbaycan bütün dünyaya Heydər Əliyev siyasi kursunun reallıqlarını, xalq-rəhbər birliyini, Vətən, xalq sevgisini əyani nümayiş etdirir.

Nə qədər azad, müstəqil, suveren Azərbaycan var, Heydər Əliyevin müdrik dühası, parlaq nəzəri irsi, uğurlu siyasi kursu yaşayacaq və ölkəmizi daha xoşbəxt, işıqlı gələcəyə aparacaqdır.

***Söhbəti yazdı:***
***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# "Heydər Əliyev: Halın tərcüməsi" sənədli filminin təqdimatı








**İyunun 12-də Heydər Əliyev Mərkəzində "Heydər Əliyev: Halın tərcüməsi" sənədli filmi nümayiş olunub.**

Təqdimat mərasiminin məqsədi ümummilli lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin, azərbaycançılıq məfkurəsinin və zəngin dövlətçilik irsinin daha dərindən öyrənilməsi və geniş təbliğinə töhfə verməkdir.

"REAL TV"nin baş direktoru Mir Şahin Ağayevin müəllifi olduğu və Audiovizual Şuranın dəstəyi ilə istehsal edilən film müxtəlif illərdə Ümummilli liderin verdiyi müsahibələr, çıxışlar və nadir arxiv materialları əsasında hazırlanıb.

Təqdimat mərasimində çıxış edən Mir Şahin Ağayev bildirib ki, tarixi hər kəs bilməlidir: "Çünki tarix sadəcə fənn deyil, həm də dərsdir. Azərbaycan tarixini öyrənmək isə hər birimizin borcudur. Heydər Əliyev irsini, onun Azərbaycan dövləti üçün gördüyü işləri bilmək gənclərimiz və uşaqlarımız üçün olduqca vacibdir. Bu filmin əsas məqsədi həmin dövrü yaşamamış gənc nəslin o tarixi daha yaxından tanımasına və bu biliklərin gələcək nəsillərə ötürülməsinə töhfə verməkdir. Filmdə ulu öndər Heydər Əliyevin müstəqilliyə münasibəti ilk müsahibəsindən son müsahibəsinədək əks olunur. Onun son müsahibəsində isə müstəqil Azərbaycanı gələcək nəsillərə əmanət kimi təqdim etməsi xüsusi yer tutur".

Sənədli filmdə XX əsrin sonlarında baş vermiş qlobal siyasi dəyişikliklərə, Sovet İttifaqının süqutu, Azərbaycanın mürəkkəb ictimai-siyasi böhranlardan çıxışı və müstəqil dövlət quruculuğu prosesinə birbaşa tarixi faktlar və arxiv materialları vasitəsilə nəzər salınır. Filmdə Azərbaycanın müasir tarixinin taleyüklü mərhələləri, dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsi prosesi, milli dövlətçilik ideyasının inkişafı və Ulu öndərin siyasi fəaliyyətinin müxtəlif istiqamətləri əks olunub.

"Azərbaycanın dövlət müstəqilliyi necə bərpa olundu?", "Dövlət necə quruldu, hansı mürəkkəb tarixi proseslərdən keçdi və ən əsası möhkəmləndi?" kimi suallarını filmdə Ulu öndərin özü cavablandırır. 55 dəqiqəlik ekran işində Ümummilli liderin müsahibələrini eksklüziv və unikal tarixi kadrlar müşayiət edir.

Ekran əsəri müasir Azərbaycan dövlətçiliyinin formalaşması tarixinin öyrənilməsinə, milli-mənəvi dəyərlərin təbliğinə və gənc nəslin vətənpərvərlik ruhunda maarifləndirilməsinə xidmət edir.

***XQ***

**Zəngilan rayonunun Ağalı kəndində və Laçın şəhərində Yeni Azərbaycan Partiyasının Laçın və Zəngilan rayon təşkilatları "Milli Qurtuluşdan Böyük Qayıdışa: azad edilmiş ərazilərdə quruculuq və dayanıqlı inkişaf modeli" mövzusunda toplantılar keçirib.**

# Milli Qurtuluşdan başlanan yol Qarabağa da nicat gətirib



Əvvəlcə müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin büstü ziyarət olunub. Dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad edilib və abidənin önünə gül dəstələri düzülüb. Sonra 15 İyun–Azərbaycanda Milli Qurtuluş Gününə, işğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin bərpasına, quruculuq işlərinə həsr edilən videoçarx təqdim edilib.



Bildirilib ki, 1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyini ciddi təhlükələrdən xilas etməklə ölkədə ictimai-siyasi sabitliyin və davamlı inkişafın əsaslarını formalaşdırıb. Qeyd olunub ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin siyasi kurs uğurla davam etdirilir, ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam təmin olunub, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa, yenidənqurma və quruculuq işləri həyata keçirilir.

Natiqlər Milli Qurtuluş Gününün Azərbaycan tarixində müstəsna siyasi və tarixi əhəmiyyətə malik olduğunu vurğulayaraq qeyd ediblər ki, Ulu öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası ölkəmizin hərtərəfli tərəqqisini təmin edib. Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma layihələri, müasir şəhərsalma konsepsiyalarının tətbiqi, "ağıllı kənd" və "ağıllı şəhər" modellərinin reallaşdırılması Azərbaycanın güclü iqtisadi potensialının, məqsədyönlü dövlət siyasətinin və strateji inkişaf baxışının nəticəsi kimi dəyərləndirilib.

Çıxışlarda vurğulanıb ki, Azərbaycan xalqının Milli Qurtuluşdan başlayan inkişaf yolu Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələyə yüksəlib. Tarixi Zəfər və dövlət suverenliyinin tam bərpası nəticəsində ölkəmiz keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işləri isə müasir Azərbaycan dövlətinin siyasi iradəsini, iqtisadi qüdrətini və inkişaf potensialını əyani şəkildə nümayiş etdirir.

İştirakçılar Zəngilan rayonunda və Laçın şəhərində həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri ilə yaxından tanış olublar. Azad edilmiş ərazilərdə aparılan yenidənqurma layihələri Böyük Qayıdış Proqramının uğurlu icrasının və Azərbaycanın dayanıqlı inkişaf modelinin parlaq təzahürünə şahidlik ediblər.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Paşinyan-Sarkisyan işbirliyi: ehtimal, yoxsa gerçəklik?

## *Edmon Marukyanın dedikləri və demədikləri*

**2018-ci il aprelin 22-də onlar görüşdülər və biri o birinə dedi: "İlk növbədə, çoxsaylı dialoq çağırışlarıma cavab verdiyinizə görə şadam. Düzünü desəm, onlarla jurnalistin iştirakı ilə necə danışıqlar aparacağımızı tam təsəvvür etmirəm. Amma hər halda şadam".**



Müxalifət lideri Nikol Paşinyanın Ermənistanın ozamankı prezidenti Serj Sarkisyanın ona dediyi sözlərə cavabı belə olmuşdu: "Məncə, burada anlaşılmazlıq var. Dünən mən aydın şəkildə demişdim ki, biz sizin təklif etdiyiniz dialoqdan danışmırıq. Biz yalnız gündəmə gətirdiyimiz məsələni müzakirə etməyə gəlmişik. Bu, Serj Sarkisyanın istefası və hakimiyyətin xalqa dinc şəkildə təhvil verilməsidir".

Əlbəttə, tərəflər arasında qısa görüşdə başqa fikirlər də səslənmişdi. Məsələn, Sarkisyan demişdi ki, "Siz reallığı dərk etməmisiniz. Bu, danışıq deyil, dialoq deyil. Bu, dövlətə və qanuni hakimiyyətə ultimatumdur. Siz 1 mart hadisələrindən nəticə çıxarmamısınız. Əgər bu tərzdə danışmağa davam edəcəksinizsə, mən sizə yalnız hüquqi çərçivəyə qayıtmağı tövsiyə edə bilərəm. Əks halda, bütün məsuliyyəti öz üzərinizə götürəcəksiniz".

Maraqlıdır ki, cəmi bir gün sonra, yəni aprelin 23-də Sarkisyan istefa verdiyini açıqlamış və Paşinyanı haqlı sayaraq, özünün yanıldığını dilə gətirmişdi. Bütün bunları təsadüfən xatırlatmadıq.

*

Deməli, Ermənistandakı "Maariflənmiş Ermənistan" partiyasının lideri Edmon Marukyan bildirib ki, ölkənin üçüncü prezidenti S.Sarkisyanın son bəyanatları Paşinyanla onun əlbir hərəkət etməsi barədə uzun illərdir səslənən söhbət və şübhələri təsdiqləyir. Marukyanın sözlərinə görə, son doqquz il ərzində minlərlə insan ona eyni sualı verib: "Serj Sarkisyan və Nikol Paşinyan birlikdədirlərmi?". Mən həmişə deyirdim ki, bu, cəfəngiyyatdır, konspirasiya nəzəriyyəsidir və mənim belə bir məlumatım yoxdur. Bu gün isə həmin insanların hamısından kollektiv şəkildə üzr istəyirəm".

Marukyan fikrini əsaslandırmaq üçün deyib ki, seçkiqabağı kampaniya zamanı Paşinyan üçün ən narahat mövzulardan biri onun baş nazir postunda üçüncü müddətə qalması məsələsi olub. Çünki vaxtilə məhz Paşinyan Sarkisyanın oxşar cəhdini qəbuledilməz sayıb və bunun avtoritar idarəçilik təcrübələri ilə müqayisəsini aparıb. Lakin jurnalistlər eyni sualı Sarkisyana verərək, Paşinyanın üçüncü müddətə gedib-getmədiyini soruşduqda, keçmiş prezident, faktiki olaraq, baş nazirin müdafiəsinə qalxıb və bildirib ki, əvvəlki, yəni 2021-ci ilin parlament seçkiləri növbədənkənar keçirildiyi üçün söhbət üçüncü müddətdən getmir: "Paşinyan özü bu məsələni cəmiyyətə normal şəkildə izah edə bilmir və bu zaman Serj Sarkisyan ortaya çıxaraq, onun əvəzinə izahat verməyə başlayır, faktiki olaraq, baş nazirin vəkili rolunu üzərinə götürür. Bu, biabırçılıqdır".

E.Marukyan, həmçinin bu məsələni qaldırmadıqlarına görə müxalifətin bir hissəsini və bəzi kütləvi informasiya vasitələrini tənqid edib. Onun sözlərinə görə, özlərini müxalif media kimi göstərən bir çox qurum Sarkisyanın ətrafı ilə əlaqəli strukturlar tərəfindən maliyyələşdirilir və buna görə əsas mövzu gündəmə gətirilmir. "Onlar müxalifət oyunu oynamaqda davam edəcəklər ki, Nikol həm 2031-ci ildə, həm də 2037-ci ildə baş nazir olsun", – deyə Marukyan bildirib.

Müxalifət lideri üzərində dayandığı məsələyə aydınlıq gətirmək üçün başqa bir məqama da toxunub. Daha doğrusu, Paşinyanın seçki kampaniyası dövründəki bəyanatlarına diqqət çəkib. Onun sözlərinə görə, baş nazir dəfələrlə Ermənistanın ikinci prezidenti Robert Koçaryan, iş adamı Samvel Karapetyan və "Çiçəklənən Ermənistan" partiyasının lideri Qaqik Sarukyan barədə mümkün həbslərdən danışıb: "Bütün kampaniya boyu Nikol deyirdi ki, Robert həbs olunacaq, Samvel həbs olunacaq, Qaqik həbs olunacaq. Amma Serj haqqında bir kəlmə də demədi".

Marukyanın fikirlərindən belə nəticəyə gəlmək mümkündür ki, söhbətimizin əvvəlində detallarını diqqətə çatdırdığımız Sarkisyan–Paşinyan dialoq səhnəsi qurama olub. Eləcə də Nikolun bütün "eks"ləri və onların siyasi törəmələrini hədəfə aldığı halda, Serjikin üzərinə getməməsi şübhə doğurur. Əlbəttə, ötən müddətdə Sarkisyan Paşinyanın əleyhinə çoxsaylı bəyanatlar səsləndirib, ikinci də birincini az tənqid etməyib. Hətta qarşılıqlı aşağılanma səhnələrinə də rast gəlinib. Yəni Marukyanın sözlərinə əsasən təəssüratı yaranan Paşinyan-Sarkisyan gizli işbirliyi məsələsi tam yerinə düşmür. Amma...

*

Məsələ ondadır ki, Ermənistan Respublikasının yaranmasında və mövcudiyyətində Qarabağ amili ön planda olub. Nəzərə alaq ki, ölkənin birinci prezidenti Levon Ter-Petrosyan məhz bu amil üzərində hakimiyyətə gəlmiş, mənfur "Qarabağ hərəkatı"nın liderliyi ampluası ona dövlət başçılığı dividendini qazandırmışdı. İkinci prezident Robert Koçaryanın da hakimiyyətə gəlməsində Qarabağda qəhrəmanlıq kimi təqdim olunan çoxsaylı cinayətlər həlledici rol oynamışdı. Sarkisyan isə "Qarabağ klanı"nın təmsilçisi idi və bir növ Koçaryanın "yolunu" davam etdirirdi. Maraqlı məqam isə budur ki, Sarkisyanın dövründə Qarabağ danışıqları mənasını itirmişdi. Yəni Ermənistan dövləti prosesdə bütün manipulyasiyaları sınaqdan çıxarmış, mövcud istiqamətdə ediləcək nə isə qalmamışdı. Ya İrəvan güzəştlərə getməli, ya da müharibə başlamalı idi. 2016-cı ilin "Aprel müharibəsi" bıçağın sümüyə dirəndiyinin sübutudur.

Paşinyan heç də əbəs yerə Qarabağa görə əvvəlki hakimiyyəti günahlandırmır. Onun danışıqların keçmiş iqtidarın zamanında uduzulduğunu söyləməklə, Qarabağ itkisi səbəbindən özünə ünvanlanan ittihamlardan yayındığı məlumdur. Deməli, Marukyanın üzərində dayandığı Sarkisyan-Paşinyan gizli işbirliyinin fərqli çalarının olduğunu düşünmək mümkündür.

Məsələ ondadır ki, Qarabağ danışıqlarının səmərəsizliyini görən Sarkisyan özü güzəştə gedə bilməzdi. Bu onun üçün ölüm hökmü olardı. Ona görə, necə deyərlər, "günah keçisi" axtarışına çıxıb və Paşinyanı tapıb. Onu da ehtimal etmək mümkündür ki, bu tapıntıdan Sarkisyanı hakimiyyətə gətirənlər xəbərsiz olub. Həqiqətən, Rusiya Ermənistandakı iqtidarı Qərbin adamına verməklə heç bir halda razılaşmazdı. Amma Moskva üçün oyun qaydaları anlayışı yaddır.

Bəli, 2018-ci ildə Qərbpərəst Paşinyanın Ermənistanda hakimiyyətə gəlməsi Rusiyada "soyuq duş" effekti yaratmışdı.





Təsəvvür edin, neçə illər, hətta əsrlər boyu imperiyanın sadiq qulları olmuş ermənilər üsyan edir və iqtidar postunda tamam başqa qüvvəni əyləşdirirlər. Lakin həmin vaxt Rusiyanın siyasi dairələri vəziyyətlə barışmaq məcburiyyətində qaldılar. Çünki Paşinyanın hakimiyyətdə qala bilməyəcəyinə ümid bəslədilər. Yenə də Qarabağ amili ön plana çıxdı. Paşinyan, öz növbəsində, Qarabağ məsələsinin həllediciliyini anladı və Azərbaycandan vaxt istədi. Vaxt istədi və həmin müddətdə belə nəticəyə gəldi ki, əgər Qarabağı və Ermənistanın işğal etdiyi digər əraziləri xoşluqla qaytarsa, demokratiyanın qladiatoru obrazı yerlə bir olacaq. Yeri gəlmişkən, onun Azərbaycandan istədiyi vaxt başa çatdıqdan sonra Prezident İlham Əliyevlə görüşdə səsləndirdiyi ritorik sual var: "Siz istəyirsiniz ki, məni öldürsünlər?". Görünür, Sarkisyan da öldürülməkdən qorxmuşdu, elə birinci prezident L.Ter-Petrosyan da. Levon məhz buna görə, daha doğrusu, Azərbaycana güzəştlərin qaçılmazlığını anladığından istefa vermişdi. Paşinyan isə problemin üzərinə getmək qərarına gəlmiş və 2019-cu ildə Xankəndidə "Qarabağ Ermənistandır, nöqtə" bəyanatını səsləndirmişdi. O bəyanatı ki, Nikolun Şuşada yallı getməsi ilə birgə müharibə üçün böyük səbəbə çevrilmişdi.

Əlqərəz, çox güman, Paşinyan Sarkisyanın onu hansı oyuna saldığının fərqinə varıb və görünür, sırf bu səbəbdən üçüncü prezidentə qəzəblidir. Serjik özü isə böyük ehtimalla Rusiyanın qəzəbinə tuş gəlmiş adamdır. Ona görə də 2018-ci ildən sonrakı heç bir seçkiyə qatılmır, çünki Moskvanın dəstəyinin olmayacağının fərqindədir. Hər halda, Kreml xəyanəti və fərsizliyi bağışlamır.

Ancaq Serjin özünə görə həqiqətləri ola bilər. Axı Ermənistanın Qarabağ müstəvisində dalana dirənməsi həm də Rusiya diplomatiyasının uğursuzluğu mahiyyətini daşımışdı. Nəhayət, Cənubi Qafqazda avantüra Moskvaya lazım idi. Sarkisyan təxminən o düşüncədə ola bilər ki, avantüranı saxlamaq istəyən qüvvə hansı yolla olursa-olsun onun arxasında dayanmalıdır. Dayanmırsa, deməli, həmin qüvvənin kiminsə müqəssir bilib gözdən salması doğru deyil. Doğru deyilsə, Sarkisyan siyasi "fəhmini" işə salıb subliminal şəkildə Paşinyana dəstək verə bilər. Ehtimal ki, E.Marukyanın söz açdığı mətləb məhz budur.

***

Sonda ümumiləşdirmə apararaq belə nəticəyə gəlmək mümkündür ki, Paşinyanla Sarkisyan arasındakı ixtilafın öz mahiyyəti var. Tərəflər, bir növ, mehriban düşməndirlər. Çalışırlar ki, mümkün qədər bir-birilərinin ayaqlarını tapdalamasınlar. Hətta onu da ehtimal etmək olar ki, Sarkisyan məhz bu səbəbdən anti-Nikol kampaniyasına qoşulmur. Marukyan kimilər isə özlərinin kiçik baxış bucaqları ilə Serjiki Nikolla işbirliyində ittiham etməyə girişirlər. Halbuki, indiki halda ittiham yerinə düşmür. Çünki 2021-ci ildə seçki keçirilməsini Paşinyan yox, müxalifət istəmişdi.

Əks düşərgə 5 il əvvəl zənn etdi ki, 44 günlük müharibədəki məğlubiyyətin günahkarı olan iqtidar hakimiyyətdən uzaqlaşdırılacaq. Amma Nikol və komandası güclü çıxdı. Marukyanın haqqında söz açdığı avtoritar idarəçilik modelinə gəlincə, Ermənistana demokratiya yaraşmır. Erməni xalqı ona doğru getmək üçün, ilk növbədə, avantüra ilə tam vidalaşmalıdır. Bu gün Ermənistan siyasətində koçaryanlarla, karapetyanlarla yanaşı, marukyanlar da təmsil olunurlarsa, deməli, hələlik, bu vidalaşmadan söhbət gedə bilməz. Belə bir durumda Nikol kimi nisbətən pozitiv qüvvə nə qədər bacarırsa, hakimiyyətdə qalsa, daha yaxşıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–Tailand: gələcək tərəfdaşlıq axtarışı

## *Cənub-Şərqi Asiya coğrafiyası ilə diplomatik təmaslar genişləndirilir*



**Azərbaycanın son dövrlər Cənub-Şərqi Asiya regionu ilə əlaqələri intensivləşdirməsi, xüsusən Tailand Krallığı ilə qurulan diplomatik təmaslar məqsədyönlü siyasətin bariz nümunəsidir. İyunun 11-də Bakı şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Tailand Krallığının Xarici İşlər Nazirliyi arasında ilk konsulluq məsləhətləşmələrinin keçirilməsi iki dövlət arasında siyasi dialoqun praktiki sahədə möhkəmlənməsinə xidmət edir. Konsulluq səviyyəsində qurulan əlaqələr dövlətlərarası münasibətlərin hüquqi və inzibati dayaqlarını möhkəmləndirir, eyni zamanda, gələcək strateji tərəfdaşlıq üçün etibarlı zəmin hazırlayır.**

Qlobal miqyasda nüfuz qazanan rəsmi Bakı xarici siyasətində fərqli coğrafiyalarla, xüsusilə Asiya–Sakit okean hövzəsi ilə sıx əməkdaşlıq formatların formalaşdırılmasına önəm verir. Tailand Krallığı ilə diplomatik münasibətlərin tarixi 1992-ci il iyul ayının 7-nə təsadüf etsə də, son illər bu əlaqələrin sistemli şəkildə inkişaf etdirilməsi üçün ciddi addımlar atılıb. 2025-ci ilin dekabr ayında Azərbaycanın Tailandda səfirliyinin rəsmi fəaliyyətə başlaması və hər iki ölkənin xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin keçirilməsi ikitərəfli əlaqələrdə dönüş nöqtəsi oldu. Həmin siyasi təmaslar çərçivəsində imzalanmış Anlaşma Memorandumu iki ölkə arasında tərəfdaşlığın gələcək yol xəritəsini müəyyən etdi, siyasi dialoqun institusional əsaslarını formalaşdırdı. İndi isə həmin əlaqələrin praktiki tərəfi olan konsulluq məsləhətləşmələri vasitəsilə dövlətlərarası inteqrasiyanın daha dərin səviyyəsinə keçid təmin olunur.

Bakıda keçirilən konsulluq məsləhətləşmələrində tərəflərin təmsilçilik səviyyəsi bu görüşə verilən siyasi əhəmiyyəti nümayiş etdirir. Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərovun, Tailand nümayəndə heyətinə isə müvafiq nazirliyin Konsulluq məsələləri departamentinin baş direktoru Munqkorn Pratoomkaevin rəhbərlik etməsi rəsmi səviyyədə mövzuya ayrılan diqqəti göstərir. Tərəflər arasında aparılan geniş fikir mübadiləsi iki dövlətin konsulluq sahəsində əməkdaşlıq fəaliyyətinin cari vəziyyətini qiymətləndirməyə və gələcək inkişaf perspektivlərini müəyyənləşdirməyə imkan yaradıb. İkitərəfli müqavilə-hüquq bazasının genişləndirilməsi, yeni əməkdaşlıq mexanizmlərinin formalaşdırılması və aidiyyəti sahələr üzrə qarşılıqlı fəaliyyətin institusional əsaslarının möhkəmləndirilməsi müzakirələrin əsas nüvəsini təşkil edib.

*

Qlobal geosiyasi rəqabətin kəskinləşdiyi müasir dövrdə konsulluq əlaqələri dövlətlərin xarici siyasətinin suverenlik və təhlükəsizlik parametrlərini ehtiva edən prosesdir. Azərbaycanın beynəlxalq nüfuzunun artması və vətəndaşlarının fərqli ölkələrə səfərlərinin çoxalması xaricdəki milli maraqların qorunması zərurətini artırır. Tailand Krallığı kimi mühüm region dövləti ilə konsulluq sahəsində institusional əməkdaşlığın qurulması dövlətin vətəndaşlarına göstərdiyi qayğının və qlobal miqyasda suveren təsir imkanlarının təzahürüdür. Həmin əlaqələrin möhkəmlənməsi iki dövlət arasında qarşılıqlı vizasız gediş-gəliş, diplomatik və xidməti pasportlara malik şəxslərin hərəkət sərbəstliyi və gələcəkdə ümumi viza rejiminin sadələşdirilməsi kimi strateji addımlara yol açır.

Görüşdə böhran vəziyyətlərində vətəndaşların təxliyəsi və onlara operativ konsulluq yardımının göstərilməsi sahəsində mövcud təcrübənin nəzərdən keçirilməsi qlobal təhlükəsizlik çağırışları baxımından əhəmiyyətlidir. Müasir dünyada baş verən regional münaqişələr, təbii fəlakətlər və gözlənilməz böhranlar dövlətlərin xarici ölkələrdəki vətəndaşlarının mühafizəsi məsələsini milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevirib. Azərbaycan dövlətinin vətəndaş təhlükəsizliyi sahəsində nümayiş etdirdiyi mövqe və müvafiq sahədə qazandığı təcrübə Tailand tərəfi ilə aparılan müzakirələrdə təhlil edilib. Təxliyə proseslərinin idarə olunması, diplomatik nümayəndəliklərin krizis anında koordinasiyalı fəaliyyəti və operativ rabitə kanallarının yaradılması sahəsində qabaqcıl mexanizmlərin bölüşülməsi gələcəkdə yarana biləcək hər hansı fors-major vəziyyətlərdə hər iki dövlətin vətəndaşlarının həyatının qorunmasına həlledici töhfə verəcək.

Müzakirələrdə diqqət mərkəzində olan digər mühüm istiqamət konsulluq xidmətlərinin rəqəmsallaşdırılması və müvafiq sahədə hər iki ölkənin tətbiq etdiyi yeniliklər ətrafında aparılan fikir mübadiləsidir. Rəqəmsal diplomatiya müasir idarəçiliyin və dövlət institutlarının çevikliyinin göstəricisidir. Azərbaycan Respublikası dövlət xidmətlərinin rəqəmsallaşdırılması, elektron viza sistemlərinin tətbiqi və vətəndaşlara məsafədən göstərilən konsulluq xidmətlərinin keyfiyyətinin yüksəldilməsi sahəsində qabaqcıl təcrübədə sayılır. Tailand Krallığının da rəqəmsal konsulluq infrastrukturu sahəsində təcrübəsi mövcuddur. İki dövlət arasında rəqəmsal platformaların inteqrasiyası və texnoloji həllərin mübadiləsi konsulluq xidmətlərinin göstərilməsi müddətini qısaldır, bürokratik maneələri aradan qaldırır və təhlükəsizlik nəzarətini gücləndirir.

*

Konsulluq münasibətlərinin dərinləşməsi Azərbaycanın milli diplomatiyasının qarşısında duran mühüm strateji vəzifələrin icrasına xidmət edir. Dövlətin xarici siyasətində tərəfdaşların çoxalması və coğrafiyanın genişlənməsi həm kəmiyyət, həm də keyfiyyət göstəricisidir. Tailand Krallığı Cənub–Şərqi Asiya Millətləri Assosiasiyasının (ASEAN) aparıcı və nüfuzlu üzvlərindən hesab edilir. Azərbaycanın ASEAN regionuna nüfuz etməsi, bu təşkilat çərçivəsində mövqeyini gücləndirməsi və regional dövlətlərlə ikitərəfli əlaqələri dərinləşdirməsi rəsmi Bakının qlobal xarici siyasət prioritetlərinə tam uyğundur. Tailandla qurulan diplomatik və konsulluq təmasları Azərbaycanın Cənub–Şərqi Asiyada etibarlı tərəfdaş kimi qəbul olunmasını sürətləndirir.

Azərbaycan–Tailand əlaqələri beynəlxalq çoxtərəfli platformalarda nümayiş etdirilən fəal əməkdaşlıqla daha da möhkəmlənir. Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) və BMT-nin Asiya və Sakit Okean üzrə Komissiyası (UNESCAP) kimi mühüm strukturlarda hər iki ölkənin fəal iştirakı siyasi tərəfdaşlığın çoxtərəfli ölçüsüdür. Rəsmi Bakının UNESCAP çərçivəsindəki rolu və Tailandın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdə iştirakı regional inteqrasiyanın möhkəmlənməsinə xidmət edir. Həmin diplomatik platformalar dövlətlərin qlobal idarəçilikdə ortaq maraqlardan çıxış etməsinə imkan yaradır. Tailandın Azərbaycanın ərazi bütövlüyü və suverenliyi məsələsində nümayiş etdirdiyi beynəlxalq hüquqa sadiq mövqe iki ölkə arasındakı qarşılıqlı etimadın əsaslarından sayılır.

İyunun 11-də Bakıda keçirilən ilk konsulluq məsləhətləşmələri Azərbaycan–Tailand münasibətlərində yeni tarixi mərhələnin başlanğıcı hesab olunur. Bu təmaslar iki ölkə arasında diplomatik əlaqələrin yalnız siyasi bəyanatlar səviyyəsində qalmadığını, eyni zamanda, vətəndaşların maraqlarına xidmət edən, dövlət təhlükəsizliyini təmin edən praktiki layihələrlə zənginləşdiyini təsdiqləyir.

"Milli diplomatiya: tərəfdaşlar çoxalır, coğrafiya genişlənir" konseptinin uğurlu tətbiqi sayəsində Azərbaycan qlobal miqyasda tərəfdaş imicini möhkəmləndirir. Tailand Krallığı ilə qurulan sistemli əməkdaşlıq gələcəkdə hər iki dövlətin regional və qlobal səviyyədə ortaq siyasi maraqlarının təmin olunmasına mühüm töhfələr verəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Milli Məclis: Ulu öndərin Qurtuluş missiyası dövlətçiliyimizi qoruyub saxladı

**Ötən gün Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirildi. İclası açıq elan edən Sədr Sahibə Qafarova qarşıdan gələn 15 İyun Milli Qurtuluş Gününün Azərbaycanın müasir tarixindəki müstəsna rolundan bəhs etdi. Parlament sədri 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı sayəsində tarixin gedişatının dəyişdiyini və müstəqil dövlətçiliyin qorunub saxlanıldığını diqqətə çatdırdı.**




S.Qafarova dahi şəxsiyyətin əsasını qoyduğu azərbaycançılıq və dövlətçilik ideyalarının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla və ardıcıl şəkildə inkişaf etdirildiyini dilə gətirərək əlamətdar bayram münasibətilə Milli Məclis adından ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktublarının ünvanlanması təklifini irəli sürdü. Təklif deputatlar tərəfindən məmnunluqla qarşılandı.

*

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini plenar iclasa təqdim etdi. Komitə sədri bildirdi ki, ötən ilin maliyyə sənədi gəlirlərin həm proqnoza, həm də əvvəlki ilə nisbətən artması ilə xarakterizə olunur: “2025-ci il üzrə dövlət büdcəsinin gəlirləri 39,2 milyard manat olmaqla, proqnoza qarşı 2,2 faiz, 2024-cü illə müqayisədə isə 5,4 faiz çox icra edilib. Ötən il sosialyönümlü xərclər büdcə məxaricində 40 faizə kimi yüksək paya malik olub. Həmçinin ötən il icra edilmiş dövlət büdcəsinin çox mühüm xüsusiyyətlərindən biri də qeyri-neft sektorundan daxilolmaların proqnoza nisbətən 1,6 faiz, 2024-cü ilə nisbətən 3,9 faiz artmasıdır. 2025-ci ilin büdcə gəlirlərində qeyri-neft daxilolmalarının payı 52 faizə yüksəlib”.

Qanun layihəsi ilə bağlı çıxış edən maliyyə naziri Sahil Babayev 2025-ci ilin dövlət büdcəsinin xərclərinin müvafiq istiqamətləri üzrə bəzi statik rəqəmləri diqqətə çatdırdı. Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün qeyd edilən dövrdə 4,5 milyard manat vəsait ayrılıb. Nazir, həmçinin bildirdi ki, ayrılan vəsaitin 4 milyard manatı infrastruktur təyinatlı layihələrin, 440 milyon manatı sosial təyinatlı layihələrin, 10 milyon manatı müdafiə və hüquq mühafizə təyinatlı layihələrin maliyyələşməsinə, 75 mln. manatı isə ərazilərin minalardan təmizlənməsinə yönəldilib”.

Maliyyə naziri qeyd etdi ki, ötən il beynəlxalq və regional təşkilatlar, maliyyə institutları ilə əməkdaşlıq, xaricdəki diplomatik nümayəndəlik və konsulluqların fəaliyyəti, beynəlxalq və ölkə səviyyəli tədbirlər və xarici yardımlar üçün 655 milyon manat sərf edilib: “Hesabat ilində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 504 molyon manat vəsait sərf edilib ki, bu da 2024-cü illə müqayisədə 18,5 milyon manat və ya 3,8 faiz çoxdur”.

*

Layihənin müzakirəsi zamanı çıxış edən millət vəkili Tahir Mirkişili qeyd etdi ki, dövlət büdcəsinin icrası ilə bağlı hesabata Hesablama Palatasının təqdim etdiyi rəyin təhlili bir sıra maraqlı məqamları üzə çıxarır. Deputatın fikrincə, iqtisadi siyasətdə yüksək artım tempi heç də hər zaman inkişaf göstəricisi sayılmır. Eyni zamanda, aşağı artım tempi də hər zaman zəif inkişaf demək deyildir: “Təqdim edlmiş sənədlərdə keçən il ÜDM-in artım tempinin 1.4 faiz, qeyri-neft-qaz ÜDM-in artım tempinin isə 2.7 faiz təşkil etdiyi göstərilir. Analoji göstəricilər 2024-cü ildə 4.1 və 6.2 təşkil edib. ÜDM-in aşağı artım tempi ilə də daha keyfiyyətli inkişafa nail olmaq mümkündür, burda əsas məsələ artımın sürəti deyil, onun mənbəyi və keyfiyyətidir. Xüsusilə qeyri-neft-qaz sektorunda formalaşan ÜDM-in artım tempinin dalğalı olması bu məsələnin daha dərindən təhlilinə və onların səbəblərinin neytrallaşmasına diqqət yetirilməsinə ehtiyac yaradır. Çünki dalğalanmalar investisiyalara, məşğulluğa, dövlət büdcəsinə xüsusi təsir edir”.

Çıxışlarından və aparılan müzakirələrdən sonra “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsi Milli Məclis tərəfindən qəbul edildi. “Gəmilərdə zərərli çirklənmə əleyhinə sistemlərə nəzarət haqqında beynəlxalq Konvensiya"ya qoşulmaq barədə qanun layihəsi də vahid oxunuşdan keçdi. Konvensiya 2001-ci il oktyabrın 5-də Böyük Britaniyanın paytaxtı Londonda imzalanıb. Qəbul edilən “Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin təsis edilməsi haqqında” qanun layihəsinə görə, Milli Məclis tərəfindən Azərbaycanın Portuqaliyada səfirliyinin təsis edilməsi təsdiqləndi.

*

"Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" qanuna dəyişiklik layihəsi parlamentin növbədənkənar sessiyasının iclasında müzakirəyə çıxarıldı. Qanun layihəsi Şuşa şəhərində abidələrin qorunması ilə bağlı bəndin dəqiqləşdirilməsi ilə əlaqədar Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" müvafiq qanunvericiliyə uyğunlaşdırılması məqsədilə hazırlanıb. Şuşada abidələrin razılaşdırılmadan başqa yerə köçürülməsinin qadağan olunmasını müəyyən edən layihə bir oxunuşda qəbul edildi.

İnzibati Xətalar Məcəlləsinə edilən çoxsaylı dəyişikliklərə əsasən, narkoloji xəstələrin işləməsinə icazə verilməyən sahələrdə onlarla əmək müqaviləsi bağlayan və ya uzadan vəzifəli şəxslər 3.000 manat, tibbi yoxlama arayışı olmadan işə qəbula görə isə 1.000 manat cərimələnəcək. Digər dəyişikliklərlə isə kolların kəsilməsi barədə təhrif olunmuş məlumat verənlər 500 manatdan 5.000 manatadək, maliyyə icarəsi fəaliyyətinə dair hesabatları Mərkəzi Banka təqdim etməyən subyektlər isə (banklar və BKT-lər istisna olmaqla) 1.000 manatdan 5.000 manatadək cərimə ediləcəklər. Qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edildi.

Sonda İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda edilmiş dəyişikliklər layihəsi müzakirəyə çıxarıldı. Layihə ətrafında aparılan müzakirələrdə çıxış edən deputat Kamal Cəfərov rəqəmsal suverenliyin gücləndirilməsi istiqamətində islahatların daha da genişləndirməyin zəruriliyini diqqətə çatdırdı: “Hesab edirəm ki, sosial şəbəkələrdə məzmun yaradanlarla da bağlı islahatlar həyata keçirilməlidir. Ona görə bununla bağlı konseptual təklifim var. Çin təcrübəsinə əsasən, sosial şəbəkələrdə tibb, hüquq, maliyyə və ya təhsil sahəsində çıxış edənlərin rəsmi diplomu və ya lisenziyası olmalıdır. Bəzi hallarda heç bir təhsili və ya lisenziyası olmayan blogerlər sosial şəbəkələrdə cəmiyyəti çaşdıran kütləvi “hüquqi” və ya “psixoloji məsləhətlər” verirlər. Gənc ailələri manipulyasiya edərək onlara boşanmağa inandırırlar, onlar üçün əlçatan olmayan saxta xoşbəxt həyat modeli yaradırlar, hamıya eyni pəhriz proqramları təklif edirlər. Maliyyə savadı olmayan "ekspertlər" məsuliyyətsiz tövsiyələr verirlər və bu cür əsası olmayan çıxışlar isə fiziki və psixoloji sağlamlığa ciddi zərər verir, geri dönüşü olmayan hüquqi nəticələrə gətirib çıxara bilir”.

Edilən digər çıxışlardan sonra müvafiq qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bununla da Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

# Avropa İttifaqında mövqe mübarizəsi

## *Ukrayna məsələsi niyə mübahisəyə çevrilib?*



**Avropa son aylarda Ukraynanın sürətləndirilmiş üzvlüyü ətrafında gedən müzakirələrə daha dərindən baxdıqda aydın olur ki, Avropa siyasi elitası Avropa İttifaqının (Aİ) gələcək mahiyyəti üzərində mübahisə aparır.**

Maraqlıdır ki, Brüssel Ukraynanın Avropa ailəsinə daha sürətli inteqrasiyasını strateji zərurət kimi təqdim etdiyi halda, Berlin, Paris və Haaqa kimi əsas paytaxtlar prosesə daha ehtiyatlı yanaşırlar. Bunlar isə Aİ-nin daxilində yeni geosiyasi xəttin formalaşdığını göstərir. Soyuq müharibənin başa çatmasından sonra qurumun genişlənmə siyasəti, ilk növbədə, geosiyasi deyil, normativ transformasiya layihəsi kimi təqdim olunurdu. Brüsselin əsas məntiqi belə idi: Aİ-yə üzv olmaq istəyən dövlətlər əvvəlcə öz siyasi, hüquqi və iqtisadi sistemlərini Avropa standartlarına uyğunlaşdırmalı, yalnız bundan sonra üzvlük əldə etməlidirlər.

Bu yanaşmanın hüquqi əsası 1993-cü ildə Danimarkanın paytaxtı Kopenhagendə keçirilən Avropa Şurasının sammitində qəbul edilən və sonradan “Kopenhagen meyarları” adlandırılan prinsiplər oldu. Həmin meyarlara görə, namizəd ölkə sabit demokratik institutlara malik olmalı, insan hüquqlarını və azlıqların hüquqlarını qorumalı, işlək bazar iqtisadiyyatı qurmalı və Aİ-nin qanunvericiliyini tətbiq etməyi bacarmalı idi. Məsələn, Polşa, Macarıstan, Çexiya, Slovakiya və Baltik ölkələri 1990-cı illərdə üzvlük perspektivi əldə etsələr də, onların Aİ-yə qəbulu dərhal baş vermədi. Bu ölkələr, təxminən, on il ərzində minlərlə qanun və normativ akt qəbul etdilər, məhkəmə sistemlərini yenidən formalaşdırdılar, iqtisadiyyatlarını liberallaşdırdılar və dövlət idarəçiliyini Avropa standartlarına uyğunlaşdırdılar. Nəticədə onlar yalnız 2004-cü ildə Aİ-yə qəbul olundular.

Eyni yanaşma Rumıniya və Bolqarıstana da tətbiq edildi. Onlar Şərqi Avropanın digər dövlətləri ilə birlikdə danışıqlara başlasalar da, korrupsiya və məhkəmə sistemindəki problemlər səbəbindən onların üzvlüyü 2007-ci ilə qədər təxirə salındı. Hətta üzv olduqdan sonra belə Brüssel həmin ölkələr üzərində xüsusi monitorinq mexanizmləri saxladı. 2013-cü ildə Xorvatiyanın üzvlüyü də eyni məntiq üzrə həyata keçirildi. Məhz buna görə uzun illər Aİ beynəlxalq münasibətlər nəzəriyyəsində "normativ güc" kimi xarakterizə edilirdi. Avropa dövlətləri qaydalar, standartlar və institusional transformasiya yolu ilə təsir göstərirdilər. Üzvlük perspektivi isə bu transformasiyanın əsas aləti hesab olunurdu.

Lakin Ukrayna məsələsi bu ənənəvi yanaşmaya ciddi düzəlişlər gətirib. Əgər əvvəllər əsas sual "ölkə üzvlüyə hazırdırmı?" idisə, indi Brüsseldə getdikcə daha çox "Avropa həmin ölkəni öz təhlükəsizlik sisteminə inteqrasiya etməyə nə qədər ehtiyac duyur?" sualı müzakirə olunur. Başqa sözlə, genişlənmə ilk dəfə normativ layihədən geosiyasi strategiyaya çevrilmək üzrədir. Brüssel hesab edir ki, Ukraynanın Avropa strukturlarına bağlanması Rusiyanın təsir imkanlarını məhdudlaşdırmaq və qitənin təhlükəsizlik arxitekturasını yenidən qurmaq üçün vacibdir. Aİ-də belə bir yanaşma formalaşıb ki, əgər Ukrayna uzunmüddətli perspektivdə siyasi, iqtisadi və institusional baxımdan Avropa məkanına inteqrasiya olunarsa, Moskvanın bu ölkə üzərində təsir imkanları əhəmiyyətli dərəcədə azalacaq. Məhz burada fikir ayrılığı yaranır.

### Almaniya və Fransa niyə ehtiyat edir?

Bir çox müşahidəçilər Almaniya və Fransanın Ukraynanın üzvlüyünə qarşı çıxdığını düşünür. Əslində isə vəziyyət daha mürəkkəbdir. Berlin və Paris Ukraynanın Avropa perspektivini dəstəkləyirlər. Ancaq onlar İttifaqın gələcəkdə necə işləyəcəyindən narahatdırlar. Bu gün Aİ 27 üzv dövlətdən ibarət mürəkkəb siyasi mexanizmdir. Yeni üzvlərin, xüsusilə də böyük əhali və geniş kənd təsərrüfatı sektoruna malik Ukraynanın qoşulması büdcə bölgüsü, kənd təsərrüfatı subsidiyaları, qərar qəbuletmə mexanizmləri və institusional balans üzərində ciddi təsirlər yarada bilər. Çünki Ukrayna nə Monteneqrodur, nə də Xorvatiya. Söhbət Avropada ən böyük əraziyə malik dövlətdən, təxminən, 40 milyonluq əhaliyə sahib və müharibə şəraitində olan bir dövlətdən gedir. Bu isə Aİ-nin mövcud institutları, büdcə mexanizmləri və qərar qəbuletmə sistemi üçün ciddi sınaq yarada bilər.

Digər tərəfdən, Ukraynanın üzvlüyü Aİ-nin büdcə balansını da dəyişdirə bilər. Hazırda Aİ daxilində Almaniya, Fransa və Niderland əsas donor dövlətlərdir. Ukraynanın üzvlüyündən sonra Aİ-nin ən böyük maliyyə dəstəyi alan ölkələrindən birinə çevrilməsi ehtimalı yüksəkdir. Berlin və Parisi düşündürən digər vacib məqam isə qərar qəbuletmə mexanizmidir. Hazırda Aİ-də xarici siyasət, təhlükəsizlik və bir sıra strateji məsələlər üzrə konsensus əldə etmək çətinləşir. Yeni üzvlərin əlavə olunması bu prosesi daha mürəkkəb edə bilər. Buna görə Fransa uzun müddətdir genişlənmə ilə paralel olaraq Aİ-də institusional islahatların aparılmasını, xüsusilə bəzi sahələrdə yekdillik prinsipinin məhdudlaşdırılmasını müdafiə edir.



Burada daha bir siyasi məqam var. Almaniya və Fransa yaxşı anlayırlar ki, Ukraynanın üzvlüyü təkcə bir dövlətin Aİ-yə qoşulması demək deyil. Həmin addım, eyni zamanda, ittifaqın geosiyasi ağırlıq mərkəzini şərqə doğru dəyişə bilər. Polşa, Baltik ölkələri və gələcəkdə Ukraynanın daxil olduğu yeni siyasi blok təhlükəsizlik məsələlərində daha sərt və Rusiya əleyhinə mövqe formalaşdıra bilər.

Son illər Avrokomissiya özünü daha çox geosiyasi aktor kimi təqdim etməyə çalışır. Ursula fon der Lyayen dövründə Brüssel enerji, müdafiə, sanksiyalar və xarici siyasət sahələrində daha fəal rol almağa başlayıb. Lakin Aİ-də legitim siyasi gücün əsas mənbəyi hələ də üzv dövlətlərdir. Bu səbəbdən Ukrayna müzakirələri Brüssellə milli paytaxtlar arasında səlahiyyət bölgüsünün yeni mərhələsini nümayiş etdirir.

### Qərbi Balkanlar yenidən gündəmdə

Bu prosesin ən maraqlı nəticələrindən biri uzun illər gözləmə otağında saxlanılan Qərbi Balkan ölkələrinin yenidən diqqət mərkəzinə çıxmasıdır. Xüsusilə Monteneqro və Albaniya Qərbi Balkanlarda ən irəlidə olan namizəd ölkələr hesab edilirlər. Monteneqro hələ 2012-ci ildə üzvlük danışıqlarına başlayıb və hazırda danışıq fəsillərinin böyük hissəsini açıb, onların əhəmiyyətli qismini isə artıq bağlamağa nail olub. Bu ölkə uzun müddətdir ki, "ən hazır namizəd" kimi qiymətləndirilir. Albaniya da son illər məhkəmə sistemində aparılan islahatlar, korrupsiyaya qarşı mübarizə tədbirləri və dövlət idarəçiliyinin modernləşdirilməsi sahəsində mühüm addımlar ataraq üzvlük prosesində ciddi irəliləyiş əldə edib.

Bu ölkələrdə haqlı olaraq belə bir sual yaranır: Əgər geosiyasi səbəblər üzvlük meyarlarını dəyişirsə, onda uzun illər aparılan islahatların mənası nə olub? Məhz buna görə Almaniya və bəzi dövlətlər Monteneqronun növbəti genişlənmə dalğasının simvoluna çevrilməsini istəyirlər.

Müzakirələrin mərkəzində Ukrayna dayansa da, əslində, Avropa liderlərini düşündürən başqa məsələdir. Bir tərəfdə təhlükəsizlik təhdidlərinə sürətli cavab verən, daha çevik və geosiyasi Avropa modeli, digər tərəfdə isə hüquqi prosedurlara, institusional sabitliyə və mərhələli inteqrasiyaya üstünlük verən klassik Avropa modeli mövcuddur. Bu iki yanaşma arasında tarazlığın necə qurulacağı yaxın illərdə Avropa siyasətinin əsas mövzularından birinə çevriləcək.

Sonda qeyd edək ki, bu gün Brüsseldə veriləcək qərarlar yalnız Ukraynanın deyil, həm də uzun illərdir Avropa qapısında gözləyən Balkan ölkələrinin gələcəyini müəyyənləşdirəcək. Əslində Avropa İttifaqı qarşısında duran əsas məsələ geosiyasi zərurət ilə institusional ədalət arasında balansı necə qorumaqdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# “Çiçəklənən Ermənistan”ın çiçəyi soldu

## *Partiyanın parlamentdən kənarda qalması ilə Paşinyan həlledici üstünlük qazandı*

**Ermənistanda parlament seçkiləri marafonu başa çatsa da, siyasi mübarizə dayanmayıb. Hakim komanda nəticələri legitim xalq iradəsinin ifadəsi kimi təqdim etdiyi halda, müxalifət qüvvələri seçki prosesində yol verilmiş pozuntularla bağlı iddialarını davam etdirirlər. Bu isə ölkədə seçkilərdən sonrakı dövrün də kifayət qədər gərgin keçəcəyindən xəbər verir. Seçkilərin nəticələri ətrafında yaranan polemika, müxtəlif siyasi qüvvələrin fərqli mövqeləri və sonrakı proseslərlə bağlı səsləndirilən bəyanatlar göstərir ki, ölkədə siyasi gündəm hələ uzun müddət bu mövzu ətrafında formalaşacaq.**






Seçkilərin nəticəsinə etiraz edənlərin önündə özünü iş adamı və xeyriyyəçi adlandıran, əslində isə tipik oliqarx olan Samvel Karapetyan və onun “Güclü Ermənistan” seçki bloku dayanır. Blok seçkilərin nəticələrinin etibarsız sayılması tələbi ilə Mərkəzi Seçki Komissiyasına (MSK) müraciət edib. “Sputnik Ermənistan”ın xəbərinə görə, MSK-ya müraciəti blokun nümayəndəsi Aram Vardevanyan təqdim edib. O, jurnalistlərə açıqlamasında bildirib ki, blokun ehtimal olunan pozuntularla bağlı çoxsaylı sübutları var. “Daim ən şəffaf və obyektiv seçkiləri məhz özünün təşkil etdiyini bəyan edən hakimiyyət praktikada bu iddialarını təsdiqləyə bilmədi. Hətta ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun qiymətləndirmələri də ciddi geriləmədən xəbər verir”, – deyə Vardevanyan bildirib. Onun sözlərinə görə, partiya MSK-ya yalnız rəsmi müraciət deyil, həm də səsvermə günü və seçkiöncəsi dövrdə baş verdiyini hesab etdiyi genişmiqyaslı pozuntular barədə materiallar təqdim edib.

Dünən Samvel Karapetyan özü də məhkəmə iclasından əvvəl jurnalistlərə açıqlamasında seçkilərdən danışıb. Hakimiyyəti seçki prosesini saxtalaşdırmaqda ittiham edən oliqarx seçkilərin uğursuz keçdiyini və nəticələrin xalqın real iradəsini əks etdirmədiyini iddia edib. Müxalif siyasətçi qeyd edib ki, partiya artıq MSK-ya müraciət edib və növbəti mərhələdə Konstitusiya Məhkəməsinə üz tutacaq. Onların əsas tələbi seçkilərin ikinci turunun keçirilməsidir. Karapetyan vurğulayıb ki, məqsədləri parlamentdə daha çox mandat əldə etmək deyil, Nikol Paşinyanın hakimiyyətdən uzaqlaşdırılmasıdır.

Bu məqsədə hansı yollarla nail olunacağı ilə bağlı suala cavabında o, həm parlament mübarizəsini, həm də küçə etirazlarını mümkün variantlar kimi qiymətləndirib. Karapetyan hesab edir ki, seçkiqabağı dövrdə hakimiyyətin siyasətindən narazı qalan bütün qüvvələr bu prosesdə iştirak edə bilər. O, həmçinin bəyan edib ki, əgər hakimiyyət öz qələbəsinə həqiqətən əmindirsə, seçkilərin ikinci turunun keçirilməsi təklifini qəbul etməlidir. Karapetyanın fikrincə, qeyri-legitim hakimiyyət ölkənin gələcəyi üçün ciddi risklər yaradır.

Karapetyan bildirib ki, rəhbərlik etdiyi siyasi qüvvə bütün addımlarını qanun çərçivəsində atmağa (?) çalışır və məqsəd Paşinyanın hakimiyyətdən məhz hüquqi yollarla uzaqlaşdırılmasıdır. O, həmçinin Qaqik Sarukyan və Robert Koçaryanla seçkilərdən sonra heç bir görüş keçirmədiyini qeyd edib. Müxalif siyasətçi sonda seçkilərin nəticələrinə yenidən edərək bildirib ki, nə özü, nə də Paşinyan bu seçkilərin qalibi sayıla bilər: “Paşinyan qalib gəlməyib. Bunu onlar da bilirlər, biz də bilirik, dünya da görür. Ermənistana legitim hakimiyyət lazımdır. Biz qalib gəlmədik, Paşinyan da qalib gəlmədi. Məğlub olan erməni xalqı oldu”.

*

Seçkilərlə bağlı digər maraqlı məqam oliqarx Qaqik Sarukyanın “Çiçəklənən Ermənistan” partiyası ilə bağlı yaşanır. Açıqlanan ilkin məlumatda bu partiyanın 4 faiz (58 368 səs) səs topladığı bildirilmişdi. Beləliklə, partiya parlamentə düşmək üçün tələb olunan baryeri keçmiş sayılırdı. MSK iyunun 11-də axşam növbədənkənar iclas keçirərək 2 seçki məntəqəsinin nəticələrini etibarsız hesab edib və bununla bağlı materialları hüquq-mühafizə orqanlarına göndərib. Söhbət Sünik vilayətinin Aqarak şəhərində və İrəvanın Nubaraşen rayonundakı seçki məntəqələrindən gedir. Bu məntəqələrdə səslərin etibarsız hesab edilməsindən sonra partiyanın 213 səsi ümumi nəticələrdən çıxarılıb. Nəticədə, “Çiçəklənən Ermənistan” 3,996 faiz səs toplamış olub və parlamentə düşmək üçün 0,004 faiz bəndə çatmayıb.

“Çiçəklənən Ermənistan” MSK-nın məlum qərarını sərt tənqid edib. Partiya rəhbərliyi hesab edir ki, bu addım onların parlamentə keçməsinin qarşısını almaq məqsədi daşıyıb və seçkilərin legitimliyinə ciddi zərbə vurub. Partiyanın mətbuat katibi İveta Tonoyan bildirib ki, MSK-nın qərarı “səslərin açıq-aşkar oğurlanması”dır və seçki prosesinə birbaşa müdaxilə kimi qiymətləndirilməlidir. Onun sözlərinə görə, nəticələri ləğv edilən məntəqələr məhz “Çiçəklənən Ermənistan”ın parlamentə düşməsi üçün vacib səslər qazandığı seçki məntəqələri olub.

Tonoyan iddia edib ki, MSK sədri Vaaqn Ovakimyanın rəhbərliyi altında qəbul edilən qərar siyasi xarakter daşıyır və hakimiyyətin maraqlarına xidmət edir. O, bu addımın seçicilərin iradəsinə təsir göstərdiyini və seçkilərin yekun nəticələrinin legitimliyini şübhə altına aldığını bildirib. Partiya nümayəndələrinin fikrincə, MSK-nın açıqladığı nəticələr və qəbul etdiyi qərarlar vətəndaşların real iradəsini tam əks etdirmir və onların hüquqi baxımdan hərtərəfli araşdırılmasına ehtiyac var. Bu səbəbdən “Çiçəklənən Ermənistan” seçkilərin nəticələrinin məhkəmə qaydasında mübahisələndirilməsi variantını da nəzərdən keçirir. Partiya səslərin yenidən hesablanmasında israr edir və bunun nəticəsində parlamentdə təmsilçilik əldə edə biləcəyinə ümid etdiyini açıqlayıb. Siyasi qüvvə dünən MSK-nın binası qarşısında uzun sürən etiraz aksiyası keçirib.

Partiyadan deputatlığa namizəd Elinar Vardanyan isə qeyd edib ki, MSK 2 seçki məntəqəsinin nəticələrini ləğv etməzdən əvvəl bunun ümumi seçki nəticələrinə necə təsir göstərəcəyini qiymətləndirməli idi. Onun sözlərinə görə, belə bir qiymətləndirmə aparılmayıb. Üstəlik, qərar seçkilərin yekun nəticələri rəsmən elan olunmamışdan əvvəl qəbul edilib. Vardanyan bildirib ki, Seçki Məcəlləsinin 95-ci maddəsi belə hallarda təkrar səsvermənin keçirilməsini nəzərdə tutur. Çünki həmin məntəqələrin nəticələri seçkilərin yekun mənzərəsinə birbaşa təsir göstərə bilər.

İki məntəqədə nəticələrin ləğv edilməsindən sonra Ermənistanda aparılan təhlillər belə bir nəticə ortaya çıxarıb ki, “Çiçəklənən Ermənistan”ın parlamentdə təmsil olunmaması hakim “Mülki müqavilə” partiyasına konstitusiya çoxluğu qoruyub saxlamaq imkanı verir. Hesab edilir ki, belə çoxluq hakimiyyət üçün xüsusilə Konstitusiyaya dəyişikliklərin edilməsi baxımından əhəmiyyət daşıyır. Ermənistan Konstitusiyasının dəyişdirilməsi məsələsi isə Azərbaycanla sülh sazişinin imzalanması ətrafında aparılan müzakirələrdə əsas mövzulardan biridir.

Beləliklə, Ermənistanda seçkilər başa çatsa da, girişdə qeyd etdiyimiz kimi, siyasi qarşıdurma yeni mərhələyə qədəm qoyub. Müxalif qüvvələr nəticələri qəbul etmədiklərini bildirir, seçki pozuntuları ilə bağlı iddialar irəli sürür, hüquqi prosedurlara və mümkün küçə aksiyalarına hazırlaşdıqlarını bəyan edirlər. Xüsusilə “Güclü Ermənistan” bloku ilə “Çiçəklənən Ermənistan” partiyasının sərgilədiyi mövqe göstərir ki, seçkilərin legitimliyi ətrafında mübahisələr yaxın vaxtlarda da davam edəcək. Hakimiyyət nəticələrin legitimliyində israr etsə də, müxalifətin etirazları və məhkəmə müraciətləri Ermənistanın daxili siyasi gündəmini müəyyən edən əsas amillərdən biri olaraq qalacaq. Bu isə ölkədə siyasi sabitliklə bağlı müzakirələrin hələ uzun müddət səngiməyəcəyini göstərir.

*Səxavət HƏMİD*
*XQ*

# Sülhün dönməz prosesə çevrilməsi: Azərbaycanın şərti və ...rus hərbçiləri

## *Nikol Paşinyan tələsməməli, erməni cəmiyyəti isə iradə nümayiş etdirməlidir*

**Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla dəmir yolu, avtomobil yolları və elektrik xətlərinin tam şəkildə reallaşacağına əmindir: “Boru kəmərləri və resursların mərkəzləşdirilməsi kimi bəzi layihələrdə tərəfdaş ölkələrin daha aktiv rol almaları lazım gəlir. Təsəvvür edin, biz Azərbaycana gedib-gəlirik, azərbaycanlılar Ermənistan ərazisindən keçib hərəkət edir, qatarlar işləyir. Bu, artıq sülhdür”.**



Necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun “Quran” olsa. Əlbəttə, bu atalar sözümüzü yada salıb Nikolun fikirlərinin səmimiyyətdən uzaqlığını vurğulamaq niyyətində deyilik. İnsafən, təkcə Paşinyan yox, bütövlükdə onun rəhbərlik etdiyi komanda son zamanlar Azərbaycanla sülh mövzusunda həssasdır. Hiss olunur ki, bu komandanın üzvləri barış mühiti barədə təbliğat aparmağa ciddi yanaşırlar. Amma...

Paşinyan 7 iyun parlament seçkiləri bitər-bitməz, daha doğrusu, onun rəhbərlik etdiyi “Mülki müqavilə” partiyasının prosesin qalibinə çevrilməsi məlum olan kimi bildirdi ki, Ermənistan üçün prioritet Azərbaycanla sülhün institusionallaşdırılması və Türkiyə ilə normallaşma xəttidir. “Əmması” barış yolunda cəsarət və qətiyyət çatışmazlığıdır. Özü də bu, təkcə erməni iqtidarına yox, ümumən hay cəmiyyətinə şamil olunacaq reallıqdır və bu barədə söhbətimizin ikinci hissəsində söz açacağıq.

*

Daha bir “əmma” Ermənistandakı rus hərbi birləşmələridir. Hər halda, Nikolun pozitiv bəyanatları fonunda onlarla əlaqəli məlumatın yayılmasını diqqətdən kənar qoya bilmərik. Məlumatda bildirilir ki, rus hərbçiləri Zəngəzur dəhlizinin keçəcəyi kəndi nəzarətə götürüblər. Belə olan halda, Paşinyanın barəsində söz açdığı sülh formulu şübhə altına düşür. Bir halda ki, Baş nazirin düşüncəsinə görə dəmir yolu, avtomobil yolları və elektrik xətlərinin tam şəkildə reallaşması sülhdür, bunun baş verməməsi barış mühitinə ziddir.

Nəzərə alaq ki, Azərbaycan–Ermənistan sülhünü xarakterizə edən ən mühüm sənəd ötən il avqustun 8-də hər iki ölkə liderinin Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə imzaladıqları Birgə Bəyannamədir. O Bəyannamə ki, məğzini Naxçıvana maneəsiz yol və bu yolun “Beynəlxalq Sülh və Rifah naminə Tramp yolu”, yaxud “Tramp marşrutu” və ya qısaca TRIPP məntiqi təşkil edir. Yəni barış mühiti regional kommunikasiyaların açılması kimi mühüm öhdəlik seqmentinə malikdir.

Qeyd edək ki, Azərbaycan TRIPP naminə üzərinə düşən bütün işləri, demək olar, tam yekunlaşdırıb. İndi növbə Ermənistanındır. Ermənistan öz ərazisindəki 40 kilometrdən bir qədər artıq olan məsafəni ümumi mənafelər naminə işlək hala gətirməlidir. Məsələnin reallaşması hansı səbəbdən gecikir, yaxud çətinə düşür, bu, Azərbaycanı bir o qədər maraqlandırmır. Ölkəmiz nəticəyə baxır. Nəticənin əldə olunmasının obyektiv amili kimi, görünür, rus hərbçilərinin timsalında subyektiv səbəbi də var. Erməni dövləti həmin səbəbi aradan qaldırmalıdır. Özü də tezliklə. Çünki Ermənistanın çox arzuladığı Qərbə açılım, dənizlərə çıxış Azərbaycan–Ermənistan sülhündən, Paşinyanın vurğuladığı tərzdə desək, sülhün institusionallaşdırılmasından asılıdır. Elementar sual da yaranır: Nə üçün Ermənistanın hansısa istiqamətindəki sərhədində kənar ölkənin hərbçiləri dayanmalı, keşik çəkməlidirlər? Sualımız ritorikdir və rus hərbçilərinin hansısa kəndi nəzarətə götürməsi şübhə yaradır. Belə bir məlumatın yayılması da həmçinin.

*

Digər tərəfdən, Paşinyan əvvəldə diqqətə çatdırdığımız iqtibasındakı fikirləri gündəmə gətirməklə, sanki, sülhün artıq tam təmin olunduğu mesajını verir. Əlbəttə, mesajı pozitiv qiymətləndirmək mümkündür. Ancaq Nikolun dediklərini, yaxşı halda, tələskənlik də saymaq olar. Axı bildirdik ki, o, sülhün institusionallaşdırılması istiqamətini prioritet seçdiyini vurğulayıb. Bunun üçün isə yalnız regional kommunikasiyaların açılması kifayət deyil. Sülh o zaman möhkəm xarakter alacaq ki, münaqişə məntiqini özündə ehtiva edən bütün məqamlar sıradan çıxsın.

Xatırladaq ki, Ermənistan Azərbaycana ərazi iddiası məntiqinə söykənmiş İstiqlaliyyət Bəyannaməsinin buxovundan qurtulmasıdır. Bunun üçün isə referendum keçirilməlidir. Ermənistanda parlament seçkilərinin nəticələri Paşinyanın rəhbərlik etdiyi hakim komandanı prosesi reallaşdırmaq, ümumən, konstitusion islahatlar keçirmək imkanından məhrum duruma salıb. O zaman sual yaranır: Sülh institusionallaşacaqmı, yaxud necə institusionallaşacaq? Doğrudur, hazırda Ermənistanda səslərin sayılmasının davam etdiyi, yekun nəticələrin iyunun 14-də açıqlanacağı bildirilir. Amma sayımdan sonra Nikolun “Mülki müqavilə” partiyasının parlamentdə lazımi səs çoxluğuna yiyələnəcəyi şübhə doğurur. Hətta qurumun mandat sayının azalma ehtimalı da var.



Sözümüz ondadır ki, Paşinyan məhz bunlara görə fikir bildirərkən tələsməməlidir. Çünki vurğuladıqlarımızı nəzərə alsaq, onun hazırkı təqdimatı manipulyasiya kimi qiymətləndirilə bilər. Təxminən belə: kommunikasiyalar açılırsa, bu, sülh deməkdir, müvafiq olaraq, Ermənistandan başqa heç nə gözlənilməməlidir. Halbuki, Azərbaycanın gözləntisi barış mühitinin fundamentallaşması üçün son dərəcə vacibdir. Ona görə ki, söhbət erməni xalqının sülh naminə iradə nümayişindən gedir.

Erməni xalqı və cəmiyyəti Ermənistan konstitusiyasının işğalçılığa və ərazi iddiasına söykənmiş preambulasına “yox” deməklə, səmimiyyət nümayiş etdirməlidir. Elə bir səmimiyyət ki, beynəlxalq aləmə mesaj olsun. Elə bir səmimiyyət ki, Paşinyandan sonrakı erməni liderləri nəyisə dəyişdirməyə cəhd göstərməsinlər. Dünya da görsün ki, Ermənistan adlı dövlətin mövcudiyyətindəki avantüra seqmenti aradan qalxıb. İstəyimiz həm də ondan ibarətdir ki, xaricdə heç bir qüvvə erməniləri Cənubi Qafqazda vəziyyəti gərginləşdirmək üçün potensial kütlə qismində təsəvvürə gətirməsin.

Sonda ümumiləşdirmə apararaq belə nəticəyə gələk ki, Azərbaycanın Ermənistan qarşısında qoyduğu şərt sülhün institusionallaşdırılmasına xidmət amalına söykənməklə, erməni xalqı və cəmiyyəti üçün də müsbət mahiyyətlidir. Yəni ermənilər dünyaya mesaj verməli və bəyan etməlidirlər ki, beynəlxalq aləmdə kimsə və ya kimlərsə onları fitnəkar obrazında görməsinlər. Əvvəldə haqqında söz açdığımız cəsarət və iradə bunun üçün lazımdır. Lakin 7 iyun parlament seçkilərinin nəticələri göstərdi ki, hay cəmiyyətində sülh mövzusuna vahid münasibət yoxdur. Revanşist və şovinistlərin parlamentdə əhəmiyyətli şəkildə təmsil olunmaları fikrimizin sübutudur.

*Ə.RÜSTƏMOV*
*XQ*

# WUF13-ün yekunları Çin mediasında


ЖЭНЬМИНЬ ЖИБАО ОНЛАЙН

Бакинская повестка безопасных и устойчивых городов: WUF13 – новая платформа сотрудничества Азербайджана и Китая

**Azərbaycanda keçirilmiş Dünya Şəhərsalma Forumunun XIII Sessiyası haqqında "Xalq qəzeti"nin baş redaktorunun birinci müavini, Azərbaycanın Əməkdar jurnalisti Hümbət Musayevin "Bakı təhlükəsiz və dayanıqlı şəhərlər gündəliyi: WUF13 – Azərbaycan və Çin əməkdaşlığının yeni platforması" sərlövhəli məqaləsi Çinin "Sinxua" agentliyinin və "Jenmin Jibao" qəzetinin rəsmi internet səhifələrində rus dilində yayımlanıb. Bu, Azərbaycanın qlobal şəhərsalma gündəliyində roluna, Bakıda keçirilmiş WUF13-ün beynəlxalq əhəmiyyətinə və Azərbaycan-Çin əməkdaşlığının yeni məzmununa nüfuzlu Çin mediaları tərəfindən göstərilən yüksək diqqətin ifadəsidir.**

Məqalədə WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun, təşkilatçılıq imkanlarının və davamlı şəhərsalma gündəliyinə töhfəsinin mühüm göstəricisi kimi qiymətləndirilir. Forumda təhlükəsiz, dayanıqlı, inklüziv və insan mərkəzli şəhərlərin qurulması məsələsinin qlobal müzakirənin mərkəzinə gətirildiyi xüsusi vurğulanır. Bu kontekstdə Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları əsasında həyata keçirdiyi bərpa-quruculuq işləri ölkənin müasir urbanizasiya yanaşmasının praktik nümunəsi kimi təqdim edilir. Forumun Qafqaz regionunda ilk dəfə keçirilməsi faktının özü Azərbaycanın coğrafi mövqeyini, sadəcə, Şərqlə Qərb arasında körpü kimi deyil, həm də qlobal şəhərsalma ideyalarının, davamlı inkişaf modellərinin və beynəlxalq əməkdaşlıq təşəbbüslərinin kəsişdiyi məkan kimi təqdim etməyə imkan yaradır.

Müəllif Azərbaycan-Çin xəttinə də xüsusi diqqət yetirir. Ulu öndər Heydər Əliyevin Azərbaycan-Çin münasibətlərinin təməlinin qoyulmasında tarixi rolu, Prezident İlham Əliyevin bu siyasəti yeni dövrün çağırışlarına uyğun uğurla davam etdirməsi, eləcə də Çin Xalq Respublikasının Sədri Si Cinpinlə formalaşmış yüksək etimad mühiti vurğulanır. Si Cinpinin WUF13-ə xüsusi nümayəndəsini göndərməsi, Çinin yüksəksəviyyəli nümayəndəsinin Prezident İlham Əliyevlə görüşməsi və forum çərçivəsində Şanxay mükafatının təqdimatı Çinin Bakı forumuna verdiyi mühüm əhəmiyyətin göstəricisi kimi dəyərləndirilir. Eyni zamanda, Çin təcrübəsi "ağıllı şəhər"lər, yaşıl urbanizasiya, rəqəmsal idarəetmə, dayanıqlı nəqliyyat və şəhər-kənd inteqrasiyası baxımından Azərbaycan üçün mühüm öyrənilə bilən təcrübə kimi göstərilir.

Ümumilikdə, məqalədə WUF13 Azərbaycanın beynəlxalq şəhərsalma gündəliyində fəal iştirakının, Bakının qlobal dialoq platforması kimi güclənməsinin və Azərbaycan-Çin əməkdaşlığının yeni istiqamətlər üzrə inkişaf potensialının ifadəsi kimi təqdim edilir. Bakı forumunun əsas mesajı ondan ibarətdir ki, gələcəyin şəhərləri yalnız texnologiya və infrastruktur üzərində qurulmamalı, şəhərlərin uğuru isə təkcə tikinti miqyası ilə deyil, insanların təhlükəsiz yaşayışı, iqlim risklərinə hazırlıq, sosial bərabərlik və şəhər mühitinin keyfiyyəti ilə ölçülməlidir. Onun əsas dayaqları təhlükəsizlik, sosial ədalət, iqlim dayanıqlılığı, ekoloji məsuliyyət və insan ləyaqətidir. Həmçinin mənzil artıq sadəcə olaraq sosial təminat məsələsi deyil, təhlükəsiz, inklüziv, dayanıqlı və insan mərkəzli şəhər modelinin əsas dayağıdır.

***XQ***

# Kremlin yeni taktiki kurs seçimi

*(əvvəli 1-ci səhifədə)*

Bu bəyanat fonunda Rusiyanın Gürcüstana münasibətində müşahidə olunan ritorik dəyişikliklər diqqətdən yayınmır. Uzun illər Moskvanın Cənubi Qafqaz siyasətinin əsas istiqamətlərindən biri Gürcüstanın ərazi bütövlüyünün pozulması nəticəsində formalaşmış status-kvonun qorunması, separatçı rejimlərin dəstəklənməsi və Tbilisinin Qərbə inteqrasiyasının məhdudlaşdırılması olub. Lakin son vaxtlar Rusiya Xarici İşlər Nazirliyinin nümayəndələrinin çıxışlarında fərqli ton hiss edilir. Gürcüstan artıq əvvəlki kimi tənqid hədəfi deyil, daha çox "suveren siyasət" yürüdən və Qərbin təzyiqlərinə müqavimət göstərən dövlət kimi təqdim olunur.

Bu isə mühüm bir sual doğurur: Moskva həqiqətənmi uzun illər əsaslandığı neoimperialist yanaşmadan uzaqlaşmağa başlayır, yoxsa bu dəyişiklik, sadəcə, yeni taktiki manevrdir? Bu sualın cavabı yalnız Rusiya–Gürcüstan münasibətlərini deyil, bütövlükdə, Cənubi Qafqazın gələcək siyasi mənzərəsini anlamaq baxımından da əhəmiyyətlidir.

Qeyd etmək lazımdır ki, Rusiyanın postsovet məkanında yürütdüyü siyasət uzun müddət "məhdud suverenlik" konsepsiyasına əsaslanıb. Moskva keçmiş sovet respublikalarını öz təsir dairəsinin ayrılmaz hissəsi hesab edir və onların xarici siyasət kursuna təsir göstərməyə çalışırdı. Gürcüstanla 2008-ci il müharibəsi, eləcə də Ukraynada 2014-cü ildə başlayan və 2022-ci ildə tammiqyaslı müharibəyə çevrilən proseslər bu siyasətin bariz nümunələridir.

Lakin Ukrayna müharibəsi Rusiyanın imkanlarını ciddi şəkildə məhdudlaşdırıb. Hərbi, iqtisadi və diplomatik resursların böyük hissəsinin bu istiqamətə yönəldilməsi Kremlin postsovet məkanındakı təsir imkanlarını zəiflədib. Eyni zamanda, Ermənistanın Moskvanın təhlükəsizlik çətirindən uzaqlaşaraq Qərblə əlaqələrini genişləndirməsi də Rusiyanın Cənubi Qafqazdakı mövqelərinə zərbə vurub.



Belə şəraitdə Gürcüstan Moskva üçün artıq əvvəlki kimi "cəzalandırılmalı qonşu" deyil, regionda qorunması vacib olan son təsir kanallarından biri kimi görünür.

*

Kremlin son bəyanatlarında Gürcüstanın xarici siyasət kursuna hörmət ifadə olunması və Tbilisinin "suveren seçim" etdiyinin vurğulanması bu geosiyasi reallığın nəticəsi kimi dəyərləndirilə bilər. M.Zaxarovanın son çıxışları bu dəyişimin simvolik göstəricilərindəndir. Əvvəllər Gürcüstanla bağlı açıqlamalarda tez-tez qabardılan separatçı bölgələr mövzusu bu dəfə demək olar ki, gündəmə gətirilməyib.

Diqqətçəkən məqamlardan biri də budur ki, bu ritorika Kremlin son illər önə çıxardığı "ənənəvi dəyərlər", "milli suverenlik" və "mədəni özünəməxsusluq" diskursu ilə üst-üstə düşür. Moskva Gürcüstanı geosiyasi rəqibdən daha çox, Qərbin təsirinə qarşı müqavimət göstərən potensial tərəfdaş kimi təqdim etməyə çalışır. Hazırkı mərhələdə Rusiya üçün Gürcüstanın tamamilə Qərb düşərgəsinə inteqrasiyasının qarşısını almaq və onu balanslaşdırılmış siyasət yürütməyə təşviq etmək daha real məqsəd təsiri bağışlayır.

Bununla belə, Moskva Gürcüstanın ərazi bütövlüyü ilə bağlı fundamental problemlər barədə susmağa üstünlük verir. Halbuki Gürcüstan üçün əsas təhlükəsizlik və suverenlik məsələsi Abxaziya və Cənubi Osetiya bölgəsinin statusu olaraq qalır. Rusiya rəsmilərinin son bəyanatlarında bu mövzunun kənarda saxlanılması təsadüfi deyil. Çünki məhz həmin məsələ Moskvanın region siyasətinin mahiyyətini və onun neoimperialist yanaşmadan nə dərəcədə uzaqlaşıb-uzaqlaşmadığını müəyyənləşdirən əsas göstəricidir.

Bu səbəbdən Kremlin ritorikasındakı yumşalmanı hələlik Cənubi Qafqaza yönəlik siyasətinin mahiyyətində dəyişiklik kimi qiymətləndirmək çətindir. Görünən odur ki, Moskva dəyişən geosiyasi şəraitə uyğun yeni taktiki kurs formalaşdırmağa çalışır. Əgər Rusiya həqiqətən də Gürcüstanın suverenliyinə və milli maraqlarına hörmət etdiyini nümayiş etdirmək istəyirsə, bunun əsas göstəricisi bəyanatlar deyil, konkret addımlar-ərazi bütövlüyünün tanınması olmalıdır. Hələlik isə belə addımlar müşahidə olunmur.




Əksinə, Rusiya Gürcüstan ərazilərinin bir hissəsində hərbi mövcudluğunu davam etdirir, Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımaq qərarını geri götürməyib, gürcü qaçqınların geri qayıtması, beynəlxalq hüququn bərpası və ya işğal olunmuş ərazilərin gələcəyi ilə bağlı yeni təşəbbüslər də gündəmdə deyil. Bu baxımdan Kremlin ritorikasındakı yumşalma strateji dönüşdən çox, dəyişən geosiyasi şəraitin diktə etdiyi taktiki adaptasiyadır. Neoimperializm başqa dövlətlərin daxili və xarici siyasətinə təsir göstərmək, onların ərazilərinə nəzarət etmək və suverenliklərini məhdudlaşdırmaq cəhdi kimi başa düşülürsə, Moskvanın bu siyasətdən imtina etdiyini təsdiqləyən konkret addımlar hələlik görünmür.

Bununla bağlı **gürcüstanlı politoloq Vüqar İsayev** XQ-yə bildirdi ki, Rusiya Xarici İşlər Nazirliyinin son açıqlamaları ilk baxışdan Moskvanın Cənubi Qafqaz siyasətində ciddi dəyişikliklərə getdiyi təəssüratı yaratsa da, əslində söhbət



neoimperialist siyasətdən imtinadan deyil, dəyişən geosiyasi reallıqlara uyğunlaşmaq cəhdindən gedir: "Rusiyanın Gürcüstanın ərazi bütövlüyü ilə bağlı mövqeyində fundamental dəyişiklik görünmür. Buna görə də Moskvanın son mesajları daha çox taktiki xarakter daşıyır".

Politoloq hesab edir ki, əgər Rusiya həqiqətən də neoimperialist yanaşmadan uzaqlaşmaq niyyətindədirsə, bunu bəyanatlarla deyil, konkret addımlarla sübut etməlidir. Onun fikrincə, Abxaziya və Cənubi Osetiyanın "müstəqilliyinin" tanınmasının yenidən nəzərdən keçirilməsi, gürcü qaçqınların təhlükəsiz qayıdışına şərait yaradılması, işğal olunmuş ərazilərdə hərbi mövcudluğun mərhələli şəkildə azaldılması və Tbilisi ilə ərazi bütövlüyü məsələsində birbaşa siyasi dialoqun başlanması real addımlar ola bilər: "Bu addımlar atılmadan "suverenlik", "milli ləyaqət" və "qarşılıqlı hörmət" haqqında səsləndirilən fikirlər daha çox diplomatik jest təsiri bağışlayır. Ona görə də hazırkı mərhələdə Moskvanın neoimperialist iddialardan əl çəkdiyini deyil, dəyişən regional şəraitə uyğun yeni taktiki davranış modeli formalaşdırdığını söyləmək daha doğru olar".

Beləliklə, Moskvanın yeni mesajları strateji dönüşdən deyil, zəifləyən imkanlar fonunda təsirini qorumağa yönəlmiş praqmatik və taktiki manevrdən xəbər verir. Neoimperialist siyasətdən real imtinanın ölçüsü isə sözlər deyil, ilk növbədə, Gürcüstanın ərazi bütövlüyü ilə bağlı atılacaq konkret addımlar olacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Rusiya–Ukrayna müharibəsinin uzanması Avropanın təhlükəsizlik arxitekturasını köklü şəkildə dəyişdirməklə yanaşı, diplomatik yanaşmalara da yeni məzmun qazandırır. Hələ ilk zamanlardan Qərb dövlətlərinin əsas strategiyası Ukraynaya hərbi, maliyyə və siyasi dəstəyin gücləndirilməsi, eyni zamanda, Rusiyanın beynəlxalq təcridinin dərinləşdirilməsi üzərində qurulmuşdu.**

# "E3"ün Moskva missiyası

## *Sülh masasına qayıdış cəhdləri*



Lakin müharibənin illərlə davam etməsi, cəbhədə həlledici dönüşün baş verməməsi və qlobal təhlükəsizlik risklərinin artması Avropa paytaxtlarını alternativ yollar üzərində düşünməyə vadar edir. Ona görə də Fransa, Almaniya və Böyük Britaniya ("E3") səfirləri Moskvada Rusiya rəsmiləri ilə görüşərək birbaşa sülh danışıqlarının bərpasına çağırış ediblər. "E3" rəsmilərinin bu görüşü Avropa siyasətində formalaşmaqda olan yeni yanaşmanın təcəssümüdür. Çünki son aylar Avropa liderlərinin açıqlamalarında hərbi dəstəyin davam etdirilməsi ilə yanaşı, müharibənin siyasi həll yollarının axtarılmasının vacibliyi daha çox vurğulanmağa başlayıb.

## Müharibənin qitə üzərində artan yükü

Şübhəsiz, təşəbbüsün ortaya çıxması təəccüb doğurmamalıdır. Nəzərə alınmalıdır ki, müharibə artıq Ukrayna və Rusiya arasında qarşıdurmadan daha çox Avropanın iqtisadi sabitliyinə, enerji təhlükəsizliyinə və sosial rifahına təsir göstərən genişmiqyaslı geosiyasi problem kimi qəbul edilir. Uzun müddət davam edən qarşıdurma Avropa ölkələrinin müdafiə xərclərini rekord səviyyəyə çatdırıb, iqtisadiyyatlara əlavə yük yaradıb və təhlükəsizlik gündəmini digər strateji məsələlərin önünə keçirib. Hətta Avropa İttifaqı daxilində müharibənin gələcəyi ilə bağlı fərqli baxışların formalaşdığı da müşahidə olunur. Bir qrup dövlət Rusiyaya qarşı təzyiq siyasətinin daha da sərtləşdirilməsini müdafiə etdiyi halda, digər dairələr diplomatik kanalların açıq saxlanmasının vacibliyini vurğulayır. Moskva ilə təmasların artırılması ideyası məhz ikinci yanaşmanın güclənməsinin göstəricisi kimi anlaşıla bilər.

Məsələnin dərininə ensək, diplomatiya ilə hərbi strategiyanın paralel şəkildə aparılması beynəlxalq münasibətlər tarixində rast gəlinən hallardandır. Müharibələr cəbhədə davam etdiyi halda, danışıqlar masasında da paralel proseslər gedib. Hazırkı vəziyyətdə Avropa dövlətləri gələcək siyasi nizamın konturlarını müəyyənləşdirmək məqsədi güdürlər. Çünki istənilən halda müharibənin sonu danışıqlar masasında razılaşmalarla müəyyən ediləcək.

Fransa bu istiqamətdə xüsusilə fəal görünür. Paris son illər Avropanın strateji muxtariyyət ideyasını ön plana çıxararaq qitənin təhlükəsizlik məsələlərində daha müstəqil rol oynamasını müdafiə edir. Rəsmi Paris hesab edir ki, Avropanın gələcək təhlükəsizlik sistemi diplomatik mexanizmlər üzərində qurulmalıdır. Bu səbəbdən Moskva ilə əlaqələrin tamamilə kəsilməsinin uzunmüddətli perspektivdə Avropanın maraqlarına cavab vermədiyi fikri Parisdə daha çox səsləndirilir.

Almaniyanın mövqeyi isə daha çox praqmatik amillərlə izah olunur. Ukraynaya geniş dəstək göstərən Berlin, eyni zamanda, Avropanın iqtisadi sabitliyinin qorunmasında maraqlıdır. Enerji böhranının nəticələri, sənaye sektorunda yaranan çətinliklər və iqtisadi artım tempinin zəifləməsi Almaniya daxilində müharibənin perspektivləri ilə bağlı müzakirələri intensivləşdirib. Bu baxımdan alman diplomatiyası hərbi dəstəklə yanaşı, siyasi həll imkanlarının da araşdırılmasının vacibliyini vurğulayır.

Böyük Britaniya isə müharibənin başlanğıcından etibarən Ukraynanın ən qətiyyətli tərəfdarlarından biri olub. Buna baxmayaraq, Londonun da diplomatik proseslərdən kənarda qalmaq istəmədiyi görünür. Böyük Britaniya üçün əsas məqsəd Rusiyanın beynəlxalq hüququ pozan addımlarının legitimləşdirilməsinin qarşısını almaqla gələcək təhlükəsizlik mexanizmlərinin formalaşdırılmasında söz sahibi olmaqdır. Bu baxımdan Moskva ilə təmaslar kompromis axtarışından daha çox gələcək danışıqlar prosesinə hazırlıq kimi dəyərləndirilə bilər.

## Moskva görüşü və siyasi reaksiyalar

Məsələnin mahiyyətini vurğulamaqda fayda var. Xatırladaq ki, görüş Londonda üç ölkənin Ukraynadakı müharibənin dayandırılması məsələsini müzakirə etmək üçün keçirdiyi sammitdən bir neçə gün sonra baş tutub. Məlumata görə, səfirlər Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin ilə görüşüblər. Rusiya tərəfi məsuliyyəti Qərbin üzərinə ataraq onların siyasətini müharibənin uzanmasının səbəbi kimi təqdim edib. Həftənin əvvəlində isə Rusiya xarici işlər naziri Sergey Lavrov bu görüşlərin yaxın zamanda baş tutacağına işarə etmiş, eyni zamanda, səfirlərin onun müavinləri ilə görüşmək üçün "yalvardıqlarını" iddia etmişdi: "Son günlər hamı Avropa İttifaqının Ukrayna məsələsində diqqət mərkəzinə çıxmaq cəhdlərini izləyir; onlar vəziyyətin, guya, mümkün nizamlanması istiqamətində addımlar atmağa çalışırlar", – Lavrov söyləmişdi. Bundan başqa, o, Böyük Britaniya, Fransa və Almaniyanın siyasi rəhbərliyinin müharibənin dayandırılması ilə bağlı hər hansı konstruktiv ideyalar irəli sürüb-sürə bilməyəcəyini sual edərək "E3"ü Rusiyanı təhqirdə və şəxsi hücumlara əl atmaqda ittiham etmişdi.

Məsələ ilə bağlı "Bloomberg"in məlumatları da maraqlıdır. Mənbə qeyd edir ki, Avropa liderləri birgə diplomatik təşəbbüsün ABŞ Prezidenti Donald Trampı da Moskvanı real sülh danışıqlarına məcbur etmək üçün koordinasiyalı təzyiqə qoşulmağa razı salacağına ümid edirlər. Lakin hazırkı vəziyyət elədir ki, Kreml Avropa İttifaqını etibarlı vasitəçi kimi qəbul etmir və bloku münaqişənin "birbaşa iştirakçısı" adlandırır.

## Qlobal koordinasiya və gələcək sülh ssenariləri

Sonda bu qənaətə gəlmək olar ki, tədricən formalaşan, lakin hələ zəif və qeyri-sabit olan diplomatik çıxış yolları mövcuddur. Avropa məhz bu iki xətt arasında balans axtarır. Mövcud balansın necə formalaşacağı tərəflərin atacağı addımlardan asılı olacaq. Əgər tərəflər qarşılıqlı etimadın minimum səviyyəsini bərpa edə bilsələr, müharibə sonrası yeni təhlükəsizlik arxitekturasının konturları daha aydın görünə bilər. Əks halda, dünya uzunmüddətli geosiyasi qeyri-sabitlik mərhələsinə daxil ola bilər ki, bu da bütün beynəlxalq sistem üçün ciddi risklər yaradacaq. Yəni "E3"ün Moskva ilə dialoqa cəhdləri Avropanın öz təhlükəsizlik fəlsəfəsini yenidən düşünməsinin göstəricisidir. Prosesin nəticəsi yaxın illərdə qitənin siyasi xəritəsini və beynəlxalq münasibətlərin ümumi istiqamətini müəyyən edəcək əsas amillərdən biri olacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Yeni mərhələdə iqtisadi yüksəlişin dayaqları və hədəfləri

**Ölkə iqtisadiyyatı son illərdə qlobal enerji bazarlarında baş verən dalğalanmalar, geosiyasi dəyişikliklər və beynəlxalq ticarət marşrutlarının yenidən qurulması fonunda yeni bir inkişaf xəttinə qədəm qoyur. Ənənəvi olaraq enerji gəlirlərinə söykənən iqtisadi model bu gün daha geniş bir mənzərədə dəyərləndirilir. Beynəlxalq maliyyə institutlarının son proqnozları da göstərir ki, Azərbaycan yaxın illərdə sabitlik, ehtiyatlı optimizm və strateji manevr imkanları ilə diqqət mərkəzində qalacaq.**




Niderlandın ən böyük maliyyə qruplarından biri olan ING Bankın qiymətləndirməsinə əsasən, 2026-cı ildə Azərbaycanın büdcə profisiti ÜDM-in 5 faizinə, cari əməliyyatlar hesabının profisiti isə ÜDM-in 11 faizinə çata bilər. Bu göstəricilər dövlətin maliyyə dayaqlarının möhkəmləndiyini, iqtisadi tab gətirmənin gücləndiyini və enerji gəlirlərinin ölkə büdcəsinə yenidən nəfəs verdiyini göstərən mühüm siqnallardır.

ING-nin yanaşmasında diqqətçəkən məqam odur ki, Azərbaycan üçün üstünlük yalnız enerji gəlirlərinin artmasında məhdudlaşmır. Hesabatda ölkənin enerji diplomatiyasını genişləndirməsi, ticarət və marşrut şəbəkələrini inkişaf etdirməsi xüsusi vurğulanır. Bu, Azərbaycanın iqtisadi coğrafiyasını daha da genişləndirən, onu regionda mühüm körpü roluna yaxınlaşdıran prosesdir.

"Azəri-Çıraq-Günəşli" yatağına beynəlxalq investisiyaların cəlb olunması imkanlarının nəzərdən keçirilməsi, Türkiyə ilə Abşeron yatağından qaz tədarükünə dair 15 illik müqavilənin imzalanması, Bakı-Supsa marşrutunun Qazaxıstan üçün alternativ ixrac kanalı kimi dəyərləndirilməsi kimi məqamlar ölkənin enerji və logistika xəritəsində yeni səhifənin açıldığını göstərir. Ümumiyyətlə, enerji gəlirləri dövlətin maliyyə təhlükəsizliyinin güclənməsinə, strateji layihələrin maliyyələşdirilməsinə zəmin yaradır. Hər bir əlavə gəlir, hər bir yeni müqavilə, hər bir alternativ ixrac xətti Azərbaycan üçün gələcəkdə daha geniş nəfəs sahəsi yaradır.

Bununla yanaşı, ING Azərbaycan iqtisadiyyatının üzləşə biləcəyi riskləri də yada salır. Bank ticarət tərəfdaşlarından inflyasiya təzyiqlərinin ötürülməsinə yüksək həssaslığı və ÜDM artımının zəif tempini əsas narahatlıq mənbələri kimi göstərir. Bu məqam mühümdür, çünki qlobal bazarlardakı qiymət dəyişiklikləri, idxal kanallarındakı bahalaşma və regional iqtisadi ritmlər Azərbaycanın daxili qiymət sabitliyinə təsir göstərə bilər. Deməli, enerji gəlirlərinin yaratdığı rahatlıq fonunda islahat və şaxələndirmə gündəmdə öz yerini qorumağa davam etməlidir.

Digər tərəfdən, Dünya Bankının yenilənmiş proqnozları Azərbaycanın iqtisadi mənzərəsinə daha bir ümid işığı salır. Bank 2026-cı il üçün real ÜDM artımı proqnozunu 2 faiz, 2027 və 2028-ci illər üçün isə 1,8 faiz səviyyəsində qiymətləndirib. Yanvar proqnozu ilə müqayisədə 2026-cı il üzrə göstəricinin 0,2 faiz bəndi, 2027-ci il üzrə isə 0,1 faiz bəndi yüksəldilməsi müsbət siqnaldır. Bu, Azərbaycanın qlobal iqtisadi çətinliklər içində belə müəyyən sabit inkişaf xəttini qoruyub saxladığını göstərir.

Dünya Bankının Cənubi Qafqaz regionu üzrə ümumi artım gözləntilərini də yüksəltməsi bölgənin iqtisadi dinamizminin daha geniş çərçivədə gücləndiyini təsdiqləyir. 2026–2027-ci illər üçün 3,4 faiz, 2028-ci il üçün isə 3,2 faiz artım proqnozu regionun gələcək perspektivlərinə dair pozitiv mənzərə yaradır.

Bu fonda Azərbaycanın mövqeyi xüsusi əhəmiyyət daşıyır. Çünki ölkə həm enerji ixracı, həm nəqliyyat dəhlizləri, həm də beynəlxalq tərəfdaşlıq imkanları baxımından regional iqtisadi ritmin mərkəzlərindən birinə çevrilmək potensialını saxlayır.

Azərbaycanın iqtisadi gələcəyi haqqında danışarkən bir həqiqət aydın görünür: ölkə təkcə hasilatçı iqtisadiyyatın imkanları ilə hərəkət etmir, həm də yeni əlaqələr, alternativ marşrutlar, diplomatik körpülər və investisiya kanalları qurur. Bu, iqtisadi artımın daha dayanıqlı xarakter alması üçün əsas şərtlərdən biridir. Çünki müasir dövrdə sabitlik yalnız büdcə rəqəmlərində deyil, həm də çevik strategiyada, çevik diplomatiyada və bazar dəyişikliklərinə uyğunlaşma qabiliyyətində ölçülür.

Göründüyü kimi, qarşıdakı illərdə Azərbaycan iqtisadiyyatı 2 mühüm dayağa söykənəcək: enerji gəlirlərinin artımı və inkişaf xəttinin şaxələndirilməsi. Birinci dayaq büdcəyə arxa verir, ikinci dayaq gələcəyin qapısını açır. Məhz bu iki istiqamət bir araya gəldikdə, iqtisadi artım sadə statistik göstərici olmaqdan çıxır, dövlətin strateji möhkəmliyinin ifadəsinə çevrilir.

Nəticə etibarilə, həm ING, həm də Dünya Bankının proqnozları Azərbaycan üçün ehtiyatlı nikbinlik mühiti formalaşdırır. Qlobal bazarların təzyiqləri, inflyasiya dalğaları və artım templərinin məhdudluğu fonunda ölkənin enerji gəlirləri, regional mövqeyi və diplomatik manevr imkanları ön plana çıxır. Azərbaycanın qarşısında duran əsas vəzifə bu fürsət pəncərəsini daha geniş islahatlara, daha güclü qeyri-neft sektoruna və daha dayanıqlı inkişaf modelinə çevirməkdir. Məhz bu halda ÜDM artımı iqtisadi yüksəlişin davamlı yol xəritəsinə çevriləcək.

***Nurlan ABDALOV***
***XQ***

# Bakıda qlobal "halal biznes" müzakirələri keçiriləcək




**Bakıda keçiriləcək İslam İnkişaf Bankı (İİB) Qrupunun 51-ci İllik Toplantıları çərçivəsində "Davamlı regional inteqrasiya üçün halal iqtisadiyyat" mövzusuna həsr olunmuş İİB-in Halal İqtisadiyyat Liderlik Forumu (HELF) və Azərbaycan Halal Biznes Forumu 2026 (AZHAB Forum) birgə təşkil olunacaq. HELF və AZHAB Forumunun güclü tərəflərini bir araya gətirəcək tədbir qlobal halal iqtisadiyyatın gələcəyi ilə bağlı dialoq, tərəfdaşlıq və əməkdaşlıq üçün unikal müzakirə platforması yaradacaq.**

Tədbir iyunun 16-da İİB Qrupunun İllik Toplantıları çərçivəsində keçiriləcək Özəl Sektor Forumu (PSF 2026) daxilində təşkil olunacaq.

HELF/AZHAB Forumu 2026 İİB Qrupuna üzv və digər ölkələrdən yüksəksəviyyəli dövlət rəsmilərini, siyasətçiləri, sənaye liderlərini, maliyyə institutlarını, inkişaf təşkilatlarını, investorları və özəl sektor nümayəndələrini bir araya gətirəcək. Forumda etik halal biznes modelləri, halal KOB-lar, davamlılıq və yaşıl keçid, innovasiya və regional iqtisadi inteqrasiya mövzuları müzakirə ediləcək.

Forum çərçivəsində "Strateji liderlik dialoqu: Etik halal biznes modelləri və dayanıqlı maliyyələşmə", "Halal sənayesinin liderləri: İnnovasiya, etimad və qlobal artımın hərəkətverici qüvvəsi", "Halal KOB-lar və davamlılıq: Yaşıl keçid, halal dəyər zəncirləri və inklüziv inkişaf", "Halal sənaye zonaları: aparıcı halal ekosistemin inkişafı" mövzularında panel müzakirələri təşkil olunacaq. Bundan başqa, "Davamlı regional inteqrasiya üçün halal iqtisadiyyatı" mövzusunda Nazirlər Sessiyası keçiriləcək. Sessiyada nazirlər və yüksəkvəzifəli dövlət nümayəndələri halal iqtisadiyyatı üzrə siyasət prioritetlərini və əməkdaşlığın gücləndirilməsi imkanlarını müzakirə edəcəklər.

Eyni zamanda, Forum iştirakçılara yeni tərəfdaşlıqlar qurmaq, İİB Qrupu və tərəfdaşları tərəfindən təqdim olunan maliyyə alətləri, dəstək mexanizmləri və ixtisaslaşmış proqramlar barədə məlumat əldə etmək imkanı yaradacaq.

HELF/AZHAB Forumu 2026 İİB-in Kuala Lumpur Mükəmməllik Mərkəzi (KL CoE), Azərbaycan Halal Biznes Forumu (AZHAB Forum), Malayziyanın Halal İnkişaf Korporasiyası (HDC) və Səudiyyə Ərəbistanı Krallığının Halal Məhsulların İnkişafı Şirkətinin (HPDC) əməkdaşlığı ilə təşkil olunacaq. Bu tərəfdaşlar halal ekosistemin inkişafı, bu sahədə sənayenin təşviqi, potensialın gücləndirilməsi və beynəlxalq əməkdaşlıq sahələrində bir-birini tamamlayan təcrübəyə malikdirlər və daha inteqrasiya olunmuş, qlobal əlaqələrə malik halal iqtisadiyyatın inkişafına töhfə verirlər.

***XQ***

# Dəniz limanında yük aşırımı artıb



**2026-cı ilin ilk 5 ayı ərzində Bakı Limanı vasitəsilə 950 min 203 ton quru yük aşırılıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 77 faiz artım deməkdir.**

Aşırılan yüklərin əsas hissəsini Türkmənistandan gətirilərək Azərbaycan üzərindən tranzit daşınan kükürd və karbamid təşkil edib. Bununla yanaşı, Qazaxıstandan ixrac olunan mis, sink və digər əlvan metal məhsullarının daşınmasında da Bakı Limanının rolu əhəmiyyətli dərəcədə artıb.

"Azərbaycan Dəmir Yolları" QSC-nin məlumatına əsasən, mövcud tendensiya və bazar iştirakçılarının yükdaşıma planları nəzərə alınaraq növbəti aylarda da quru yük seqmentində artım dinamikasının davam edəcəyi proqnozlaşdırılır.

***XQ***

# Azərbaycanda da günəş panelləri buraxılacaq

## *Ələtdə Çin şirkətinin iştirakı ilə zavod tikiləcək*

**Azərbaycan dünyanın prioritet elan etdiyi "yaşıl keçid"in fəal iştirakçısı kimi mövqeyini getdikcə möhkəmləndirir. Bu məqsədlə ölkəmiz özünün zəngin bərpaolunan enerji mənbələrindən səmərəli istifadə etmək məqsədilə bir sıra mühüm layihələr həyata keçirir. Eyni zamanda, uğurlu beynəlxalq əməkdaşlıq şəraitində bu sahəyə xarici investisiyalar cəlb olunur. Bununla ölkəmiz enerji sahəsində dayanıqlılığı artırmaqla yanaşı, qlobal səylərə də töhfə verməyə çalışır.**



Azərbaycanın Çin Xalq Respublikası ilə bərpa olunan enerji sahəsində uğurlu əməkdaşlığı bu baxımdan diqqət çəkir. Təkcə onu qeyd etmək kifayətdir ki, son zamanlar ölkəmizin bərpaolunan enerji mənbələrinin hərəkətə gətirilməsi məqsədilə inşa edilmiş 230 meqavatlıq "Qaradağ" günəş və 240 meqavatlıq "Xızı-Abşeron" külək enerji stansiyalarında quraşdırılmış qurğu və avadanlıqlar məhz Çindən alınıb. Eyni zamanda, hazırda ölkəmizdə "yaşıl enerji" sahəsində bir sıra layihələr həyata keçirilir ki, bu da xaricdən yeni texnologiyaların, qurğu və avadanlıqların idxalına zərurət yaradır. Bu isə istehsal olunan "yaşıl enerji"nin maya dəyərinin artmasına və əlavə vaxt itkisinə səbəb olur.

Məhz bu səbəbdən bərpaolunan enerji istehsalı üçün zəruri qurğu və avadanlıqların ölkə daxilində istehsalının təşkili məqsəduyğun hesab edilir. Elə ölkənin zəngin bərpaolunan enerji potensialı, eləcə də qeyri-neft sənayesinin sürətli inkişafının prioritet elan olunması da məsələnin aktuallığını xeyli dərəcədə artırır. Artıq bu istiqamətdə konkret işlərin görülməsinə başlanılıb.

Yaxın zamanlarda isə Ələt Azad İqtisadi Zonasının ərazisində Çin şirkətinin iştirakı ilə günəş panellərinin istehsalı üzrə zavodun tikintisinə start veriləcək. Bu barədə məlumat verən Ələt Azad İqtisadi Zonası İdarə Heyətinin sədri Valeh Ələsgərov bildirib ki, ilk mərhələdə müəssisə ildə, təxminən, 3 giqavat gücündə günəş panelləri istehsal edəcək. Gələcəkdə isə istehsal gücünün 10 giqavata çatdırılması planlaşdırılır.

O deyib ki, layihənin həyata keçirilməsi günəş enerjisinin maya dəyərinin azalmasına və bərpaolunan enerji mənbələrinə çıxışın genişlənməsinə imkan yaradacaq. Bununla yanaşı, hazırda ölkəmizdə külək energetikası üçün komponentlərin, xüsusilə turbin pərləri və qüllələrinin istehsalı ilə bağlı imkanlar da nəzərdən keçirilir. Külək qurğularının iri elementlərinin Çin və Avropadan daşınmasının mürəkkəb və bahalı proses olduğunu vurğulayan idarə heyətinin sədri deyib ki, bu amil istehsalın lokallaşdırılmasını iqtisadi baxımdan məqsədəuyğun edir. Onun sözlərinə görə, elektrik enerjisinin saxlanılması üzrə həllər olmadan böyük həcmdə külək və günəş generasiyasını enerji sisteminə səmərəli şəkildə inteqrasiya etmək mümkün deyil.

Xatırladaq ki, Baş nazirin müavini və Azərbaycan–Çin hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin Çinə səfəri çərçivəsində 2025-ci il sentyabrın 9-da Çendu şəhərində Ələt Azad İqtisadi Zonası İdarəsi ilə Çinin yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən "Sichuan Sunsync Photovoltaic Technology Co., Ltd." şirkəti arasında investisiya sazişi imzalanıb.

Ələt Azad İqtisadi Zonasında günəş panellərinin istehsalı üzrə müasir istehsal kompleksinin yaradılmasını nəzərdə tutan həmin razılaşmaya əsasən, 23 hektar ərazini əhatə edən sənaye zonasında zəruri infrastruktur və kommunikasiya xətləri ilə təmin olunmuş 3 müasir istehsal obyekti tikiləcək. Onların ümumi istehsal gücü ildə 3 giqavat günəş paneli təşkil edəcək. İstehsal olunacaq avadanlığın bir hissəsi ölkədə günəş elektrik stansiyasının tikintisi zamanı istifadə ediləcək. Bu da elektrik enerjisi istehsalına sərf olunan təbii qaza qənaət etməyə imkan yaradacaq. Nəticədə, həmin qaz həcmləri Avropaya daha baha qiymətə ixrac olunacaq. Məhsulun qalan hissəsinin isə dünya bazarlarına çıxarılması nəzərdə tutulur ki, bu da ölkəyə əlavə valyuta daxilolmalarını təmin edəcək.

Ümumilikdə isə, günəş panellərinin istehsalı ölkəyə iqtisadi diversifikasiya, ixrac gəlirlərinin artırılması, minlərlə yeni iş yeri və yaşıl texnologiyalara çıxış vəd edir. Bu nəhəng sənaye addımı həm daxili istehlakı, həm də ölkənin "yaşıl enerji" ixracı strategiyasını gücləndirmək üçün təməl rolunu oynayacaq. Eyni zamanda, panellərin yerli istehsalı, həm ölkə daxilindəki damüstü günəş panelləri layihələrinin genişlənməsinə, həm də bütövlükdə, elektrik stansiyalarının qurulma xərclərinin ucuzlaşmasına səbəb olacaq.

Ümumilikdə isə, ölkəmizdə günəş layihələrinin və regional potensialın coğrafi paylanması sahəsində də maraqlı mənzərə müşahidə olunur. Məsələn, Bakı və Abşeron yarımadası yüksək günəş radiasiyasına malik olması, eləcə də istehlak mərkəzlərinə və ötürücü şəbəkələrə yaxınlığı ilə diqqət çəkir. Naxçıvan Muxtar Respublikası da relyefi və iqlimi sayəsində ölkənin ən yüksək günəş radiasiyasına malik bölgələrindən biridir.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur isə rəsmən "yaşıl enerji zonası" elan olunub və burada günəş panellərinin genişmiqyaslı quraşdırılması davam edir. Mütəxəssislərin ilkin qiymətləndirmələrinə görə, sözügedən zonalarda günəş enerjisinin texniki potensialı 7 min 200 meqavatdan çoxdur. Düzənlik və geniş torpaq sahələrinə malik olan Mil-Muğan bölgəsi və mərkəzi aran rayonları da irihəcmli günəş fermaları üçün əlverişlidir. Hazırda Biləsuvar və Neftçala rayonlarında sənaye miqyaslı yeni böyük günəş elektrik stansiyalarının tikintisi ilə bağlı layihələr icra olunur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Özəlləşdirmə və icarə daxilolmaları çoxalıb



**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti 2026-cı ilin yanvar-may ayları ərzində özəlləşdirmə və icarədən dövlət büdcəsinə 117,4 milyon manat vəsaitin ödənilməsini təmin edib.**

Qurumun məlumatına əsasən, cari ilin ötən dövründə dövlət əmlakının özəlləşdirilməsi və icarəyə verilməsi sahəsində işlər davam edib. Hesabat dövründə keçirilən 27 hərracda 3 səhmdar cəmiyyətinin səhm paketi, 2 kiçik dövlət müəssisəsi, 1 yarımçıq tikili sahəsi və 467 nəqliyyat vasitəsi özəlləşdirilib. Bunun da hesabına dövlət büdcəsinə 95,2 milyon manat vəsait daxil olub.

Bu ilin ilk 5 ayında ölkə üzrə 246-sı qeyri-yaşayış, 1748-i torpaq sahələri üzrə olmaqla 1994 yeni icarə müqaviləsi bağlanılıb. Hesabat dövrü ərzində daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən dövlət büdcəsinə 22,2 milyon manat vəsaitin ödənilməsi təmin olunub.

Beləliklə, 2026-cı ilin yanvar-may ayları ərzində dövlət əmlakının özəlləşdirilməsindən və icarəsindən büdcəyə, ümumilikdə, 117,4 milyon manat vəsait daxil olub.

***XQ***

**Azərbaycan Prezidenti İlham Əliyevin 2026-cı il 26 may tarixli sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı” ölkəmizin maliyyə sektorunun inkişafında yeni mərhələnin əsasını qoyur. Sənəd maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi, rəqəmsal maliyyə ekosisteminin inkişaf etdirilməsi, maliyyə savadlılığının artırılması və iqtisadi fəaliyyət iştirakçıları üçün daha əlçatan maliyyə mühitinin yaradılması kimi prioritetləri əhatə edir.**

# Ümumi tərəqqidə maliyyə əlçatanlığı amili

*Yeni Dövlət Proqramı bu sektorda çevik idarəetməni, səmərəliliyi və sosial ədaləti önə çəkib*



Müasir dövrdə maliyyə inklüzivliyi yalnız bank xidmətlərinin genişləndirilməsi ilə yanaşı, sosial ədalətin, iqtisadi imkanların bərabərliyinin və davamlı inkişafın mühüm göstəricilərindən biri hesab edilir. Bu baxımdan yeni Dövlət Proqramı Azərbaycanın iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi diqqət çəkir.

Maliyyə əlçatanlığı fiziki şəxslərin, ailə təsərrüfatlarının və sahibkarlıq subyektlərinin ehtiyaclarına uyğun maliyyə məhsul və xidmətlərindən təhlükəsiz, münasib qiymətlə və bərabər şərtlərlə istifadə imkanlarının gerçəkləşdirilməsi deməkdir. Buraya bank hesablarının açılması, kreditlərdən istifadə, əmanətlərin yerləşdirilməsi, sığorta xidmətləri, elektron ödəniş sistemləri və digər maliyyə vasitələri daxildir.

Beynəlxalq təcrübə göstərir ki, maliyyə əlçatanlığının səviyyəsi yüksəldikcə, iqtisadi fəallıq artır, kölgə iqtisadiyyatının payı azalır, kiçik və orta sahibkarlığın inkişafı sürətlənir, əhalinin sosial müdafiə imkanları genişlənir. Maliyyə xidmətlərindən kənarda qalan insanların iqtisadi proseslərə cəlb olunması isə yoxsulluğun azaldılmasına və sosial rifahın yüksəldilməsinə xidmət edir.

Azərbaycan da son illərdə rəqəmsal transformasiya, elektron hökumət xidmətləri və nağdsız hesablaşmaların genişləndirilməsi istiqamətində mühüm uğurlar əldə edib. Lakin regionlar üzrə maliyyə xidmətlərinə çıxış imkanları, müəyyən sosial qrupların maliyyə sistemində iştirak səviyyəsi və maliyyə savadlılığı sahəsində hələ də inkişaf istənilən səviyyədə deyil. Məhz buna görə yeni Dövlət Proqramı strateji əhəmiyyət kəsb edir.

Dövlət Proqramının əsas məqsədi əhalinin və mikro, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə xidmətlərinə çıxış imkanlarını genişləndirmək, maliyyə məhsullarının keyfiyyətini yüksəltmək, maliyyə savadlılığını artırmaq və inklüziv maliyyə ekosistemini formalaşdırmaqdır. Bu məqsədlərə nail olmaq üçün proqram maliyyə xidmətlərinin əlçatanlığının artırılması, rəqəmsal maliyyə həllərinin genişləndirilməsi, innovativ maliyyə texnologiyalarının tətbiqi, maliyyə savadlılığının gücləndirilməsi, istehlakçı hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi, mikro, kiçik və orta sahibkarlığın maliyyələşmə imkanlarının genişləndirilməsi, eləcə də qadınların, gənclərin və həssas sosial qrupların maliyyə sisteminə inteqrasiyasının artırılması kimi mühüm istiqamətləri əhatə edir. Bu istiqamətlər, eyni zamanda, ölkədə maliyyə xidmətlərinin daha geniş auditoriyaya çatdırılmasını və iqtisadi fəallığın yüksəldilməsini şərtləndirir.

Dövlət Proqramında xüsusi diqqət ayrılan istiqamətlərdən biri də rəqəmsal maliyyə xidmətlərinin inkişafıdır. Son illərdə Azərbaycanda elektron ödəniş sistemləri, internet və mobil bankçılıq, rəqəmsal pul köçürmələri və digər innovativ maliyyə xidmətləri sürətlə inkişaf edir. Yeni proqram çərçivəsində bu proseslərin daha da dərinləşdirilməsi nəzərdə tutulur. Rəqəmsal maliyyə texnologiyalarının geniş tətbiqi ilə regionlarda yaşayan vətəndaşların maliyyə xidmətlərinə çıxışının asanlaşacağı, əməliyyat xərclərinin azalacağı və xidmətlərin keyfiyyətinin yüksələcəyi də gözlənilir.

Rəqəmsallaşma xüsusilə kənd yerlərində yaşayan əhali üçün mühüm əhəmiyyət daşıyır. Ənənəvi bank şöbələrinin olmadığı və ya məhdud fəaliyyət göstərdiyi ərazilərdə rəqəmsal platformalar vasitəsilə maliyyə xidmətlərinə çıxışın yaradılacağı, bunun isə regionların sosial-iqtisadi inkişafına əlavə təkan verəcəyi bildirilir.

Maliyyə əlçatanlığı iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən olan sahibkarlığın inkişafında da mühüm rol oynayır. Başqa sözlə, mikro, kiçik və orta biznes subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi iqtisadiyyatın şaxələndirilməsi siyasətinin vacib elementidir. Bu baxımdan yeni Dövlət Proqramı sahibkarların kreditlərə, zəmanət mexanizmlərinə, lizinq və digər maliyyə vasitələrinə çıxış imkanlarının artırılmasını nəzərdə tutur. Bunun xüsusilə regionlarda fəaliyyət göstərən kiçik bizneslərin inkişafına müsbət təsir göstərəcəyi, eyni zamanda, yeni investisiyaların cəlb edilməsinə, yeni iş yerlərinin yaradılmasına və qeyri-neft sektorunun inkişafına əlavə imkanlar açacağı bildirilir.

Maliyyə xidmətlərinə çıxışın genişləndirilməsi ilə yanaşı, həmin xidmətlərdən düzgün istifadə bacarıqlarının formalaşdırılması da zəruridir. Bu baxımdan maliyyə savadlılığının artırılması Dövlət Proqramının prioritet istiqamətlərindən biridir. Bu amil insanların gəlirlərini idarə etməsi, qənaətə önəm verməsi, investisiya qərarlarına həssaslıqla yanaşması və maliyyə risklərini qiymətləndirməsi üçün zəruri bilik və bacarıqlar toplusudur.

Maliyyə savadlılığının yüksəldilməsi, ilk növbədə, ailə büdcəsinin daha səmərəli idarə olunmasına, borclanma risklərinin azalmasına, əmanət mədəniyyətinin formalaşmasına, investisiya fəallığının artmasına, maliyyə fırıldaqlarından qorunmaya xidmət edir. Xüsusilə gənclər arasında maliyyə biliklərinin artırılması gələcəkdə daha sağlam və dayanıqlı maliyyə davranışlarının formalaşmasına şərait yaradır.

Maliyyə inklüzivliyinin mühüm tərəflərindən biri də sosial bərabərliyin təmin edilməsidir. Dünya təcrübəsində qadınlar, gənclər, yaşlı insanlar, əlilliyi olan şəxslər və aztəminatlı ailələr bəzən maliyyə xidmətlərinə çıxış baxımından müəyyən çətinliklərlə üzləşirlər. Yeni Dövlət Proqramı məhz bu kateqoriyaların maliyyə sisteminə inteqrasiyasını gücləndirməyi nəzərdə tutur. Bu yanaşma sosial ədalətin möhkəmləndirilməsinə, iqtisadi imkanların daha geniş paylaşılmasına və cəmiyyətin bütün təbəqələrinin inkişaf prosesində iştirakına şəraiti şərtləndirir. Bu baxımdan maliyyə inklüzivliyi yalnız iqtisadi göstərici deyil, həm də sosial inkişaf indikatorudur.

Sərəncama əsasən proqramın icrasının əlaqələndirilməsi və nəzarəti Azərbaycan Respublikasının Mərkəzi Bankına həvalə olunub. Eyni zamanda tədbirlərin monitorinqi və qiymətləndirilməsi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçiriləcək. Maliyyə Nazirliyi isə maliyyələşmə məsələlərinin təmin olunmasında iştirak edəcək.

Belə bir mexanizm proqramın icrasının sistemli və nəticəyönümlü şəkildə həyata keçirilməsinə imkan verəcək. Eyni zamanda, icra prosesinə nəzarətin gücləndirilməsi müəyyənləşdirilən hədəflərə nail olunmasını sürətləndirəcək.

Azərbaycan son illərdə iqtisadiyyatın modernləşdirilməsi, rəqəmsal transformasiya, sahibkarlığın dəstəklənməsi və sosial rifahın yüksəldilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir. Maliyyə əlçatanlığının genişləndirilməsi isə bu siyasətin məntiqi davamıdır.

2027–2030-cu illəri əhatə edən Dövlət Proqramı ölkədə maliyyə xidmətlərinin daha əlçatan, təhlükəsiz və keyfiyyətli olmasına şərait yaradacaq. Bu sənədin uğurlu icrası nəticəsində vətəndaşların maliyyə sistemində iştirak səviyyəsinin yüksəlməsi, sahibkarlığın inkişafının sürətlənməsi, rəqəmsal iqtisadiyyatın genişlənməsi və ümumilikdə dayanıqlı iqtisadi artım üçün yeni imkanların formalaşması gözlənilir.

Beləliklə, Prezident İlham Əliyevin təsdiq etdiyi yeni Dövlət Proqramı maliyyə sektorunun inkişafı ilə yanaşı, ölkənin sosial-iqtisadi modernləşməsinə, inklüziv və rəqabətqabiliyyətli iqtisadi modelin formalaşmasına xidmət edən mühüm strateji sənəd kimi qiymətləndirilə bilər. Maliyyə xidmətlərinə çıxışın genişləndirilməsi isə hər bir vətəndaşın iqtisadi inkişaf prosesində daha fəal iştirakını təmin etməklə Azərbaycanın uzunmüddətli inkişaf hədəflərinə çatmasına mühüm töhfə verəcəkdir.

***V.BİNYATOĞLU***
***XQ***

# Aqroparklar çağdaş aqrar istehsal modelidir





**Azərbaycanın qeyri-neft sektorunun aparıcı istiqamətlərindən biri olan kənd təsərrüfatının inkişafı son illər dövlət siyasətinin əsas prioritetləri sırasında yer alıb. Prezident İlham Əliyevin sədrliyi ilə mayın 25-də keçirilən müşavirədəki çıxışlarda da bu sahənin modernləşdirilməsi, ixracyönümlü istehsalın artırılması, aqropark modelinin diqqətdə saxlanılması və aqrar sektorda kooperasiya mexanizmlərinin gücləndirilməsi məsələlərinə üstünlük verilib.**

Bu gün kənd təsərrüfatı ərzaq təhlükəsizliyinin təmin olunması ilə bərabər, həm də ölkənin ixrac potensialının artırılması və regional iqtisadi gücünün möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Məhz buna görə də 2026–2030-cu illəri əhatə edən Dövlət Proqramında aqroparklar və ixracyönümlü aqrobizneslərin inkişafı xüsusi istiqamət kimi diqqət çəkir.

Xatırladaq ki, indiyədək respublikada 32 rayonda 52 aqropark yaradılıb. Həmin müəssisələr heyvandarlıq, meyvəçilik, əkinçilik, çeşidləmə, qablaşdırma və logistika üzrə ixtisaslaşıb. Bugünə kimi aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə 160 milyon manatdan çox dövlət dəstəyi göstərilib. İnvestisiya təşviqi sənədi alan aqroparklar isə texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 20 milyon manata yaxın həcmdə güzəşt əldə edib. Qeydiyyata alınan aqroparklarda 3720 nəfər daimi işlə təmin edilib, 4878 nəfər isə mövsümi işlərə cəlb olunub. Növbəti mərhələdə əlavə olaraq 1600-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Aqroparklar torpaq sahələrindən səmərəli istifadə olunması, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiqi üçün innovativ və əlverişli mexanizmdir. Bu baxımdan həmin müəssisələrin ərzaq təhlükəsizliyinin möhkəmlənməsində rolu getdikcə gücləndirilir, sahibkarlığın inkişafı, kiçik, orta və iri təsərrüfatların qarşılıqlı faydalı əməkdaşlığı üçün əlverişli platformaya çevrilməsinə xüsusi önəm verilir.

Ümumiyyətlə, son illərdə iqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən layihələr çərçivəsində elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan aqroparklar ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verib. Aqroparkların yaradılması aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində də əhəmiyyətli rol oynayıb.

Respublikada aqroparkların yaradılması ilə kənd təsərrüfatında keyfiyyətcə yeni mərhələ başlanıb. Ənənəvi təsərrüfatçılıq formalarından fərqli olaraq, bu müəssisələrin fəaliyyəti ilə istehsal, emal, saxlanma, logistika və satış zəncirinin vahid platformada birləşdirilməsi gerçəkləşib. Bu isə həm məhsuldarlığın yüksəlməsinə, həm istehsal xərclərinin azalmasına, həm də rəqabətqabiliyyətli məhsulların istehsalına əlverişli şərait yaradıb.

Müşavirədə qeyd olunduğu kimi, aqroparkların fəaliyyəti nəticəsində müasir texnologiyaların tətbiqi genişlənib, innovativ suvarma sistemləri istifadəyə verilib, yüksək məhsuldar toxum və tinglərdən istifadəyə diqqət artırılıb, kənd təsərrüfatı texnikasının tətbiqi geniş vüsət alıb. Nəticədə bir çox məhsullar üzrə məhsuldarlıq göstəriciləri ənənəvi təsərrüfatlarla müqayisədə əhəmiyyətli dərəcədə yüksəlib.

Aqroparkların digər üstünlüyü isə istehsal və emal sahələrinin inteqrasiyasını təmin edilməsi ilə bağlı olub. Bu model sayəsində məhsul təkcə xammal şəklində deyil, həm də emal prosesindən keçirilməklə daha yüksək əlavə dəyərə çevrilən formada bazara çıxarılıb. Beləliklə, həm fermerlərin gəlirləri çoxalıb, həm də ölkə iqtisadiyyatına əlavə valyuta axını təmin edilib.

## İxracyönümlü istehsal

Azərbaycanın aqrar ixracı son illərdə sabit artım nümayiş etdirir. Meyvə-tərəvəz, fındıq, pambıq və digər kənd təsərrüfatı məhsulları xarici bazarlarda ölkəmizin əsas ixrac məhsulları sırasındadır. Bununla belə, ixracın əhəmiyyətli hissəsinin məhdud sayda bazarlarda cəmləşməsi mövcud vəziyyət haqqında aydın təsəvvür yaradır. Məhz bu səbəbdən qarşıdakı illərdə ixrac bazarlarının şaxələndirilməsinin əsas prioritetlərdən biri olacağı qarşıda mühüm vəzifə kimi durur. Qlobal iqtisadi proseslər də göstərir ki, bazarların coğrafi müxtəlifliyi hər hansı xarici təsir və ya iqtisadi böhran zamanı risklərin minimuma endirilməsi üçün mühüm əhəmiyyət daşıyır.

Dövlət Proqramında qeyri-ənənəvi xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi xüsusi hədəf kimi müəyyən edilib. Bu istiqamətdə yerli məhsulların beynəlxalq sərgilərdə təqdim olunması, xarici ölkələrdə ticarət evlərinin fəaliyyətinin genişləndirilməsi, marketinq və brendləşdirmə tədbirlərinin gücləndirilməsi nəzərdə tutulub. Sənəddə yüksək əlavə dəyər yaradan məhsulların istehsalının artırılması da əsas məqsədlərdən biri kimi vurğulanıb. Dövlət Proqramında, eyni zamanda, dünya təcrübəsinə əsaslanılaraq aqrar məhsulların emal olunmuş şəkildə ixracının xammal ixracı ilə müqayisədə bir neçə dəfə çox gəlir gətirdiyi bildirilib. Buna görə də mütəxəssislər tərəfindən aqroparklar çərçivəsində emal müəssisələrinin yaradılması və inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyan prioritet kimi dəyərləndirilib.

2026-2030-cu illəri əhatə edən sözügedən Dövlət Proqramında ixracyönümlü aqrobizneslərin inkişafı üçün bir sıra yeni dəstək mexanizmlərinin tətbiqi də nəzərdə tutulub. İlk növbədə, ixracın təşviqi üzrə ünvanlı dəstək mexanizmlərinin yaradılması planlaşdırılıb. Bu mexanizm istehsalçıların xarici bazarlara çıxış imkanlarını genişləndirməyə, onların beynəlxalq rəqabət qabiliyyətini artırmağa hesablanıb. Bununla yanaşı, aqrar istehsal və emal müəssisələrinin enerji, qaz, su və digər kommunal xidmətlərə çıxış imkanlarının genişləndirilməsinin diqqətdə saxlanılması qərara alınıb və bu məsələ mütəxəssislər tərəfindən müasir kənd təsərrüfatının dayanıqlı inkişafı üçün etibarlı infrastruktur təminatında həlledici amillərindən biri olaraq yüksək qiymətləndirilib.

Sənəddə istixana təsərrüfatlarının inkişafına da mühüm önəm verilir. Belə ki, yeni Dövlət Proqramına əsasən, ölkə üzrə 250 hektar yeni istixananın yaradılması nəzərdə tutulur. Onlardan 122 hektarının Şərqi Zəngəzur iqtisadi rayonunda qurulması planlaşdırılır. Eyni zamanda, fəaliyyətini dayandırmış 250 hektar istixananın modernləşdirilməsi də qarşıya mühüm vəzifə kimi qoyulur. İstixanalar ilboyu istehsalın təmin edilməsində, ixrac potensialının artırılmasında və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynayır. Xüsusilə qış aylarında xarici bazarlara məhsul ixracının davam etdirilməsi baxımından istixana təsərrüfatları böyük iqtisadi əhəmiyyətə malikdir.

Dövlət Proqramında intensiv bağların genişləndirilməsi də mühüm prioritet kimi müəyyən olunub. Bu məsələdə ölkə üzrə intensiv bağların ümumi sahəsinin 70 min hektara çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub. Şübhəsiz ki, aqroparkların fəaliyyətində də bu amil həmişə önə çəkilib. Çünki bu təsərrüfatlarda intensiv bağçılığın inkişafı müasir aqrar texnologiyalara əsaslanan və yüksək məhsuldarlıq təmin edən təsərrüfatçılıq modeli olaraq yüksək qiymətləndirilib. Bu prinsip üzrə son illərdə yaradılan bağlarda hər hektardan əldə olunan məhsul ənənəvi bağlarla müqayisədə bir neçə dəfə çox olub. Suya qənaət, məhsulun keyfiyyət göstəricilərinin yüksəlməsi və ixrac imkanlarının genişlənməsi intensiv bağçılığın əsas üstünlükləri hesab edilib.

Azərbaycanın iqlim şəraiti və torpaq ehtiyatları alma, armud, şaftalı, gilas, alça, nar, fındıq və digər məhsulların intensiv üsullarla yetişdirilməsi üçün əlverişli imkanlar yaradır. Bu potensialdan səmərəli istifadə həm daxili bazarın təminatını gücləndirir, həm də ixrac gəlirlərinin artmasına xidmət edir.

## Sertifikatlaşdırma və brendləşdirmə

Müasir dövrdə aqrar məhsulların beynəlxalq bazarlarda rəqabət qabiliyyəti təkcə məhsulun keyfiyyəti ilə bağlı deyil, həm də onun beynəlxalq standartlara uyğunluğu ilə müəyyənləşdirilir. Bu baxımdan aqroparklarda sertifikatlaşdırma məsələsi xüsusi əhəmiyyət kəsb edir. Elə buna görə də Dövlət Proqramında hər il ən azı iki istehsalçının qlobal bazarlarda tanınan sertifikatlar əldə etməsinin dəstəklənməsi nəzərdə tutulur. Bu sertifikatlar, eyni zamanda, məhsulların Avropa, Yaxın Şərq və digər inkişaf etmiş bazarlara çıxışını asanlaşdırır.

Sertifikatlaşdırma ilə yanaşı, yerli məhsulların brendləşdirilməsi də prioritet istiqamətlərdən biridir. Azərbaycanın narı, fındığı, xurması, çayı, zəfəranı, şərab məhsulları və digər kənd təsərrüfatı məhsulları artıq bir sıra ölkələrdə tanınır. Qarşıdakı dövrdə regional brend statusu əldə etmiş məhsulların sayının artırılması nəzərdə tutulur. Brendləşdirmə məhsulların bazar dəyərinin yüksəldilməsi, istehlakçı etimadının formalaşdırılması və ixrac gəlirlərinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Dövlət Proqramında aqroparkların yeni inkişaf modelinə keçidinin dəstəklənməsi də nəzərdə tutulur. Bu model aqroparkların istehsal mərkəzi olmaqla bərabər, həm də innovasiya, elmi-tədqiqat və texnologiya transferi platformaları kimi fəaliyyət göstərmələrini hədəfləyir. Yeni yanaşma çərçivəsində rəqəmsal texnologiyaların tətbiqi, ağıllı kənd təsərrüfatı sistemlərinin inkişafı, peyk müşahidələri və süni intellekt əsaslı idarəetmə mexanizmlərinin genişləndirilməsi nəzərdə tutulur.

Məqsəd aqroparkları regionların iqtisadi inkişafının əsas hərəkətverici qüvvəsinə çevirmək, kənd yerlərində məşğulluğu artırmaq və aqrar sahənin rəqabət qabiliyyətini daha da yüksəltməkdir. Bununla yanaşı, qarşıda duran bir sıra çağırışlar da mövcuddur. Xarici bazarlarda rəqabətin gücləndirilməsi, beynəlxalq standartlara uyğunlaşma çətinliklərinin, logistika və kommunal infrastruktur məhdudiyyətlərinin aradan qaldırılması aqrar ixracın inkişafına təsir göstərə biləcək amillər sırasındadır.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**

Torpaq sahələrindən səmərəli istifadə olunması, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiqinə üstünlük verilməsi üçün aqroparklar innovativ və əlverişli mexanizmdir. Bu baxımdan onların ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində rolu daha da gücləndirilməli, belə müəssisələr sahibkarlığın inkişafı, kiçik, orta və iri təsərrüfatların qarşılıqlı faydalı əməkdaşlığı üçün əlverişli platformaya çevrilməlidir. Belə bir yanaşma çərçivəsində rəqəmsal texnologiyaların fəaliyyətinə üstünlük verilməsi, “ağıllı” kənd təsərrüfatı sistemlərinin inkişafı etdirilməsi, peyk müşahidələri və süni intellekt əsaslı idarəetmə mexanizmlərinin genişləndirilməsi diqqətdə saxlanılmalıdır.

Aqroparkların üzləşdiyi ən mühüm risklərdən biri isə iqlim dəyişiklikləridir. Qlobal istiləşmənin nəzərə çarpması, su ehtiyatlarının azalması, quraqlıq hallarının artması və ekstremal hava hadisələrinin baş verməsi kənd təsərrüfatının dayanıqlılığına təsir göstərə bilər. Bu risklərin neytrallaşdırılması məqsədilə Dövlət Proqramında subsidiya və dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, fermerlərin maarifləndirilməsi, ixrac bazarlarının şaxələndirilməsi, innovativ və resursqoruyucu texnologiyaların tətbiqinin təşviqi nəzərdə tutulur. Xüsusilə damcı suvarma sistemlərinin tətbiqi, su ehtiyatlarından səmərəli istifadə, iqlimə davamlı bitki sortlarının yetişdirilməsi və rəqəmsal aqrar idarəetmə sistemlərinin genişləndirilməsi gələcək dövr üçün mühüm vəzifələrdən hesab olunur.

2026–2030-cu illər üçün müəyyənləşdirilən hədəflər göstərir ki, dövlət siyasətinin əsas məqsədi kənd təsərrüfatı istehsalını artırmaqla yanaşı, yüksək əlavə dəyər yaradan, innovativ texnologiyalara əsaslanan və beynəlxalq bazarlarda rəqabət aparmaq gücünə malik müasir aqrobiznes mühitini formalaşdırmaqdır. Bu baxımdan aqroparklar və ixracyönümlü aqrobiznes modeli Azərbaycanın qeyri-neft iqtisadiyyatının inkişafında, regionların sosial-iqtisadi yüksəlişində, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində və ölkənin ixrac gəlirlərinin artırılmasında mühüm rol oynayacaq strateji inkişaf platforması kimi çıxış edir. Beləliklə, qarşıdakı illərdə həyata keçiriləcək layihələr Azərbaycanı regionun qabaqcıl aqrar istehsal və ixrac mərkəzlərindən birinə çevirmək üçün möhkəm zəmin yaradır.

# Ölkənin orta məktəblərində növbəti məzun şənlikləri

**Ömrün ən şirin duyğulu, qayğısız günləri məktəb illəridir. Şagirdlərin ilk dəfə ürkək addımlarla qədəm qoyduqları sinif otaqları, hər kəlməni səbirlə öyrədən müəllimlərin nurani çöhrəsi yaddaşlarda ən əziz, unudulmaz xatirələ kimi yaşayır.**

Bu gün də minlərlə şagird üçün bu şirin nağılın son səhifəsi vərəqlənir. 4 min 194 ümumtəhsil məktəbindən 116 min 550 nəfər məzun olur. Zamanın necə sürətlə axıb keçdiyini, bəlkə də, ən çox bu ərəfədə, övladlarının boya-başa çatmasını görən valideynlərin və ömrünü bu yola şam edən müəllimlərin qürurlu baxışlarında görmək mümkündür.

Məktəbdəki hazırlıq həyəcanını qələmə almaq üçün uşaqlığın son, gəncliyin isə ilk dayanacaqlarına üz tutduq. Elə şagirdlərin də, müəllimlərin də gözlərində həm ayrılıq nisgili, həm də gələcəyin xoş həyəcanı vardı. Sanki zamanı qabaqlamaq istəyir, "son zəng"in çalınacağı anı səbirsizliklə gözləyirdilər.



**Fayaz HÜSEYNOV,**
**189-190 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru:**

– 11 il əvvəl bu məktəbin astanasından içəri ilk qədəmlərini qoyan körpə uşaqlar indi yetkin fərd olaraq qarşımızda dayanıblar. O vaxt hələ dünyanı dərk etməyə çalışan, hər hansı bir elmi və ya həyati bacarığı formalaşmamış o körpələr bu gün məktəbimizi kamil, savadlı və bilikli gənc kimi başa vururlar.

Bu il məktəbimizdən 142 şagird məzun olur. Sevindirici haldır ki, onların böyük əksəriyyəti ali məktəblərə qəbul imtahanlarında olduqca yüksək nəticələr göstəriblər. Hər il məzunlarımızın 90-95 faizi yüksək ballarla universitetlərə qəbul olunurlar. Bu il də ənənə pozulmadı. Hətta xarici ölkələrin nüfuzlu təhsil ocaqlarından, o cümlədən Edinburq Universitetindən qəbul alan şagirdimiz var. Bizə bu qüruru yaşadan məzunumuz Səbinə Şahzadə "Sabahın alimləri" layihəsinin qalibidir.

Böyük bir ümidlə inanırıq ki, builki məzunlarımız da gələcəkdə doğma Azərbaycanımızın tərəqqisi naminə öz bilik və bacarıqlarını əsirgəməyəcək, bu şərəfli estafeti layiqincə davam etdirəcəklər.



**Cəlal MƏHƏRRƏMOV,**
**məzun:**

– Artıq 9 ildir ki, bu doğma təhsil ocağındayam. İçimdə qəribə, çox böyük sevinc və həyəcan var, çünki yeni həyata qədəm qoyuram. Bu illər ərzində özümə sadiq dostlar qazanmışam, gələcək üçün böyük təcrübələr toplamışam. Menecment sahəsi üzrə təhsil almağı hədəfləyirəm. Bütün yoldaşlarıma uğurlar arzulayıram.

**Aylin ÖMƏROVA,**
**məzun:**



– Bu günə qədər nə vaxtsa məktəbi bitirəcəyimi, sinif otaqlarından uzaqlaşacağımı heç vaxt xəyal etməmişdim. Ayrılıq gününü heç düşünmədiyim üçün indi içimdə çox qəribə, bənzərsiz duyğular baş qaldırır. İmtahan, ayrılıq həyəcanı, sanki, sərasər yarışır.

Hüquq fakültəsinə hazırlaşıram. Ən böyük arzum və hədəfim hüquqşünas olmaq, bu fəxri kürsüdə ədalətin keşiyində dayanmaqdır.



**Məryəm TAĞIZADƏ,**
**məzun:**

– İllərlə çəkdiyim zəhmətin, kitablar arxasında keçən yuxusuz gecələrin bəhrəsini 600-dən yuxarı bal toplayanda gördüm. Bu uğur təkcə mənim deyil, ilk gündən əlimdən tutub həm elmin sirlərini, həm də həyatın gözəlliklərini öyrədən fədakar müəllimlərimin, hər an yanımda olan əziz ailəmin ortaq zəfəridir. Bizdən sonra gələn gənc nəsillərə, bu partalar arxasında əyləşən kiçik dostlarıma demək istəyirəm ki, arzularının ardınca getməkdən heç vaxt çəkinməsinlər, çünki böyük zəhmətin sonu hər zaman sevinclə bitir.



**Fuad SƏFƏRLİ,**
**məzun:**

– Ən böyük amalım, cəmiyyətdə qanunun aliliyini, ədalətin və haqqın sarsılmaz keşiyini çəkən savadlı, dövlətinə və millətinə sadiq hüquqşünas kimi yetişməkdir. Bizə inanan, bizdən öz dəstəyini əsirgəməyən əziz müəllimlərimə sonsuz təşəkkürümü bildirirəm.

***

**46 nömrəli tam orta ümumtəhsil məktəbi də bizi eyni həyəcanla qarşıladı...**



**Sevinc BUDAQOVA,**
**46 nömrəli tam orta ümumtəhsil məktəbinin direktou:**

– Məktəbimiz 1937-ci ildən fəaliyyət göstərir. Tədris həm Azərbaycan, həm də rus dilində aparılır və 80-dən artıq fədakar müəllim kollektivi gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur.

Bu il 113 nəfər məzunumuz var. Artıq uğurlarımızın ilkin sədaları gəlməkdədir; məzunlardan 4 nəfəri fərqlənmə attestatına namizəddir, 24 şagirdimiz isə buraxılış imtahanlarında 200-dən, 250-dən yuxarı ballar toplayaraq bizi qürurlandırıblar. Yeri gəlmişkən, builki məzunlarımız üçün gözəl yenilik də var: onlar artıq attestatlarını elektron qaydada əldə edəcəklər.

Deyərdim ki, bu məktəb tolerantlığın və multikulturalizmin bariz nümunəsidir. Belə ki, burada yəhudi uşaqları üçün ivrit dilinin, yəhudi xalqının tarixinin və mədəniyyətinin əsaslarının tədris olunduğu xüsusi siniflər fəaliyyət göstərir. Bu siniflərdə həm Azərbaycan vətəndaşları, həm də ölkəmizdə yaşayan xarici vətəndaşlar rus bölməsi üzrə təhsil alırlar. Biz məktəb daxilində hansısa milli fərqliliyi heç vaxt hiss etmirik, bütün bayramlarımızı bir yerdə qeyd edirik.

İstəyirəm ki, şagirdlər vətənimizə layiqli övlad olsunlar. Əsas odur ki, həyat yollarını, seçəcəkləri peşəni düzgün müəyyənləşdirsinlər. İstər Azərbaycanda, istərsə də xarici ölkələrdə hər zaman elmin ardınca getsinlər, yaxşı mütəxəssis olsunlar. Amma ən böyük arzum budur ki, ilk növbədə, yaxşı insan olmağı bacarsınlar. Yolunuz açıq, gələcəyiniz işıqlı olsun, əziz məzunlar!



**İsa MƏMMƏDLİ,**
**məzun:**

– Özümü dərk edəndən dövlətlərarası əlaqələrin sirlərini anlamağa böyük marağım olub. Məhz bu maraq və daxili bağlılıq məni gələcək peşə seçimimdə ən doğru ünvana – beynəlxalq münasibətlər sahəsinə istiqamətləndirdi.

Arxada qalan illər ərzində müəllimlərimin mənə aşıladığı biliklər, vətənpərvərlik hissi və bu doğma divarlar arasında qazandığım dünyagörüşü gələcək tələbəlik həyatımda mayak olacaq. Bu gün məzun adını daşımağın qürurunu yaşayarkən, üzərimdə böyük əməyi olan fədakar müəllimlərimə və hər zaman yolumu işıqlandıran əziz ailəmə sonsuz minnətdarlığımı bildirirəm.



**11 il eyni parta arxasında əyləşən əkiz bacılar – Naidə və Naibə doğma məktəblə vidalaşarkən kövrək və qürur dolu hisslərini bizimlə paylaşdılar:**

– Hər gün eyni evdən çıxıb, eyni sinif otağına tələssək də, gələcək arzularımız, hədəflərimiz bizi fərqli yollara istiqamətləndirdi. Birimiz dəqiq elmləri, mühəndislik və texnologiya dünyasını, birimiz də insan sağlamlığının keşiyində dayanmağı seçmişik.

İndi həyatımızın tamamilə yeni, fərqli və məsuliyyətli bir mərhələsindəyik. Yollarımız ayrı-ayrı auditoriyalara uzansa da, məktəbdə qazandığımız tərbiyə və mənəvi dəyərlər hər ikimizin yolunu eyni dərəcədə işıqlandıracaq. Bütün məzunlara bol uğurlar arzu edir, onların sevincinə şərik oluruq.

Məktəb həyətindəki səslər yavaş-yavaş səngiyir, rəngli şarlar mavi səmaya doğru ucalır, gənclər isə illərdir addımladıqları o doğma pilləkənlərlə sonuncu dəfə enirlər. Bu pəncərələrdən boylanan uşaqlıq xatirələri arxada qalır, qarşıda isə onları tamamilə yeni, hələ yazılmamış ağ səhifə gözləyir.

Yolunuz açıq, bəxtiniz işıqlı olsun, orta məktəb məzunları.

*Fidan ƏLİYEVA*
*XQ*

# Əlvida, doğma universitet!



**İyunun 12-də Milli Gimnastika Arenasında Bakı Dövlət Universitetinin (BDU) "Məzun Günü" keçirilib.**

Əvvəlcə Milli Müdafiə Universitetinin Hərbi İnstitutunun orkestrinin ifasında Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda mübarizədə canından keçən şəhidlərimizin əziz xatirəsi anılıb.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, 107 il əvvəl cəmi iki fakültə, 44 nəfərlik professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan universitet bu gün regionun aparıcı ali təhsil müəssisələrindən birinə çevrilib. 25 mindən artıq tələbənin təhsil aldığı, 1500 nəfər professor-müəllim heyətinin çalışdığı təhsil müəssisəsi təkcə ölkəmizdə deyil, regionun aparıcı universiteti kimi sürətlə inkişaf edir.

Elm və təhsil nazirinin müavini İdris İsayev bu il ölkəmizin ali təhsil müəssisələrindən 63 mindən artıq tələbənin məzun olduğunu söyləyib. O bildirib ki, ölkəmizdə təhsildə insan kapitalının inkişafına ciddi diqqət yetirilir.

Milli Məclisin sədr müavini, akademik Rafael Hüseynov BDU-nun Azərbaycan dövlət müstəqilliyinin ilk bəhrələrindən biri kimi tarixə düşdüyünü söyləyib. O bildirib ki, ölkənin əldə etdiyi uğurların təməlində BDU-nun yetişdirdiyi kadrların zəhməti dayanır.

Mədəniyyət naziri Adil Kərimli, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Koreya Respublikasının ölkəmizdəki səfiri Kımqu Kanq, İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru Yusuf Baran və başqaları universitetin Azərbaycanın



ictimai-siyasi həyatındakı önəmindən danışıb, məzunlara təbriklərini çatdırıblar.

Sonra universitet tələbələrinin ifasında BDU-nun himni səsləndirilib.

Mərasimdə Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) yüksək olan və xüsusi fəallığı ilə seçilən 34 məzuna sertifikat və hədiyyələr təqdim edilib.

Məclis konsert proqramı ilə davam edib.

*Q.ƏLİYEV*
*XQ*

# Zəngilanda "Son zəng" sevinci

**Böyük Qayıdışın ilk tədris ocaqlarından biri olan Ağalı kənd tam orta ümumtəhsil məktəbində bu il "Son zəng" şənliyi xüsusi coşqu ilə qeyd olunur. Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən məktəbdə məzunlar həm məktəb həyatının başa çatmasının sevincini, həm də doğma yurda qayıdışın yaratdığı qürur hissini birlikdə yaşayırlar.**



Məktəb həyatını uğurla başa vuran məzunlar gələcəyə böyük ümidlə baxırlar. Onlar müəllimlərinə və valideynlərinə təşəkkür edir, qazandıqları bilik və təcrübənin gələcək həyat yollarında onlara bələdçi olacağına inanırlar. İşğaldan azad edilmiş rayonda qayıdış sevinci ilə böyüyən gənclər doğma yurdların inkişafına töhfə vermək arzusu ilə daha xoş sabaha üz tutublar.

Prezident İlham Əliyevin bu il may ayının 10-da Zəngilan şəhərində inşa olunmuş yeni yaşayış binalarında mənzillərin açarlarının keçmiş məcburi köçkünlərə təqdim etməsi və sakinlərin doğma torpaqlarına qayıdışı bölgənin sosial-iqtisadi inkişafına təkan verib. Dövlət Məşğulluq Agentliyinin nümayəndələri də mütəmadi olaraq yerli sakinlərlə görüşlər keçirir, yeni iş imkanları barədə məlumat verir və kadr seçimini həyata keçirirlər. Bu səbəbdən tədbirdə iştirak edənlərin simasında hiss olunan sevinc yalnız məzunların deyil, həm də onların ailələrinin, müəllimlərinin və bütün rayon ictimaiyyətinin sevincidir.

Hazırda məktəbdə 292 şagird təhsil alır və onlardan 7 nəfəri bu gün məzun adını qazanıb. Söhbət zamanı onların gələcəklə bağlı arzu-istəklərini də öyrəndik.

İlkin Abdulzadə bildirdi ki, 4 ildir Ağalı kənd məktəbində təhsil alır. O, əvvəllər Bakının Binəqədi rayonunda yerləşən R.Əliyev adına 3 nömrəli tam orta məktəbdə oxuyub. Gələcəkdə ali təhsil almağı planlaşdırır.

Sona Həsənli Sabunçu rayonunda yerləşən 78 nömrəli məktəbdə təhsil alıb, ailəsi doğma yurda – Ağalıya qayıtdıqdan sonra kənd məktəbində oxuyub. O, gələcəkdə fransız dili üzrə tərcüməçi olmaq istəyir.

Vüsal Abdulzadə Sumqayıt şəhərindəki 25, Tunar Ağalarov isə 9 nömrəli tam orta məktəbdə oxuyub. Vüsal peşə təhsili almaq arzusundadır. Tunar isə gələcəkdə sürücü işləmək istəyir.

Zəhra İbrahimli Bakının Zabrat qəsəbəsində fəaliyyət göstərən 36 nömrəli tam orta məktəbdə bir müddət oxuduqdan sonra təhsilini Ağalı kənd məktəbində davam etdirib. O, sosial sahədə fəaliyyət göstərməyi düşünür.

Alim Məmmədli Suraxanı rayonunun Ramana qəsəbəsində yerləşən 6 nömrəli məktəbdə oxuyub. Onun ən böyük arzusu gələcəkdə peşəkar dizayner olmaqdır.

Ağalı kənd məktəbində keçirilən "Son zəng" tədbiri bir daha göstərir ki, Böyük Qayıdış təkcə insanların doğma torpaqlarına qayıtması deyil, həm də yeni nəslin öz gələcəyini məhz bu torpaqlarla qurmaq əzminin ifadəsidir.

*Mikayıl NƏRİMANOĞLU,*
*XQ-nin bölgə müxbiri*

# Meksikanın qələbə startı

## *ABŞ və Kanada marafonu davam etdirəcəkmi?*

**Planetin ən böyük futbol tamaşası dünən öz tarixinin ikinci gününə qədəm qoydu. Amma yazımıza ilk matçların şərhi ilə başlamaq istərdik. Mexiko şəhərindəki "Estadio Asteka" stadionunda keçirilən açılış matçında ev sahibi Meksika Cənubi Afrika Respublikası millisini 2:0 hesabı ilə məğlub etdi. Matçı diqqət mərkəzinə çəkən təkcə bu əfsanəvi stadiondakı möhtəşəm açılış mərasimi deyil, həm də braziliyalı hakimin matçda ardıcıl üç qırmızı vərəqə göstərməsi oldu.**



Ev sahibləri 9-cu dəqiqədə CAR millisinin müdafiəçisi Yaya Sitolenin səhvindən sonra hesabda irəli çıxdılar. Hulian Kinones cərimə meydançasının kənarından güclü zərbə ilə 2026-cı il Dünya çempionatının ilk qolunu vurdu.

Cənubi afrikalıların güclü müqaviməti, bizim də ötən yazımızda qeyd etdiyimiz kimi, heç nəyi dəyişmədi. Birinci hissədəki minimal hesab matçın 67-ci dəqiqəsinə qədər davam etdi. CAR millisi qırmızı vərəqə alması səbəbindən azlıqda oynayırdı. Matçın 67-ci dəqiqəsində oyunun ən yaxşılarından olan meksikalı forvard Raul Ximenes cinahdan çərçivənin qarşısına edilən hava ötürməsini başla qapıya göndərdi və hesabı 2:0 etdi. 84-cü dəqiqədə CAR millisinin 3 nömrəli müdafiəçisi Themba Zvane rəqibinin üzünə yumruq vurduqdan sonra qarşısında qırmızı kart gördü. CAR komandası doqquz nəfərlə qaldı.

Lakin qırmızı vərəqələr bununla bitmədi. Əlavə vaxtda meksikalı mərkəz müdafiəçisi Sezar Montes sürətlə cərimə meydançasına şığıyan rəqibi kobud fəndlə yerə yıxdı və dərhal da braziliyalı hakim Uilton Sampaiodan qırmızı vərəqə aldı. Amma bu, heç nəyi dəyişmədi, turnirə ev sahibliyi edən Meksika layiq olduğu qələbəni qazandı və elə ilk oyundan sonra kvartetin birincisi oldu.

A qrupunun növbəti oyunu – Cənubi Koreya və Çexiya matçı dünən sübh tezdən başladı. Qarşılaşmanın ya qol yağışı ilə başa çatacağı, ya da qolsuz heç-heçə olacağı gözlənilirdi. Hər iki komanda müdafiə futbolu oynadıqları üçün əks-hücumlara daha çox diqqət yetirirdilər.

Bu oyun əlamətdar bir hadisə ilə yadda qaldı. Çexiya millisinin baş məşqçisi Miroslav Kubek komandasını Dünya çempionatı matçına çıxaran ən yaşlı məşqçi oldu. Oyun günü onun yaşı 74 il 9 ay idi. Kubek komandasını Meksika ilə oyuna çıxaran və həmin gün yaşı 74 il 2 ay olan CAR millisinin belçikalı məşqçisi Huqo Brosun rekordunu qırdı. Amma bu rekordun da ömrü uzun olmayacaq. Çünki turnirin yeni rekordçusunun, sentyabr ayında 79 yaşı tamam olacaq Kyurasao



millisinin baş məşqçisi Dik Advokat olacaq.

Cənubi Koreya – Çexiya oyunu Qvadalaxara bölgəsindəki Sapopan şəhərində keçirilirdi. Bura yazda öz lideri "El Menço"nun sui-qəsdindən sonra küçə döyüşləri aparan "Haliskonun yeni nəsli" narkotelinin "mənzil-qərargahı"nın yerləşdiyi şəhərdir. Amma görünür, Meksika təhlükəsizlik qüvvələri 2026-cı il Dünya çempionatı başlayana qədər vəziyyəti sabitləşdirə bildilər - ölkə turnirin təhlükəsizliyini təmin etmək üçün tam 100 min polis və hərbi qulluqçu ayırıb.

Komandaların start heyətləri elə də təəccüblü deyildi. Koreyalılar Son Hınq Min, Li Kanq İn və Li Ce-Sunq da daxil olmaqla, demək olar ki, bütün əsas oyunçularını meydana çıxardılar. Yeganə çatışmayan oyunçu fasilədən sonra meydana buraxılan Hvanq Hi-Çan idi. Çexlərin yeganə diqqətəlayiq əlavəsi Soykanın dayaq yarımmüdafiəsində görünməsi oldu. Yuraşekanın isə sol cinah müdafiəçisi kimi oyuna başlayacağı gözlənsə də, onun əvəzinə Zelen meydana çıxmışdı.

İlk hissə skeptiklərin gözləntilərini qismən doğrultdu. Komandalar topa bərabər sahiblik və cərimə meydançasında minimal toxunuşla diqqət çəkdilər. Cənubi Koreya 8, Çexiya isə 4 dəfə zərbə endirə bildi. Statiskadan da göründüyü kimi, Cənubi Koreya hücumlarda daha kəskin görünürdü. Amma komandalar fasiləyə bərabər hesabla çıxdılar.

İkinci hissədə "Asiya pələngləri" daha baxımlı oyun nümayiş etdirirdilər. Onlar fasilədən cəmi 3 dəqiqə sonra hesabı açmalı idilər. Lakin çexlərin qapıçısı Kovarj buna imkan vermədi. Koreyalıların kəskin oyununa baxmayaraq, hesabı çexiyalı futbolçular açdılar. 59-cu dəqiqədə Çexiya korner qazandı və qapı önünə yüksələn topu Lado Kreyçi başla uzaq küncə göndərdi: 0:1!

Avropalıların üstünlüyü uzun sürmədi. Koreyalılar 67-ci dəqiqədə hesabı bərabərləşdirdilər - Li Kanq-İn Hvanq İn-Bemdən



aldığı ötürməni gözəl fəndlə cərimə meydançasında Qranaçı aldadıb Kovarjı məyus edə bildi: 1:1!

80-ci dəqiqədə "Asiya pələngləri" hesabda irəli çıxmağı bacardılar. Hvanq İn-Bem cərimə meydançasının sağ kənarında ötürmə aldı və onun qapı önünə kəskin ötürməsini Hyon-Qyu O əla tamamladı! Yeri gəlmişkən, o, bir qədər əvvəl Sonu əvəzləmişdi, buna görə də məşqçiyə əhsən düşür. Matç bu hesabla da tamamlandı.

Cənubi Koreya komandasının bu qələbə sayəsində qazandığı 3 xal onları qrupda 2-ci sıraya çıxardı. İlk matçdan sonra "Asiya pələngləri" Meksika ilə bərabər xala malikdirlər.

Bu qələbə ilə Cənubi Koreya ilk 3 xalını qazandı və turnirin ev sahibi Meksika ilə növbəti oyunundan əvvəl pley-offa yüksəlmək şanslarını xeyli artırdı. Altı oyunluq məğlubiyyətsiz seriyasına son qoyan Çexiya isə Cənubi Afrika millisinə qarşı matçda özünü doğrultmağa çalışacaq.

Dünən və bu gün səhər isə azarkeşlər 2026-cı il Dünya çempionatının daha 2 matçını seyr ediblər. Birinci matç turnirin daha bir ev sahibi olan Kanada ilə Bosniya və Hersoqovina milliləri arasında keçirilib. Bu matçlar qəzetimiz çapa gedəndən çox sonralar başa çatdığı üçün komandalar və oyunlar haqqında bəzi qeydlərimizi oxucularımıza çatdırmaq istədik.

Dünya çempionatının bir ev sahibi də Kanadanın olacağını eşidəndə, doğrusu, çox təəccüb etmişdim. Niyə? Azarkeşlər yaxşı bilirlər ki, dünyada futbol milləti adlanan bir şey var. Bu, adətən Braziliya, Argentina, Almaniya, bu oyunun atası olan İngiltərə kimi ölkələrə aiddir. Çünki futbol mahiyyət etibarilə onların nəfəs aldıqları hava, milli DNT-nin bir hissəsidir.

Kanada heç vaxt bu siyahıya düşməyib. Səmimi deyək ki, az adam onun bir gün bu siyahıya daxil olacağını gözləyirdi. Hokkey, lakros, qış arenaları, NHL, sonsuz açıq məkanlar - bunlar Kanada idmanı ilə tanış assosiasiyalardır. Futbol bu ölkədə uzun müddət ikinci dərəcəli idman növü kimi görünürdü. Amma bu ölkədə dünyanın müxtəlif ölkələrindən gələn diasporlar və onların uşaqları futbol topunu və onunla bərabər futbola sevgini bura gətiriblər. Sonra, necəsə, səssizcə, atəşfəşanlıq və ya təntənəli çıxışlar olmadan nəsə dəyişdi.

Budur, 2026-cı il iyunun 12-də Kanada milli komandası ilk dəfə Torontoda Dünya çempionatının matçını öz doğma Vətənində oynayacaq. Buradan belə bir sual doğur: axı, bu futbol haradan gəldi?

Bu ayrı bir söhbətin və məqalənin mövzusudur. İndi Kanada millisinin doğma Vətəndə meydana çıxacaq Dünya çempionatının ilk oyununda nələr baş verə biləcəyindən söz açaq.

2026-cı il Dünya çempionatının B qrupuna Kanada, Bosniya və Herseqovina, Qətər və İsveçrə daxildir. Kanada ilə Bosniya və Herseqovina arasında Torontodakı "Bi-Em-O Field" stadionunda keçirilən oyun Bakı vaxtı ilə saat 23:00-da başladı. Bu, Kanada millisinin Dünya çempionatlarının finalında 3-cü iştirakıdır. Son Dünya çempionatlarında Kanada millisi üçün işlər heç də yaxşı getmirdi: həm 1986-cı ildə Meksikada, həm də sonuncu dəfə, 2022-ci ildə Qətərdə komanda öz qrupundakı üç oyunun hamısında məğlub olmuşdu.

Amma indi bu komandadan gözləntilər böyükdür, çünki millinin futbolçuları son bir ildə yalnız bir oyunda məğlub olublar. Bu müddətdə onlar keçirdikləri oyunların 6-da qələbə qazanıb, 7 heç-heçə ediblər. Doğrudur, keçən yay KONKAKAF Qızıl Kubokunun dörddəbir finalında Qvatemalaya uduzduqdan sonra, kanadalılar yalnız yoldaşlıq oyunları keçiriblər.

Bu ilin martında isə Torontoda onlar final turnirində iştirak edən həm İslandiya, həm də Tunis ilə heç-heçə ediblər. Dünya çempionatının başlamasından bir az əvvəl isə Kanada turnirin digər iştirakçıları Özbəkistanı 2:0 məğlub edib və İrlandiya ilə 1:1 hesablı heç-heçə oynayıb.

Ev sahiblərinin rəqibi Bosniya və Herseqovina millisi isə Yuqoslaviyanın dağılmasından bəri Dünya çempionatının final mərhələsinə ikinci dəfə çıxıb. On iki il əvvəl Braziliyada komanda tarixən Kanadadan daha yaxşı nəticə göstərməsinə baxmayaraq, qrup mərhələsindən irəliyə gedə bilməmişdi: 2 məğlubiyyət, 1 qələbə qazanmışdılar.

Mütəxəssislər bildirirlər ki, Bosniya və Herseqovina Kanadanın kapitanı və ulduz oyunçusu Alfonso Devisin zədə səbəbindən açılış matçını buraxacağından faydalana bilər. Lakin müşahidəçilərin qeyd etdiyi kimi, bosniyalılar ən çox "Maple Leafs"in bütün zamanların ən çox qol vuran oyunçusu Conatan Deviddən narahat olmalı idilər. Balkan komandasının da güclü qol silahı var və bu, seçmə mərhələdə altı qol vuran 40 yaşlı əfsanə Edin Dzekodur.

Kanada millisini, az da olsa, matçın favoritinə çevirən bir məqam da doğma meydan amili idi. Onların bu amildən necə faydalandığı meydanda elə də gözə dəymirdi. Futbol mütəxəssisləri oyundan əvvəl bildirirdilər ki, doğma meydan amili oyuna və nəticəyə təsir göstərə bilər.

Amma Bosniya və Herseqovina millisinin imkanlarını heç də zəif deyildi. Bu komanda Kanadanı məğlub etməyə qadir idi. Məşqçi Sergey Barbazesin güclü bir komanda topladığı aydın görünürdü. Sassuolodan Tarik Muharemoviç və Zalsburqdan Kerim Alajbegoviç kimi gənc və istedadlı oyunçular, eləcə də Edin Dzeko və Sejad Kalosinac kimi təcrübəli futbolçular gözəl oyun nümayiş etdirirdilər. Bosniya və Herseqovinanın qrupu o qədər də güclü hesab olunmur, ona görə də pley-offa çıxmaq üçün şansları yaxşıdır. Komandanın bu turnirdə ilk mərhələdə əsas prioriteti də elə budur.

Bu gün Bakı vaxtı ilə səhər saat 05:00-da Dünya çempionatının daha bir sahibi, D qrupunda yer alan ABŞ millisi Paraqvay komandası ilə münasibətləri aydınlaşdırırdı. Türkiyənin bu qrupda yer alması ABŞ-Paraqvay matçını qrupda ikinci yer uğrunda potensial mübarizəyə çevirirdi. ABŞ-ın ən yaxşı nəsillərindən biri bəlkə də bu ölkə millisi tarixinin ən yaxşı məşqçisi ilə Dünya çempionatında qələbə qazanmağa çalışacaq. Maurisio Poçettino, hətta cəsarətlə qalib gəlmək şansını bəyan etsə də, adama elə gəlir ki, bunun üçün ona "Donald Trampın köməyi" lazım gələcək…

Bu haqda qeydlərimizi növbəti sayımızda dərc edəcəyik.

***İlqar RÜSTƏMOV***
***XQ***

# "Media və insan hüquqları"




**Dünən Hüquq və İnsan Haqları İnstitutu Medianın İnkişafı Agentliyi ilə birgə media nümayəndələri üçün "Media və insan hüquqları" mövzusunda maarifləndirici məlumat sessiyası təşkil edib.**

"İnsan Hüquqları Aylığı" çərçivəsində keçirilən sessiyada məqsəd jurnalistlərin peşə fəaliyyətlərini həyata keçirərkən insan hüquqlarının qorunması sahəsində qüvvədə olan qanunvericiliyin tələbləri və etik davranış standartları barədə məlumatlılığının artırılması olub.

İnstitutun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə maarifləndirici tədbirlərin əhəmiyyətindən danışaraq bildirib ki, media nümayəndələri insan hüquqlarının təbliği və ictimai şüurun formalaşdırılması sahəsində mühüm rol oynayırlar. O qeyd edib ki, məhz media sahəsində insan hüquqlarına yanaşmanın mövcud vəziyyətini qiymətləndirmək məqsədilə institut tərəfindən müxtəlif media resurslarında yayımlanan materialların mütəmadi təhlili aparılır və monitorinqlər həyata keçirilir. Sədrin sözlərinə görə, təhlillərin nəticələri media nümayəndələrinin insan hüquqları sahəsində məlumatlılığının və peşəkar bacarıqlarının artdığını göstərsə də, hələ də bəzi xəbər materiallarında insan hüquqlarının qorunması və etik jurnalistika prinsiplərinin tətbiqi ilə bağlı əlavə diqqət tələb edən məqamlar müşahidə olunur.

Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli çıxışında insan hüquqlarının qorunması sahəsində medianın üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib. Bildirib ki, jurnalistlər informasiya hazırlayarkən və yayarkən insan hüquqlarına hörmət etməli, peşə etikası və qanunvericiliyin tələblərini üstün tutmalı, bu prinsipləri fəaliyyətlərinin ayrılmaz tərkib hissəsi kimi daim diqqətdə saxlamalıdırlar. İnsan hüquqlarının müdafiəsi və qorunması istiqamətində media nümayəndələrinin məsuliyyətli fəaliyyəti davamlı xarakter daşımalıdır.

Sessiyada institutun təlimçi-ekspertləri jurnalist fəaliyyətində daha çox rast gəlinən insan hüquqlarının pozulması və onların hüquqi nəticələri barədə ətraflı məlumat veriblər.

Sessiyanın sonunda iştirakçıların sualları cavablandırılıb, medianın fəaliyyətində insan hüquqlarına həssas yanaşmanın rolu və əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

***Q.YUSİFOĞLU***
***XQ***

# Yurdsevər ziyalı, istedadlı sənət adamı



**Dünən Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda tanınmış yazıçı, publisist, sənətşünas Əkrəm Qaflanoğlunun anadan olmasının 75 illiyinə həsr olunmuş yubiley mərasimi keçirilib.**

AYB-nin katibi Rəşad Məcid məclisi giriş sözü ilə açaraq bildirib ki, Əkrəm Qaflanoğlu 1951-ci ildə Quba rayonunun Səbətlər kəndində doğulub. Doğma kəndində orta məktəbi başa vurduqdan və hərbi xidmətdən sonra A.Zeynallı adına Bakı Musiqi Texnikumunda oxuyub, sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunda ali təhsil alıb. Əkrəm müəllim əmək fəaliyyəti dövründə Azərbaycan Yazıçılar Birliyində şöbə müdiri olub, "Vətən" Cəmiyyətində məsul vəzifələrdə çalışıb. O, sonrakı illərdə Nazirlər Kabinetində aparıcı məsləhətçi və Baş nazir müavininin köməkçisi işləyib.

Mərasimin aparıcısı, AYB-nin Quba filialının rəhbəri Ramiz Qusarçaylı qeyd edib ki, istedadlı qələm sahibi olan yubilyar sənədli və bədii kitabların müəllifidir. Onun topladığı gülməcə və digər çoxsaylı folklor nümunələri çoxsaylı yazı sahibini istedadlı tədqiqatçı və publisist kimi tanıdıb. Bu yazıların bir çoxu Azərbaycan mədəniyyət xadimlərinin həyat və fəaliyyətinə, xüsusi ilə də milli musiqimizə, ifaçılıq sənətinə həsr olunub.

AYB-nin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi Səlim Babullaoğu, Xalq artistləri Zümrüd Məmmədova və Fidan Hacıyeva, ədəbiyyatşünas, professorlar Asif Rüstəmli və Abid Tahirli, Xalq artisti Əli Nur, Əməkdar dövlət qulluqçusu İsrafil Qurbanov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu və başqaları Əkrəm Qaflanoğunun yurdsevər ziyalı, istedadlı musiqiçi və yazar olduğunu söylədilər, yubilyarın yüksək insani keyfiyyətlərindən söz açıblar.

***M.HACIXANLI***
***XQ***

# Qələbə müjdəli esselər



**"Litera" kitab evində müasir Azərbaycan ədəbiyyatının tanınmış siması, yazıçı-şair Qulu Ağsəsin "Saat 6-nı gözləyirəm" adlı yeni kitabının təqdimat mərasimi keçirilib.**

Mərasimdə tanınmış ədəbiyyatşünaslar, mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri və çoxsaylı kitabsevərlər iştirak ediblər. AYB-nin 1-ci katibi, Xalq yazıçısı Çingiz Abdullayev, Milli Məclisin deputatları Aqil Abbas və Elçin Mirzəbəyli, kitabın nəşr olunduğu "MİMTA Yayımları"nın direktoru Əsəd Aslanoğlu və yazıçı-publisist Məti Osmanoğlu çıxış etdilər.

Natiqlər Qulu Ağsəsin özünəməxsus yaradıcılıq üslubuna, bədii dilinin dərinliyinə diqqət çəkdilər və yeni nəşrin məziyyətlərini göstərdilər. Qeyd olundu ki, poetik dillə nəsr təfəkkürünün uğurlu vəhdəti olan bu toplu, həm də gənc oxucuların milli özünüdərki üçün dəyərli bir ədəbi bələdçidir. Müəllifin obrazlı dili, faktlara qeyri-adi yanaşma tərzi hər bir essedən boy göstərir. Misal olaraq xatırlanan bir nümunə poetikliyi ilə xüsusi maraq doğurdu: "Deyirlər, silah dinəndə ilham susur. Bu dəfə silah dindi, İlham susmadı. İndi İlham dinir, silah susur. O, bizim İlhamdır! Xalqın İlhamı". Kitabdakı hər bir esse sözügedən olaylara bu cür özəl münasibətləri ilə zəngindir.

Kitabda müəllifin daxili dünyasını, səmimi etiraflarını və özünəməxsus müşahidələrini əks etdirən müxtəlif mövzulu esselərin toplandığı vurğulandı. Sonda çıxış edən Qulu Ağsəs bildirdi ki, kitabın adı 2020-ci il Vətən müharibəsi dövründə yaşanan hisslərdən qaynaqlanır. 44 günlük Zəfər yürüşü zamanı hər səhər qələbə xəbərini həsrətlə gözlədiyi üçün toplusunu "Saat 6-nı gözləyirəm" adlandırıb.

***Ə.ƏLİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 103 (31072) 13 iyun 2026-cı il, şənbə

*Lozannadan xəbər gözləyərkən…*

# "Turan" İstanbulda hansı heyətlə oynamışdı?

**İqamətgahı İsveçrənin Lozanna şəhərində yerləşən İdman Arbitraj Məhkəməsinin (CAS) sonuncu Azərbaycan Premyer Liqasının bürünc mükafatçısı kimi UEFA Konfrans Liqası turnirinə vəsiqə qazanmış "Turan Tovuz" klubu ilə bağlı məlum məsələ üzrə necə qərar qəbul edəcəyi artıq bu günlərdə elan olunacaq. Futbol ictimaiyyətimizin bu barədə xəbəri həyəcanla gözlədiyi bir vaxtda keçmişi xatırlayaq.**



Həmin gündən artıq 32 il ötsə də, Azərbaycan idmanının yaşlı pərəstişkarları Avropa Futbol Təşkilatları İttifaqının (UEFA) bayrağı altında keçirilən klub turnirlərinə respublikamızın komandaları arasında birinci olaraq Tovuzun "Turan" kollektivinin vəsiqə qazandığını unutmayıblar. Təmsilçimizin 1994-cü ildə UEFA Kuboku yarışının 1-ci təsnifat mərhələsinin ilk görüşündə İstanbulda Türkiyə futbolunun nəhənglərindən biri "Fənərbaxça"ya böyük hesabla (0:5) uduzması da yaddaşlardan silinməyib. Avrokuboklar meydanına ilk cığıraçanımız Tovuz klubunun tarixi oyunda çıxış etdiyi heyət isə,təbii ki, indi yadımızda deyil.

Ancaq bizdən fərqli olaraq, statistika heç nəyi unutmur, hər şeyi olduğu kimi yadında saxlayır. Onun köməyi ilə Tovuz futbolçularının İstanbul qarşılaşmasında hansı heyətlə mübarizə apardıqlarını xatırlayaq. Axı, onlar ən birincilərdir, tarix yazmışlar.

...9 avqust 1994-cü il. İstanbul. "Fənərbaxça"–"Turan". Qonaqlar belçikalı hakimlər briqadasının idarə etdiyi bu görüşdə belə heyətlə mübarizə aparmışlar: Nizami Sadıqov, Gennadi Drozdov, Sakit Alıyev, Elşad Əhmədov, Məqsəd Yaqubəliyev (Bəxtiyar Musayev, 62), Vəli Hüseynov, Mirbağır İsayev, Rüfət Quliyev, Qurban Qurbanov, İlham Məmmədov və Musa Qurbanlı. Komandanın baş məşqçisi isə Kazbek Tuayev olmuşdur.

Cavab matçının İstanbul tanışlığından iki həftə sonra, avqustun 23-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda keçirildiyini də qeyd edək. Bu dəfə "Turan" rəqibinə daha ciddi müqavimət göstərmişdir. "Fənər" yalnız çexiyalı hakim Lübomir Puçekin final işarəsinə 10 dəqiqə qalmış vurduğu iki qolla (birincisini 11 metrlik zərbə ilə) mərhələni iki qələbə ilə adlamış, "Turan" isə avrokuboklar sınaqlarında ilk dəfə bərkdən-boşdan çıxmış, rəsmi beynəlxalq meydanda mühitə uyğunlaşma şəraitində müəyyən təcrübə toplamışdır.

Elə buradaca bu gün Tovuz şəhər stadionunun açılış mərasimini xatırlatmaq istəyirəm. Ötən əsrin 70-ci illərinin sonu, ya da 80-ci illərin əvvəli idi. O zaman əməkdaşı olduğum "İdman"-"Sport" qəzeti redaksiyasının rəhbərliyi stadionun açılış mərasimindən material hazırlamaq üçün məni də fotomüxbirimiz Gennadi Malyovla birlikdə Tovuza ezam etmişdi. Azərbaycan KP MK-nın Elm və tədris müəssisələri şöbəsinin müdiri Fikrət Əhmədovun, qonşu rayonlardan gələn qonaqların da iştirak etdikləri bu unudulmaz tədbir əsl bayrama çevrildi və yerli idman həvəskarlarının ürəyindən oldu.

Həmin günəşli gündən (dəqiq yadımdadır) yarım əsrə yaxın vaxt keçir. Stadionun açılışından təxminən 15 il sonra "Turan" futbolçuları UEFA Kuboku turnirində starta çıxmışdılarsa, indi komanda "Turan Tovuz" adı ilə Konfrans Liqası nın qapısını öz üzünə açmışdır. Onda gördüyüm stadion yenilənmiş, abadlaşmış, müasirləşmiş və beynəlxalq miqyaslı yarışların iştirakçılarını qəbul etməyə hazırdır. Zəngin təcrübəli məşqçi Kurban Berdiyevin komandası isə sonuncu milli çempionatımızın bürünc mükafatçısı olmuşdur. Bunun futbolu, komandalarını ürəkdən sevən və daim onun yanında olmağa hazır olduqlarını oyunlara mütəşəkkil surətdə, hamılıqla gəlmələri ilə sübut edən tovuzlu azarkeşlər üçün necə bir qürur mənbəyinə çevrildiyini xüsusi qeyd etməyə elə bir ehtiyac yoxdur. Onlar Lozannadan necə xəbər alacaqlarından asılı olmayaraq, öz komandaları ilə haqlı olaraq fəxr edə bilərlər…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## İDMAN

### Avropa Olimpiya Komitələrinin 55-ci Baş Assambleyası



**Dünən Macarıstanın paytaxtı Budapeştdə Avropa Olimpiya Komitələrinin (AOK) 55-ci Baş Assambleyası öz işinə başlayıb. 2 gün davam edəcək tədbirdə ölkəmizi Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, xarici əlaqələr idarəsinin müdiri Anar Bağırov və beynəlxalq proqramlar idarəsinin müdiri Ceyhun Rəhmanov təmsil edirlər.**

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Kristi Koventri, Avropa Olimpiya Komitələrinin prezidenti Spiros Kapralos və digər ölkələrin MOK-larının iştirakı ilə keçirilən Baş Assambleyada bir çox məsələlər haqqında müzakirələr aparılacaq.

Milli Olimpiya Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, iclasın ilk günündə Türkiyədə keçiriləcək İstanbul–2027 Avropa Oyunlarına hazırlıqla bağlı fikirlər səsləndiriləcək, həmçinin Milan-Kartino XXV Qış Olimpiya Oyunlarının və Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) hesabatı dinləniləcək.

Baş Assambleya zamanı, həmçinin müxtəlif nominasiyalar üzrə qaliblərin mükafatlandırılması, bundan başqa iclasda Braşov–2027 XVIII Qış Avropa Gənclər Olimpiya Festivalı və Linyano-Sabbiadoro–2027 XIX Avropa Gənclər Yay Olimpiya Festivalı və AOK-un komissiyasının hesabatları, WADA-nın tibb və antidopinqlə bağlı hesabatları dinləniləcək. İclasda 2027-ci ildə Monakoda keçiriləcək Kiçik Avropa Dövlətlərinin Oyunları ilə bağlı təqdimat və yeniliklərlə bağlı müzakirələr aparılacaq.

### Kanoeçimiz Avropa çempionu olub




**Portuqaliyanın Montemor-u-Velyu şəhərində kayak və kanoe üzrə Avropa çempionatı keçirilir. Təmsilçimiz Boqdan Kurudz (35–39 yaş) Masters kateqoriyasında qızıl medal qazanıb. 500 metr məsafəyə birnəfərlik kanoe qayığında mübarizə aparan Kurudz bütün rəqiblərini geridə qoyaraq Avropa çempionu adına layiq görülüb.**

Qeyd edək ki, Boqdan Kurudz bu gün birnəfərlik kanoe qayığında 200 metr məsafəyə yarışacaq.

### Çində Dünya boks kuboku




**İyunun 15-də Çinin Quyyan şəhərində boks üzrə Dünya kuboku start götürəcək. 7 gün davam edəcək yarışda Azərbaycan millisi də mübarizə aparacaq.**

Kişilərdən ibarət komandanın baş məşqçisi Ravşan Xocayev reytinq xarakterli Dünya kubokunda Sübhan Məmmədov (50 kq), Amin Məmmədzadə (55 kq), Məhəmmədəli Aşıraliyev (60 kq), Malik Həsənov (65 kq), Nəbi İsgəndərov (70 kq), Səidcəmşid Cəfərov (75 kq), Murad Allahverdiyev (80 kq) və Alfonso Dominqesə (90 kq) şans verəcək.

Çimkənddə təlim-məşq toplanışında olan boksçularımız Quyyana Qazaxıstandan yollanacaqlar. Dünya kubokunun püşkü iyunun 14-də atılacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

## "Bakı Hərrac Mərkəzi" MMC

A066/26. Qubanın, Vladimirovka kəndində yerləşən 2.56 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin açıq hərracdakı satış qiyməti 25000 manatdır. Əmlakın açıq hərracı 1 iyul 2026-cı il saat 11.00-da keçiriləcəkdir. Satış qiymətinin 5%-i həcmində beh hərrac tarixinə ən azı 5 gün qalmış hərrac təşkilatına nağd və ya köçürmə yolu ilə ödənilməlidir. Alış qiyməti 7 təqvim günü ərzində sifarişçinin hesabına ödənilməlidir. Açıq hərracda iştirak etmək üçün lazımi sənədlər: F/Ş şəxsiyyət vəsiqəsi və H/Ş təsis sənədləridir. Ünvan: Bakının Səbail rayonu, Badamdar qəsəbəsi, Badamdar şosesi 27. ("AVİS" aptekin arxası). Telefon: 050-206-66-67, rəsmi sayt: http://e-lot.az

A067/26. Köhnə ünvan: Abşeron rayonunun Novxanı kəndinin Bağlar massivindəki 0.06 hektar torpaq sahəsində yerləşən, ümumi sahəsi 98.80 m2 olan 3 mərtəbəli bağ evinin (təmirsiz) açıq hərracdakı satış qiyməti 70000 manatdır. Əmlakın açıq hərracı 1 iyul 2026-cı il saat 11.00-da keçiriləcəkdir. Satış qiymətinin 5%-i həcmində beh, hərrac tarixinə ən azı 5 gün qalmış hərrac təşkilatına nağd və ya köçürmə yolu ilə ödənilməlidir. Alış qiyməti 7 təqvim günü ərzində sifarişçinin hesabına ödənilməlidir. Açıq hərracda iştirak etmək üçün lazımi sənədlər: F/Ş şəxsiyyət vəsiqəsi və H/Ş təsis sənədləri. Ünvan: Bakının Səbail rayonu, Badamdar qəsəbəsi, Badamdar şosesi 27. ("AVİS" aptekin arxası). Telefon: 050-206-66-67, rəsmi sayt: http://e-lot.az

M027/26. 40 ədəd kompüter dəsti HP Pro 3500, DİV EA+ Monitor, 10 ədəd kompüter (notebook HP), 10 ədəd notebook, Acer Aspire V5 Dual Core açıq hərracdakı satış qiyməti 252 manatdır. Əmlakın açıq hərracı 1 iyul 2026-cı il saat 11.00-da keçiriləcəkdir. Satış qiymətinin 5%-i həcmində beh hərrac tarixinə ən azı 5 gün qalmış hərrac təşkilatına nağd və ya köçürmə yolu ilə ödənilməlidir. Alış qiyməti 7 təqvim günü ərzində sifarişçinin hesabına ödənilməlidir. Açıq hərracda iştirak etmək üçün lazımi sənədlər: F/Ş şəxsiyyət vəsiqəsi və H/Ş təsis sənədləri. Ünvan: Bakının Səbail rayonu, Badamdar qəsəbəsi, Badamdar şossesi 27. ("AVİS" aptekin arxası). Telefon: 050-206-66-67, rəsmi sayt: http://e-lot.az

## "AZENCO" ASC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "AZENCO" ASC-nin Nizamnaməsinə əsasən 31 iyul 2026-cı il saat 14.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin idarə heyətinin illik hesabatı.
**2.** Cəmiyyətin illik hesabatının təsdiqi.
**3.** Cəmiyyətin maliyyə-təftiş komissiyasının hesabatı.
**4.** Cəmiyyətin idarə heyətinin, müşahidə şurasının və maliyyə-təftiş komissiyasının yeni tərkibinin seçilməsi.
**5.** Cəmiyyətin maliyyə nəticələrinin müzakirəsi və mənfəətin bölüşdürülməsi.
**7.** Digər məsələlər.

Yığıncaq Mingəçevir Dövlət Universitetinin binasında keçiriləcəkdir.

**Əlaqə telefonları:** *(012) 424-75-66, (024) 275-32-72.*
**Ünvan:** *Mingəçevir şəhəri, D.Əliyeva küçəsi 21.*

***"AZENCO" ASC-nin idarə heyəti***

## HAVA

# Paytaxtda yağmursuz, rayonlarda yağış və dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 18-21, gündüz 26-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 757 millimetr civə sütunu, nisbi rütubət 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, əsasən dağlıq və dağətəyi rayonlarda yağıntıların bir qədər intensivləşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 18-



22, gündüz 30-35, dağlarda gecə 10-15, gündüz 18-23, bəzi yerlərdə 25-30 dərəcə isti olacağı ehtimal edilir.

***Q.ƏLİYEV***
***XQ***

✓ *Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən Xaçmaz rayonunun Nərəcan kənd sakini mərhum Mustafayeva Xonça Şahbuda qızının adına verilmiş fərdi yaşayış evinin 52 nömrəli reyestr qeydiyyat vəsiqəsi və pasportu itdiyi üçün etibarsız sayılır.*

✓ ***"DİKKART" MMC-yə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır. (VÖEN-2002395321)***

## "NEFTMAŞTƏMİR" ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*manatla*

| AKTİVLƏR | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | |
| Torpaq, tikili və avadanlıqlar | 381 324 | 436 616 |
| | 381 324 | 436 616 |
| Ehtiyatlar | 34 229 | 38 287 |
| Qısamüddətli debitor borcları | 247 599 | 1 215 728 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 57 495 | 4 183 |
| Sair qısamüddətli aktivlər | 855 805 | 624 169 |
| | 1 195 128 | 1 882 367 |
| CƏMİ AKTİVLƏR | 1 576 452 | 2 318 983 |
| KAPİTAL | | |
| Səhmdar (nizamnamə) kapitalı | 291 880 | 291 880 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 820 000 | 778 859 |
| CƏMİ KAPİTAL | 1 111 880 | 1 070 739 |
| ÖHDƏLİKLƏR | | |
| ***Qısamüddətli* öhdəliklər** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 31 739 | 389 100 |
| Qısamüddətli kreditor borcları | 432 833 | 673 792 |
| Sair qısamüddətli öhdəliklər | - | 185 352 |
| | 464 572 | 1 248 244 |
| CƏMİ ÖHDƏLİKLƏR | 464 572 | 1 248 244 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 1 576 452 | 2 318 983 |

### MƏNFƏƏT, ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 3 780 556 | 7 123 140 |
| Əsas əməliyyat xərcləri | (3 206 222) | (4 978 624) |
| Əməliyyat mənfəəti (zərəri) | 574 334 | 2 144 516 |
| Sair əməliyyat gəlirləri | 5 651 | 33 051 |
| Sair əməliyyat xərcləri | (9 664) | (9 078) |
| Fövqəladə gəlirlər | - | - |
| Fövqəladə xərclər | (6 257) | (636 647) |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | 564 064 | 1 531 842 |
| Mənfəət vergisi | (114 064) | (433 698) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 450 000 | 1 098 144 |

### MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Neftmaştəmir" ASC-nin səhmdarlarına və rəhbərliyinə**

**Rəy**

Biz, **"Neftmaştəmir" Açıq Səhmdar Cəmiyyətinin** (bundan sonra şirkət) 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətinə aid hesabatından, mənfəət, zərər və digər məcmu gəlirlərə aid hesabatından, kapitalda dəyişikliklər hesabatından, göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından və maliyyə hesabatlarına izahlı qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Bizcə, əlavə edilmiş maliyyə hesabatları şirkətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəicələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz, Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və şirkətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər şirkətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab edilir.

**"ANR Audit" MMC-nin direktor-auditoru Namiq Abbaslı**
**Bakı şəhəri, Azərbaycan Respublikası**
**31 mart 2026-cı il**

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3186
SİFARİŞ 728
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır 00:00